İxtisas: Təhsildə sosial psixoloji xidmət/ Psixologiya

Kafedra: Psixologiya, pedaqogika və sosial fənlər

Fənn: Eksperimental psixologiya

Müəllim:Kosayeva A.V.

Mühazirə.

Mövzu 1:Eksperimental psixologiyanın predmeti, məqsədi, vəzifələri

Plan:

1. Eksperimental psixologiyanın mövzusu.
2. Eksperimental psixologiyanın məqsədi.
3. Eksperimental psixologiyanın mənbələri.
4. Eksperimental psixologiyanın vəzifələri.
5. Eksperimental psixologiyanın digər elmlərlə əlaqəsi
6. **Ədəbiyyat :**

1. Əmrahlı L. Ş. Eksperimental psixologiya. Bakı, 2008
2. Qurbanova L.M. Eksperimental psixologiyaya dair mühazirə mətnləri. B.-Sum.: Dərələyəz- M,2010. (səh.8-11)
3. Экспериментальная психология: практикум: Учебное пособие / Н.И. Чернецкая. - М.: НИЦ ИНФРА-М, 2014. - 120 с. http://znanium.com/bookread.php?book=450407
4. Основы психологии: Учебное пособие / Э.В. Островский. - М.: Вузовский учебник: ИНФРА-М, 2012. - 268 с. http://znanium.com/bookread.php?book=229522 Программа дисциплины "Экспериментальная психология"; 030300.62 Психология; доцент, к.н. (доцент) Пучкова И.М. Регистрационный номер 80113615 Страница 18 из 21.

Mövzu ilə bağlı elektorn resurslar:

- http://anl.az/el/Kitab/2015/Azf-286949.pdf
- https://lektsii.com/1-96687.html

I. Eksperimental psixologiyanın mövzusu.

Psixologiya elmi uzun müddət teologiyanın, fəlsəfənin, fiziologiyanın tərkibində olmuş və müstəqil bir elm kimi tanınmamışdır. İlk eksperimentlər ilk dəfə 19-cu əsrin ortalarında fiziologiya labaratoriyalarında tətbiq olunmağa başladı. O dövrlərdə bu labaratoriyalarda elementar psixi funksiyalar – duyğular, qavrayış, reaksiya müddəti eksperimental yolla öyrənilirdi. Məhz bu labaratoriyalarda aparılan eksperimentlər eksperimental psixologiyanı yaratmaq ideyasının əmələ gəlməsini şətləndirdi.

Eksperimental psixologiya bir elm kimi formalaşana qədər psixologiya sahəsində əldə olunan biliklər təsviri xarakter daşıyır və onların dəqiqliyi yoxlanılmırdı. Eksperimental psixologiya yarandığı dövrdən başlayaraq psixoloji faktlar eksperimental yoxlama və nəzarətlə, nəticələrin statistik təhlili və korrelyasiyası yolu ilə öyrənilməyə başladı.

Eksperimental psixologiyada tarixən aparılmış tədqiqatlar iki mərhələyə bölünür: 1. Klinik-psixoloji mərhələ 2. Eksperimental mərhələ.

Birinci mərhələ XIX əsrin ortalarından başlayaraq XX əsrin ortalarına qədər davam etmişdir. Klinik psixoloji mərhələdə ilkin müşahidələr aparılmış və yekunda təhlil aparılaraq ilkin nəzəriyyələr irəli sürülmüşdür. Bu mərhələdə Helmhols, Vundt, Kreplin, Kreçmer, Titçener, Ebbinhaus, Külpe kimi tətqiqatçıların adı ilə bağlıdır. Ikinci mərhələdə aparılmış tətqiqatlar köçürülmə xarakteri daşıyırdı. Əsas cəhət bundan ibarət idi ki, eksperimental mərhələnin başlanması ilə əlaqədar olaraq psixi hadisələr yalnız eksperimentlər vasitəsi ilə öyrənilməyə başlandı. Ikinci mərhələ Almaniyanın Leypsinq universitetində V. Vundtun ilk eksperimental psixologiya labaratoriyasını yaratması ilə başlandı(1879). Bu gün psixologiyanın

bütün sahələrində eksperimentlər tətbiq olunur. Eksperimental psixologiya-psixoloji faktları (psixi proseslər, hallar və xassələri) eksperimental yolla öyrənən müstəqil sahədir. Eksperimental psixologiyanın mövzusu – psixika, davranış və şəxsiyyət haqqında emprik yolla əldə olunan məlumatları eksperimentlərdə sınaqdan keçirməklə etibarlı psixoloji biliklər əldə etməkdir.

Eksperimental psixologiya - psixoloji problemlərin öyrənilməsinə xidmət edən metodların işlənilməsi və onların tətbiqi prosesinə dair biliklər sistemini əks etdirən sahədir. Və ya, *eksperimental psixologiya* - eksperimental (təcrübi) tədqiqatların təşkili, tətbiqi məsələlərini və psixoloji metodlar sistemini öyrənir.

Nəzəri, empirik və tətbiqi araşdırmaların bir-birilə əlaqələndirilməsində eksperimental psixologiyanın rolu.

Psixoloji elmlərin bütün bölmələri nəzəriyyə <■—> praktika prinsipinə əsaslanır. Hər hansı tədqiqat prosesində tədqiqatçı üçün lazım olan ilkin məlumatlar müəyyən ədəbiyyat araşdırmalarından əldə edilir və ya digər tədqiqatçıların əldə etdikləri hazır nəticələrə əsaslanır. Belə tədqiqatlar nəzəri araşdırmalara aid edilir. Əldə olunmuş nəzəri məlumatlarda qaranlıq qalan məqamlar, eləcə də bu məlumatların elmi faktlarla təsdiqi təcrübi, təcrübi-tətbiqi və tətbiqi tədqiqatlar sayəsində mümkün olur. Hər bir psixologiya sahəsinin özünəməxsus aparıcı tədqiqat metodları var və bu metodların köməyilə həmin sahənin aktual problemləri tədqiq edilir. Və əldə olunmuş nəticələrin şərhindən ibarət məlumatlar həmin sahəyə aid elmi biliklər sisteminə daxil olur, onun zənginləşməsini təmin edir. Lakin elmi fakt kimi sübut olunmuş məlumatların alınma prosesi haqqında elmi yeniliklər isə eksperimental psixologiyanın inkişafını təmin edən biliklər sisteminə əlavə olunur. Deməli, eksperimental psixologiya nəzəri, empirik (təcrübi), tətbiqi tədqiqatların işlənilməsi, onların tətbiqi və əldə olunan nəticələrin interpretasiya mexanizmini özündə

cəmləşdirir (sxem 1). Buna görə də eksperimental psixologiya psixologiyanın ayrıca müstəqil bir sahəsi hesab edilmək statusunu qazanıb.

II. Eksperimental psixologiyanın məqsədi.

Eksperimental psixologiyanın məqsədi. Eksperimental psixologiyanın *məqsədi* psixoloji tədqiqatların nəzəriyyə və praktikasım işləmək, onların tətbiqini həyata keçirməklə psixoloji faktları əldə etməkdir. Deməli, başhca məqsəd psixoloji problemlərin eksperimental yolla öyrənilməsidir.

Eksperimental psixologiyanın məqsədi onun mövzusuna,yəni nəyi öyrənməsinə əsaslanır. Onun əsas məqsədi psixoloji faktların eksperiment yolu ilə öyrənilməsi və sınaqdan keçirilməsidir. Eksperimental psixologiyanın öyyrəndiyi faktlar aşağıdakı məsələri əhatə edir:

1. Psixi proses, hal və xassələrin təbiəti.
2. Psixika və şəxsiyyətin formalaşmasında bu və ya digər dərəcədə rolu olan təsirlər.
3. Şəxsiyyətin struktur komponentlərinin təbii və sosial amillərlə qarşılıqlı əlaqəsi.
4. Davranışın situativ dəyişmələrinin səbəbləri.
5. Psixikanın ontogenetik inkişaf dinamikası.
6. Psixikanın qeyri normal əlamətləri.

Öyrənilən psixi faktlar eksperimentlər yolu ilə təsdiq olunduqda daha dəqiq və etibarlı olur. Belə faktlar bütün psixoloqlar tərəfindən qəbul olunur. Hər bir psixoloji faktın etibarlılığını yoxlamaq üçün ekperimentlər qoyulur, əldə olunan faktlar yoxlanılır. Əldə olunmuş faktların təhlili və şərhi nəticəsində daha dəqiq psixoloji biliklər toplanır. Eksperimental psixologiya qarşısına qoyduğu məqsədə

nail olmaq üçün əsasən eksperimental proseduradan və psixologiyanın digər mtodlarından istifadə edir.

III. Eksperimental psixologiyanın mənbələri.

Hər şeydən əvvəl qeyd edək ki, materialist ənənələrin psixologiya elminə daxil olması onun təbiətşunaslıqla əlaqəsini daha da möhkəmləndirdi. Bu isə öz növbəsində eksperimentin psixologiya elminə ayaq açmasına imkan verdi. Eksperiment- psixologiya elminin bütün müddəalarınınvə nəzəri problemlərinin düzgünlüyü və etibarlılığını yoxlamağa imkan verdiyi üçün psixologia elmi eksperimental elm adlanır. Eyni zamanda qeyd etmək lazımdır ki, eksperiment psixologiyanı müstəqil elmə çevirdi.

Eksperimental psixologiyanın mənbələrindən birində də Eksperimental psixologiyanın. Eksperimental psixologiyanınundtun təlimi durur.1832-ci ildə bitirdikdən sonra tibb institutunda oxumuş, bundan sonra isə Heydelberq universitetində təhsil almışdır. O, fiziologiya labaratoriyasında asistent kimi hiss üzvlərinin fiziologiyasından praktik məşğələlər aparırdı. 1864-cü ildə o, fiziologiya üzrə professor elmi adı alır. 1875-ci ildə isə Leypsiq universitetində fəlsəfə üzrə professor elmi adı alır. Vundtun ən böyük xidmətlərindən biri onun dünyada ilk dəfə 1879-cu ildə Almaniyanın Leypsiq universitetində eksperimental psixologiya labaratoriyasını təşkil etməsi hesab edilir. Bu labaratoriya ilk rəsmi labaratoriya idi. Labaratoriya sonradan genişləndi və psixologya institutuna çevrildi. Nəhayət həmin institut dünyada ilk professional psixoloqlar hazırlayan mərkəzə çevrildi. Bu labaratoriyada istifadə olunan cihazların bir qismini Vundt özü hazırlamışdı. Taxıstskoskopu, xronoskopu bunlara misal göstərmək olar. Vundtun əsas məqsədi belə idi ki, institutda bütün

işlər psixoloq kadrların hazırlanması istiqamətində qurulsun. Onun institutunda hazırlıq keçən tələbələrlə iş 3 mərhələdə aparılırdı:

1. Tələbələr yeni psixologiyanın əsasları ilə nəzəri tanış olurdular.
2. Onlar psixologiyanın metodları ilə praktiki tanış olurdular.
3. Tələbələr psixologiya üzrə müstəqil elmi tədqiqat işi aparırdılar.

Vundtun labaratoriyasında duyğular, qavrayış və reaksiya müddəti eksperimental yolla öyrənilirdi.

IV.Eksperimental psixologiyanın vəzifələri.

Eksperimental psixologiyanın ilkin vəzifəsi psixologiya elmini tədqiqat metodları ilə təmin etmək idi. Sonralar bu sahə inkişaf etmiş və maraq dairəsi daha da genişlənmişdir: psixoloji eksperimentlərə dair prinsiplər və bu prinsiplər üzərində müəyyən təkmilləşmə əməliyyatları aparılmaqla psixologiya elmini maraqlandıran bütün istiqamətlər üzrə tədqiqat metodları işlənilmiş, bu metodların tətbiqi xüsusiyyətlərinə dair elmi tələblər müəyyənləşdirilmişdir. Eksperimental psixologiya həm də psixoloji tədqiqatların və bu tədqiqatlarda istifadə olunan tədqiqat metodlarının effektivliyi və inkişafı məsələlərini də öyrənir.

Praktikada eksperimental psixologiyaya psixologiyanın təcrübi-tətbiqi sahəsi çərçivəsində təcrübələrin qoyuluşu, işlənilməsi və digər korreksiya əməliyyatlarının aparılması qanunauyğunluqlarım əks etdirən bir sahə kimi yanaşılır (məsələn, hər hansı psixoloji dəyişildiyin inkişaf dinamikası, effektivliyi, yeniliyi və digər cəhətlərinin tədqiqi prosesini

həyata keçirən sahə). Əsasən psixofiziologiya, duyğu və qavrayış psixologiyasının öyrənilməsi bu sahəyə aid metodların inkişafında əhəmiyyətli rol oynamışdır. Hazırda isə eksperimental psixologiya bütün psixoloji elmlərin inkişafında mühüm rol oynayır, eləcə də digər elmlərlə sıx əməkdaşlıq edir.

Eksperimental psixologiyanın vəzifələri iki qrupa: nəzəri və praktiki vəzifələrə ayrılır. Nəzəri vəzifələrə eksperimental psixologiyanın metodoloji pronsiplərinin, yeni eksperimental metodlar və metodikaların işlənib hazırlanmasını , yeni eksperimental proseduraların işlənib hazırlanmasını, nəzəriyyə və konsepsiyaların işlənib hazırlanmasını aid edirlər. Praktik vəzifələrə isə eksperimental metodlar və metodikaların tətbiq olunması, nəzəriyyə və konsepsiyaların eksperimentlər vasitəsi ilə yoxlanması aid edilir. Psixologiyada eksperimental metodun yaranması tətqiqatçıların qarşısında bir sıra yeni vəzifələr qoydu. Bunlar aşağıdakılardır:

1. Psixologiyanı təbiətşunaslıqdan, təbabətdən, fəlsəfədən, fizikadan, fiziologiyadan, biologiyadan, kimyadan və digər elm sahəərindən ayırmaq və müstəqil elm sahəsi kimi inkşaf etdirmək,
2. Psixi hadisələr arasındakı əlaqə və münasibətlərin sisteminin müəyyənləşdirilmək,
3. Yoxlayıcı eksperimentlər vasitəsi ilə dəqiq nəticələr əldə etmək, onun nəticəsinə görə bir və ya bir neçə psixoloji fakt arasında əlaqə yaratmaqla elmi psixoloji bilikləri zənginləşdirmək.
4. Eksperimental yolla psixikanın və şəxsiyyətin formalaşmasında rolu olan amillər haqqında elmi-psixoloji faktlar əldə etmək.
5. Tədqiq olunan problem haqqında real faktlar əldə etmək üçün səmərəli qaydalar və normalar müəyyənləşdirmək.

Bu vəzifələrin uğurlu həlli sayəsində hazırda elmi psixologiya dünya elmləri arasında prioritet yerlərdən birini tutur.

V.Eksperimental psixologiyanın digər psixoloji elmlərlə qarşılıqlı əlaqəsi. Psixoloji araşdırmalara eksperimentlərin daxil edilməsi psixologiya tarixində yeni səhifənin açılmasına səbəb oldu və vaxtilə fəlsəfənin tərkibində inkişaf edən psixologiya müstəqil elmə çevrildi. İnkişafının ilkin illərində psixologiya elminin psixofiziologiya elmi ilə identifikliyi çox idi, lakin sonralar psixoloji eksperimentlərə aid özünəməxsus metodologiyanın formalaşması və praktikaya tətbiq edilməsi psixologiya elmi üçün əhəmiyyətli hesab ediləcək elmi dəlillərin əldə edilməsi prosesini təkmilləşdirdi. Bu proses də psixologiyanın eksperimental adlanan sahəsinin inkişafına şərait yaratdı. XIX əsrdə ümumi psixologiya elminin qarşısında duran bir sıra mühüm problemlərin həlli və bu məqsədlə də yaranan tələbatların ödənilməsi

psixologiya eksperimental psixologiyanın inkişafını daha da sürətləndirdi. Eksperimental psixologiyaya qədərki məlumatları eksperimental psixologiya adı altında cəmləşdirən və beləliklə də, bu sahənin formalaşmasının təməlini qoyan insan məhz dünyada ilk elmi psixologiya məktəbini yaratmış V.Vundt (əslən alman olan, psixoloq və fizioloq) hesab edilir. Eksperimental psixologiya elminin bugünkü səviyyəyə çatmasında bir sıra görkəmli fizioloqların (Bine, Pavlov, Seçenov), fiziklərin (Buqer, Veber, Fexner, Helmhols), həkimlərin (Bexterev) də əhəmiyyətli rolu mövcuddur. Bu insanlar öz sahələrində əldə etdikləri nailiyyətləri psixologiya elminə gətirməklə bu elmin inkişafına öz dəyərli töhvələrini verə bildilər və bununla da psixologiyanın inkişaf tarixinə öz adlarını yazdılar. Eksperimental psixologiyanı ümumi psixologiyanın digər sahələrindən fərqləndirən xüsusi bir cizgisi də məhz onun riyazi əməliyyatlarla zənginliyindədir (riyazi əməliyyatların psixologiya elminə gətirilməsi F.Haltonun adı ilə bağlıdır).

Mövzu 4. Eksperimental psixoloji tədqiqat metodlarının təsnifatı

Plan:

1. Metod va metodologiya anlayışları.
2. Psixoloji metodların təsnifatı
3. Psixoloji metodların elmiliyini şərtləndirən tələblər

Ədəbiyyat:

1. Bayramov Ə.S., Əlizadə Ə.Ə.Psixologiya.Bakı, 2003
2. Qurbanova L.M. Eksperimental psixologiya. Bakı, 2014
3. Qurbanova L.M.Eksperimental psixologiyaya dair mühazirə mətnləri. B-Sum.Dərələyəz –M, 2010.
4. Əmrahlı L.Ş. Eksperimental psixologiya.Dərs vəsaiti Bakı, 2014
5. Quliyev E.M. Eksperimental psixologiya. Testlər.Tədris vəsaiti.ADPU-nun nəşri. Bakı, 2014.

Mövzu ilə bağlı elektorn resurslar

- https://akademik.expert/subjects/psikhologija/samples/metody-issledovanija-v-psikhologii-metody-issledovanija-v-pedagogicheskojj-psikhologii/https://works.doklad.ru/view/M-3-iR3Jb6k/all.html

1.Metod va metodologiya anlayışları.

Metod (yunanca metodos sözündən götürülmüş, tədqiqat, yaxud idrak yolu, nəzəriyyə, təlim mənasını verir) - tədqiqat məqsədli konkret bir vəzifəni həyata keçirərkən nəzəri və əməli fəaliyyətdə istifadə edilən əməliyyat və üsulların məcmusudur. Psixoloji tədqiqatın metodları - psixoloji problem və ya gerçəkliyi tədqiq etmək üçün istifadə edilən üsullar sistemidir. Elmin hər bir üsulu özünün nəzəri-idraki və məntiqi imkanlarına malik olur (bu imkanlardan kənarda həmin üsulun effektivliyi aşağı düşür). Tədiqiqatın metodları öz metodologiyasına əsaslanır. Metodologiya - metod və logiya sözlərinin birləşməsindən ibarət olub, fəaliyyətin strukturu, məntiqi təşkili, metod və vasitələri haqqında təlim deməkdir. Müasir elmdə metodologiya hər şeydən əvvəl elmi və əməli fəaliyyət üsulları,

onların yaranması, inkişafı, bir- birini əvəz etməsi qanunauyğunluqları haqqında elm kimi başa düşülür.

2.Psixoloji metodların təsnifatı.

Psixologiyada istifadə olunan metodların sayı çoxdur. Psixologiya elmi inkişaf etdikcə onun metodlar sistemi də genişlənir və təkmilləşir. Məhz bu baxımdan da onların sayına məhdudiyyət qoymaq düzgün olmazdı.

Psixoloji metodlar içərisində ən populyar olanlarını xarakterik cəhətlərinə görə aşağıdakı kimi qruplaşdırmaq olar:

****tədqiq olunanın cavablarına görə:***

• *subyektiv metodlar* - cavablar tədqiq olunanın subyektiv fikirlərinə əsaslanır, məsələn, müsahibə,
avtobioqrafiya, özünüqiymətləndirmə metodları, anketlər, özünümüşahidələr və s.

• *obyektiv metodlar* - əldə olunan məlumatlar obyektiv göstəricilərə əsaslanır, məsələn, nailiyyət, intellekt və bacarıqları təyin edən testlər; psixomotor metodlar; praksimetriya, fəaliyyət xarakterli (məsələn, reaksiya müddətinin təyin edilməsi) eksperimentlər; obyektiv müşahidələr (məsələn, təbii müşahidələr, özünümüşahidələr və s.), lakin müşahidələr təhlil edilərkən interpretator tərəfindən heç bir subyektivliyə yol verilməməlidir və əldə olunan nəticələrdə adekvatlıq, validlik tələbləri ödənilməlidir;

• *proyektiv metodlar* - tədqiq olunanın cavabları onun şəxsi keyfiyyətlərinə uyğun fərziyyələrə, təsəvvürlərə əsaslanır (məsələn, yarımçıq hekayənin tamamlanması, müxtəlif mənalar verəcək şəklin interpretasiyası və s.); bu metodlarla şəxsiyyətin daxili aləmi, arzuları, motivləri, problemləri və s. aşkarlana bilər;

**** tədqiqatın obyektinə görə:***

• *heyvanları tədqiq edən metodlar;*

• *insanları*

• *sosial qrupları*

• *kütləvi kommunikasiyanı tədqiq edən metodlar;*

**** tədqiqatın mövzusuna görə:***

• *psixi prosesləri tədqiq edən metodlar;*

• *psixi xassələri...;*

• *psixi halları ...;*

• *şəxsiyyəti...;*

• *davranışı tədqiq edən metodlar;*

★şəxsiyyətin strukturuna aid olan komponentlərin tədqiqinə görə:

• *bacarıq, qabiliyyət, temperamenti tədqiq edən testlər yə s.*

*****elmi qanunauyğunluğa görə:***

• *şəxsiyyət psixologiyasım tədqiq edən metodlar;*

• *psixofizika metodları;*

• *sosial-psixoloji metodlar;*

• *psixofizioloji metodlar;*

• *zoopsixologiya metodları;*

• *psixo-pedaqoji metodlar yə s.*

*****öyrənilən obyektə təsir etmə məqsədinə yə xarakterinə görə:***

• *tədqiqedici metodlar* - araşdırılan obyekt və mövzu haqqmda yeni biliklərin əldə olunmasını təmin edir; bu metodların köməyilə yeni məlumatlar əldə etməklə yanaşı, psixi hadisələrin baş vermə səbəbləri, onlann gedişatı, inkişafı haqqmda da proqnoz

vermək mümkündür; hər hansı fakt və qanunauyğunluqları aşkarlamaq və ya onlann mövcudluğunu təsdiq etmək məqsədi daşıyan eksperimental metodları, müşahidələri, sorğuları, müsahibələri və modelləşdirmə metodlarını belə metodlara aid etmək olar;

• *diaqnostik metodlar* - belə metodların əsas məqsədi hər hansı öyrənilən obyektin məlum olmayan psixoloji xarakteristikası və onun inkişaf səviyyəsi ilə bağlı diaqnoz əməliyyatı keçirməkdir, buna görə də belə metodları adətən psixodiaqnostik metodlar adlandırırlar; buraya testlərin bütün növlərini, eksperimental xarakterli olmayan bir sıra sosial- psixoloji metodları, bəzi müşahidələri, sorğuları, müsahibələri və s. aid etmək olar;

• *psixoloji konsultasiya metodları* - obyektlə (insan, qrup) konsultantın qarşılıqlı təsiri sayəsində onun həyati fəaliyyəti və psixoloji sferasının nizamlanmasına yönəldilmiş məsləhətvermə metodlarıdır (məsələn, söhbətlər, treninqlər, nümunə olacaq həyati təcrübələr və s.);

• *psixokorreksiya metodları* - şəxsiyyətin davranışının və ya psixoloji durumunun düzəldilməsinə yönəldilmiş metodlar (məsələn, psixoterapiya, aktiv treninqlər, müəyyən təminatverici psixodiaq- nostikalar və s.);

★stimulların və tədqiq olunanların cavablarının formalarına görə:

• verbal (stimul və cavablar şifahi formada olur);

• qeyri-verbal (stimul və cavablar şifahi formada olmur);

• qarışıq (stimul şifahi, cavablar isə şifahi formada olmur);

★tədqiq olunanların sayına görə:

• fərdi metod - yalnız bir nəfəri tədqiq etmək üçün nəzərdə tutulub;

• qrup metodu - çox sayda insanları tədqiq etmək üçün nəzərdə tutulub;

★unifikasiya həddinə görə:

• standartlara uyğun;

• standartlara uyğun olmayan;

• yanmstandart;

★təlimatların tipinə görə:

• təlimatlı metodlar;

• təlimatsız metodlar (tədqiq olunanın tədqiq edildiyini bilməməsi üçün tətbiq olunur);

** **texniki cəhətdən təchiz olunmasına görə:***

• aparatlı metodlar (məsələn, EHM, sekundomer və s.);

• aparatsız metodlar (belə metodlardan alman nəticələr kağız və qələmlə qeydiyyata alındığından onlara «kağız-qələm» metodları da deyilir).

Psixoloji metodları tipinə görə ***empirik və qeyri- empirik*** olmaqla aşağıdakı kimi təsnif etmək olar:
*I **Qeyri-empirik metodlar:***

*1) **təşkilati metodlar:***

- müqayisəli;

- lonqityud;

- kompleks;

2) ***göstəricilərin işlənilməsi (təhlili) metodları:***

- kəmiyyət;

- keyfiyyət;

3) ***interpretasiya (şərh) metodları:***

- genetik;

- struktur;

- funksional;

- kompleks;

- sistemli.

II. Empirik metodlar:
3) müşahidə:

- obyektiv müşahidə;

- özünümüşahidə və s.;

2) kommunikativ metodlar:

- sorğu;

- müsahibə (anket və intervyu);

3) eksperimental metodlar:

- laborator;

- təbii;

- formalaşdırıcı və s.;

4) psixodiaqnostik metodlar:

- psixodiaqnostik testlər;

- psixosemantik və psixomotor metodlar;

- şəxsiyyətin sosial-psixoloji cəhətdən diaqnostikasını həyata keçirən metodlar;

5) psixoterapevtik metodlar;

6) fəaliyyət məhsullarının tədqiqi metodları:

- rekonstruksiya metodları;

- arxiv metodu (sənədlərin tədqiqini həyata keçirir);

- psixoqrafologiya;

7) bioqrafik metodlar;

8) psixofizioloji metodlar:

- vegetativ sinir sisteminin işini tədqiq edən metodlar;

- somatik sinir sisteminin işini tədqiq edən metodlar;

- mərkəzi sinir sisteminin işini tədqiq edən metodlar;

9) praksimetrik metodlar:

- fəaliyyət və hərəkətləri ayrı-ayrılıqda tədqiq edən metodlar;

- əmək və yaradıcılıq fəaliyyətini tədqiq edən metodlar;

10) modelləşdirmə:

- psixikanın modelləşdirilməsi;

- psixoloji modelləşdirmə;

11) psixoloji elmlərin ayrı-ayrı istiqamətlərində istifadə olunan xüsusi metodlar.

3.Psixoloji metodların elmiliyini şərtləndirən tələblər.

Digər elmlərdə olduğu kimi, psixologiya elminin tədqiqat metodları da bir sıra vacib tələbatları ödəməlidir. Bu elmiliyi şərtləndirən tələbatlardan əsaslan - validlik, dəqiqlik, etibarlılıq (mötəbərlik), reprezentativlikdir. ***Validlik*** - istifadə ediləcək metodun aparılacaq tədqiqata uyğunluğunu ifadə edir. İstifadə edilmiş metodun köməyilə əldə edilmiş göstəricilərin nə dərəcədə lazımi keyfiyyəti əks etdirməsi ilə də validliyi müəyyən etmək olar. Məsələn, erkən yaş dövründə olan uşağın

motivlərinin əsaslarım onun öz sözlərilə izah etməsinə əsasən tədqiq edən metodlan validli metod hesab etmək olmaz, belə ki, uşaq öz hərəkətlərinin həqiqi motivlərini başa düşməyə də bilər**.** ***Dəqiqlik*** - metodun elə xüsusiyyətidir ki, onun köməyilə öyrənilən keyfiyyətin daha incə məqamları aşkarlanır. Məsələn, «qətiyyətlə hə», «demək olar ki, hə», «demək olar ki, yox» «bilmirəm», «qətiyyətlə yox» seçimləri olan sorğunun nəticələri «hə» və ya «yox» seçimləri olan sorğunun nəticələri ilə müqayisədə daha dəqiq göstəricili olacaq. ***Mötəbərlik*** - metodun elə xüsusiyyətidir ki, hansı şəraitlərdə və eləcə də, kimin tərəfindən aparılmasından asıh olmayaraq eyni nəticənin verilməsini təmin edir. ***Reprezentativlik*** (fran.-ca *representatif* - göstərici deməkdir) - tədqiq olunacaq qruplardakı insanların say nisbətinin (məsələn, cinsi mənsubiyyət, sosial qrup və siniflər baxımından) bir-birinə uyğunluğunu təmin edir.

Mövzu 5. Eksperimental psixologiyada empirik və qeyri empirik metodlardan istifadə

Plan:

1. Qeyri-empirik tədqiqat metodu haqqında
2. Empirik tədqiqat metodu haqqında
3. Empirik metodlar sıralanması

Ədəbiyyat:

6. Bayramov Ə.S., Əlizadə Ə.Ə.Psixologiya.Bakı, 2003
7. Qurbanova L.M. Eksperimental psixologiya. Bakı, 2014
8. Qurbanova L.M.Eksperimental psixologiyaya dair mühazirə mətnləri. B-Sum.Dərələyəz –M, 2010.
9. Əmrahlı L.Ş. Eksperimental psixologiya.Dərs vəsaiti Bakı, 2014
10. Quliyev E.M. Eksperimental psixologiya. Testlər.Tədris vəsaiti.ADPU-nun nəşri. Bakı, 2014.

***İstifadə olunan ədəbiyatlar**

- Qurbanova L.M. “Eksperimental psixologiyaya” Bakı, 2014(səh.138-151)
    - Джонсон Х.Х.,Бил М.К. Экспериментальная психология.СПБ: прайм-Еврознак,2001,
    - Дружинин В.Н. Экспериментальная психология. М: Просвещение,1997.

1.Qeyri-empirik metodlar

Qeyri-empirik metodlar dedikdə, tədqiqatçı ilə tədqiq olunan obyekt arasında heç bir kontakt (əlaqə, toxunma) olmadan aparılan psixoloji elmi araşdırma üsullarının məcmusu başa düşülür. Bu metodların köməyilə psixoloji məlumatların əldə olunması prosesini təşkil və tədqiqat prosesinin gedişatından əldə olunmuş nəticələrin təsdiq olunmuş elmi biliklərə çevrilməsini təmin etmək olar. Qeyri-empirik metodlardan ən geniş yayılanlarını növbəti şəkildə qruplaşdırmaq mümkündür:

1) təşkilati metodlar;
2) məlumatların işlənilməsi metodları;
3) interpretasiya metodları.

Təşkilati metodlar. Bu metod özündə konkret tədqiqat üsulunu deyil, prosedur strategiyanı əks etdirir: tədqiqatın vəzifələrinə müvafiq olaraq bu və ya digər təşkilati metod seçilir və seçilmiş təşkilati metoddan asılı olaraq sonrakı proses üçün konkret metodlar sistemi müəyyənləşdirilir. Təşkilati metodların üç növü məlumdur: müqayisəli, lonqityudal və kompleks.

****Müqavisəli metod*** - müəyyən vaxt anlarında müxtəlif obyektlərin və ya bir obyektin müxtəlif tərəflərinin bir- birilə müqayisəsinə əsaslanır. Əldə olunmuş bütün məlumatlar bir-birilə müqayisə edilərək onlar arasındakı qarşılıqlı əlaqə təyin edilir. Belə yanaşma psixi hadisələrlə bağlı mövcud olan müxtəlifliyi, əlaqələri və evolyusiyanı (təkamül, tədrici inkişaf) aşkarlamağa imkan verir. Məsələn, hər hansı fərdə aid cinsi, etnik və ya yaş xüsusiyyətlərini öyrənərək digər fərdlərə xas olan eyni adlı xüsusiyyətlərlə müqayisə aparmaq olar. Bu müqayisələr saatlarla, günlərlə, həftələrlə (öyrənilən obyekt haqqında qarşıya qoyulmuş məqsədin təmin olunmasına qədər) və s. aparıla bilər. Ən maraqlı müqayisə metodları psixikanın evolyusiyasının tədqiqi ilə bağlıdır. Belə ki, burada müqayisə obyektləri rolunda insanla primatların, arxan- tropların, paleoantropların müqayisəsi aparılır və zoopsi-

xologiya, antropologiya, paleopsixologiya, arxeologiya, insanın və heyvanların təkamülünü tədqiq edən digər elmlər üçün lazımi məlumatlar əldə edilir. Hətta belə təhlillərin və təqiqatlann aparılması ilə məşğul olan ayrıca bir bölmə - «müqayisəli psixologiya» formalaşmışdır. Differensial psixologiyada da müqayisə metodunun tətbiqinə geniş yer verilir, yaş və inkişaf psixologiyasında müqayisə metodunun müxtəlif formalarından istifadə olunur. Məsələn, «kəsmə» üsulunda insanın ontogenetik inkişaf mərhələləri (körpəlik, uşaqlıq, yeniyetməlik və s.) haqqında müxtəlif məlumatlar əldə etmək və uyğun kontingentlər arasında müvafiq əlaqələr də aşkarlamaq mümkündür. Əldə olunan məlumatlar insanın konkret yaş dövrü üçün etalon rolunu oynaya bilər. Zərurət yarandıqda müqayisəli metodlar istənilən empirik metodla vəhdətdə də istifadə oluna bilər.

***Lonqityudal metod** (lat, long - uzun mənasını verir)*- hər hansı obyektin uzunmüddətli və sistematik öyrənilməsini həyata keçirir. Psixologiyada lonqityudal metodlardan adətən inkişafın dinamikasının öyrənilməsində istifadə olunur. Burada da fərdin həyatının müəyyən anlarına aid məlumatları özündə əks etdirən kəsmə üsullarından istifadə oluna bilər. Lakin lonqityudal metodlar içərisində ən çox tətbiq olunam müşahidədir. Lonqityudal müşahidələri aşağıdakı kimi təsnif etmək olar:

• *tədqiqatın müddətinə görə:*

1) qısamüddətli müşahidə - ontogenezin müəyyən mərhələsinin tədqiqinə əsaslanır və vaxt etibarilə müşahidənin aparılmasına az vaxt sərf olunur, məsələn, uşaqlığın südəmər dövrünün, yeniyetməliyin cinsi yetişkənlik dövrünün və s. tədqiqi ilə bağlı aparılan qısamüddətli müşahidələr;

2) uzunmüddətli müşahidə - hər hansı inkişaf dövrü və ya ayrı-ayrı dövrlərdə baş verən proseslər arasında qarşılıqlı əlaqəni aşkarlamaq məqsədi daşıyır və vaxt etibarilə müşahidənin aparılmasına uzun müddət tələb olunur;

3) sürətli müşahidə - hər hansı məlumatın əldə olunması üçün müşahidənin çox qısa müddətdə aparılması yetərli hesab olunur;

• *tədqiqatın gedişatının istiqamətinə görə:*

1) retrospektiv müşahidə - insanın keçmiş keyfiyyətləri və inkişafının (formalaşmasının) tədqiqini həyata keçirir və belə müşahidələr bioqrafik məlumatların toplanmasına, fəaliyyət məhsullarının təhlillərinə əsasən aparılır;

2) perspektiv müşahidələr - tədqiqat üçün nəzərdə tutulmuş müddətə qədər insanın (heyvanın, qrupların) inkişaf dinamikasının müşahidəsinə əsaslanır;

3) birləşmiş müşahidələr - perspektiv müşahidələrə retrospektiv elementlərin birləşdirilməsinə əsaslanır;

• *tətbiq olunan üsullardan asılı olaraq:*

1) həqiqi lonqityudal müşahidə - bir obyekt üzərində uzun müddət aparılan müşahidəni əks etdirir;

2) qarışıq müşahidə - ayrı-ayrı obyektlər haqqındakı məlumatların tədqiq olunan obyekt haqqındakı məlumatlarla müqayisəsi baxımından həqiqi lonqityudal müşahidəyə zaman-zaman kəsmə üsulları da daxil edilir;

3) saxta lonqityudal müşahidələr - ayrı-ayrı yaş qruplarının normaları haqqında məlumatların alınması və bu məlumatların xronoloji ardıcıllıqla yerləşdirilməsini həyata keçirir; ontogenetik psixoloji məlumatların çoxu bu metodların tətbiqi sayəsində əldə olunub.

**Kompleks metod (və va kompleks yanaşma)* - hər hansı obyektin kompleks şəkildə tədqiqinin həyata keçirilməsini təmin edir.

Məlumatların işlənilməsi. Məlumatların işlənilməsi və ya təhlili dedikdə, tədqiqat prosesinin gedişatından əldə olunmuş nəticələrin həm *kəmiyyət,* həm də *keyfiyyət* baxımdan işlənilməsi metodları başa düşülür.
**Kəmivvət metodları* - tədqiqatın gedişatından əldə olunmuş məlumatların kəmiyyət təhlilini həyata keçirir və bu metodları aşağıdakı şəkildə təsnif etmək olar:

1) sadə (ilkin) təhlil metodları (məsələn, diaqramların, histoqramların və digər qrafik əyrilərin qurulması);

2) mürəkkəb (ikinci dərəcəli) təhlil metodları (statistik hesablamalar):

- korrelyasiya təhlilləri;

- dispersiya təhlilləri;

- reqressiya təhlilləri;

- faktor təhlilləri (qeyd: 1 və 2 №-ləri ilə işarə olunmuş metodlar haqqında Ifəsildə məlumat verilib);

3) taksonomik (klaster) təhlillər - bir sinfə daxil olan obyektlərin hər hansı xarakterik cizgilərinə görə başqa sinfə daxil olan obyektlərdən fərqlənməsini təmin etmək baxımdan əldə olunan məlumatların siniflərdə (taksonlar, klasterlər) qruplaşdınlmasına əsaslanır;

4) şkalalaşdırma - tədqiq olunan reallığa aid kəmiyyət və keyfiyyət məlumatlarını rəqəmlərlə əks etdirir və aşağıdakı növləri məlumdur:

• *psixoloji şkalalaşdırma* - obyektin psixoloji məlumatlarının ölçülməsinə əsaslanır;

• *psixofiziki şkalalaşdırma* - fiziki və psixi reaksiyalar, stimullar arasındakı əlaqəni aşkara çıxarmağa imkan verir;

• *psixometrik şkalalaşdırma* - tədqiq olunan obyektlərin subyektiv xarakteristikalarının ölçülməsini təmin edir;

• *birölçülü şkalalaşdırma* - empirik çoxluqların bir kriteriya üzrə düzülüşünü əks etdirir;

• *çoxölçülü şkalalaşdırma* - empirik çoxluqların bir neçə kriteriyalar üzrə düzülüşünü əks etdirir;

• *obyektiv şkalalaşdırma* - empirik çoxluqların strukturları arasındakı əlaqələrdə mövcud olan uyğun- suzluqları əks etdirir;

• *subyektiv şkalalaşdırma* - empirik çoxluqların strukturları arasındakı əlaqələrdəki mövcud olan uyğunluğu əks etdirir.

**Kevfivvət metodları* - tədqiq olunan obyektə xas olan ən zəruri tərəflərin aşkara çıxarılmasını təmin edir; ən çox yayılmış keyfiyyət metodlarını aşağıdakı şəkildə təsnif etmək olar:

• *təsnifləşdirmə* - bir çox obyektlərin ortaq cizgilərinə görə qruplar (siniflər) üzrə yerləşdirilməsi;

• *tiplərə bölünmə* - qabarıq xüsusiyyətlər sisteminə görə obyektlərin qruplaşdırılması;

• *sistemləşdirmə* - siniflərin öz aralarında, bir çox siniflərin digər siniflərə nisbətən, eləcə də obyektlərin siniflər üzrə düzülüşü;

• *periodlaşma* - tədqiq olunan obyektin xronoloji ardıcıllıqla düzülüşü;

• *psixoloji kazuistika* - tədqiq olunan reallığa aid olan tipik və qeyri-adi (xüsusi) halların təsviri və təhlil edilməsi (belə üsullar adətən differensial psixologiyada daha çox istifadə olunur).

İnterpretasiya metodları. Bu metodlar vasitəsilə tədqiqatın gedişatından əldə olunan nəticələr şərh edilir; bu metodların ən geniş yayılanları:

• *genetik metod* - psixi proseslərin ontogenetik və filogenetik baxımdan inkişafının təhlilinə əsasən şərh olunması və araşdırılmasıdır;

• *struktur metod* - obyektlərin (hadisələrin) strukturunun araşdırılmasını və təsvirini həyata keçirir;

• *funksional metod* - obyektlərin (hadisələrin) funksiyalarının öyrənilməsini və şərhini həyata keçirir;

• *kompleks metod* - tədqiq olunan obyektə bir neçə metodların köməyilə öyrənilmiş komponentlərin məcmusu kimi yanaşılmaya əsaslanır;

• *sistem metod* - reallığın öyrənilməsi zamanı onun hər hansı hissəsinin bir sistem kimi qəbul olunmasına əsaslanır, eləcə də bu metod vasitəsilə hadisələrin reallığın digər hadisələri ilə əlaqəsini aşkarlamaq mümkündür və burada adətən sistemli təhlillər (analiz) və sintezlərin aparılmasına üstünlük verilir.

2. Empirik metodlar

Empirik metodlar haqqında ümumi anlayış.

Psixoloji reallığın öyrənilməsi xüsusiyyətindən asılı olmadan empirik metodları istənilən empirik xarakterli tədqiqatlara tətbiq etmək olar. Tədqiqat obyektinin, mövzusunun, məqsədinin və şəraitinin konkret xüsusiyyətləri empirik metodların ümumi prinsiplərinə heç bir təsir etmir. Lakin metodların seçilməsi müvafiq tələbata uyğun aparılmalıdır. Psixoloji elmlərin istənilən sahəsinə empirik metodların praktik cəhətdən tətbiqinin mümkünlüyü onlarda oxşar cəhətlərin olmasını şərtləndirir: empirik qrupa aid olan metodların praktik icrası zamanı tədqiqatçı tədqiq olunan obyektlə *kontaktlı əlaqəyə* daxil olur. Empirik qrupa əsasən növbəti metodlar aid edilir: müşahidə, verbal-kommunikativ metodlar (sorğu, müsahibə), eksperiment, test metodu və modelləşdirmə. Bu metodlardan nəinki psixoloji elmlər sistemində, eləcə də bu sistemə aid olmayan elmləri maraqlandıran problemlərin tədqiqində də geniş istifadə olunur. Empirik metodlar adətən üç meyara (kriteriyaya) görə sıralanır:

1) psixi proseslərlə əlaqəyə görə sıralanma,
2) metodların bir-birilə əlaqəsinə görə sıralanma,
3) metodların tətbiqinin mürəkkəbliyinə görə sıralanma.

Empirik metodların psixi proseslərlə əlaqəsinə gorə sıralanması.

Empirik metodların sıralanmasında bu metodların işlənilməsi və tətbiqi zamanı əlaqədə olduğu psixi proseslərlə əlaqəsi əsas götürülür, eləcə də əlaqədə olduğu psixi proseslərin genetik cəhətdən inkişafı (məsələn, idrak fəaliyyəti genetik cəhətdən passiv formalaşmadan aktivə, vasitəsiz formadan vasitəliyə doğru inkişaf edir) nəzərə alınır: müşahidə metodu qavrayışa, verbal-kommunikativ metodlar məntiqi nitqə, eksperiment metodu təfəkkürə (məsələn, eksperimentin planının işlənilməsi

mücərrəd təfəkkürə, eksperimentin praktik icrası məntiqi və praktik təfəkkürə və s. əsaslanır), testləşdirmə insanın daxili aləminə aid subyektiv hadisələrin aşkara çıxarılması və qeydiyyatım təmin edən kommunikativ nitqə + təfəkkürə + psixomotorikaya əsaslanır; modelləşdirmə yaradıcılıqla birbaşa əlaqədə olduğundan elə yaradıcılıq prosesində maksimal səviyyədə iştirak edən bütün psixi hadisələrə əsaslamr (məsələn, qavrayış + diqqət + hafizə + təfəkkür + təxəyyül + qabiliyyət + bacarıq + istedad). Qeyd edilənləri nəzərə alaraq tədqiqat metodlarını psixi proseslərlə əlaqəsinə görə növbəti şəkildə sıralamaq olar: müşahidə, müsahibə, sorğu, eksperiment, testləşdirmə, modelləşdirmə (şəkil

Bir-birilə əlaqəsinə görə empirik metodların sıralanması.

Psixoloji problemi tədqiq edərkən hər hansı metodun tətbiqi ilə yanaşı digər metoddan istifadəyə də ehtiyac yaranır. Məsələn, istənilən psixoloji metodların tətbiqi prosesində istər-istəməz müşahidənin müxtəlif növlərindən istifadə olunur, lakin müşahidəni həyata keçirərkən hər hansı digər metodun iştirakı tələb olunmur; verbal-kom-munikativ metodlar da istənilən metodların tərtibində və həyata keçirilməsində iştirak edir, eləcə də bu metodların işlənilməsinə və tətbiqinə istər-istəməz müşahidənin elementləri daxil olur; eksperimental metodlar özünə müşahidəni, sorğu, müsahibəni daxil edir; istənilən test, eksperiment, sorğu, müsahibə, müşahidə isə real həyati proseslərin müəyyən mənada modelləri hesab oluna bilər, eləcə də modelləşdirmədə bütün psixoloji metodların tətbi

qindən əldə olunan nəticələrin cəmləşdirilməsi əməliyyatı həyata keçirilir. Deməli, metodları bir-birilə əlaqəsinə görə növbəti şəkildə sıralamaq olar: müşahidə, müsahibə, sorğu, eksperiment, testləşdirmə, modelləşdirmə

Tətbiqinin mürəkkəbliyinə görə empirik metodların sıralanması.

Tətbiqinin mürəkkəbliyinə görə empirik metodların sıralanması metodların təşkili prosesinin material baxımdan təchizatı, tədqiqatçının tələbləri və s. prosedur məsələlərin səviyyəsinə əsaslanır. Məsələn, təşkili və tətbiqi xüsusiyyətlərinə görə ən asan başa gələn metod müşahidədir; verbal-kommunikativ metodlar isə xüsusi işlənilmiş plan üzrə həyata keçirilir; eksperimentin həyata keçirilməsi və

tətbiqi üçün həm plan işlənilməli, həm də müəyyən təchizat materialları tələb olunur; testləşdirmə də müəyyən plan üzrə tərtib edilir; diaqnostik əməliyyatların aparılması təlimatlandırmaya ciddi nəzarətin və müvafiq reqlamentin mövcudluğunu tələb edir; modelləşdirmənin həyata keçirilməsində müvafiq plan tərtib edilir və bu plan digər metodların planlarına nisbətən daha mürəkkəb olur; eləcə də modelləşdirmə əməliyyatında müəyyən konstruktiv detallar, təchizat materialları da lazım olur və s.

Tətbiqinin mürəkkəbliyinə görə metodlar növbəti şəkildə sıralanır: müşahidə, müsahibə, sorğu, eksperiment, testləşdirmə, modelləşdirmə.
Bütün meyarlara görə sıralanma eyni olduğundan psixologiyaya aid olan ümumi metodlar da analoji qayda üzrə sıralanmalıdır: müşahidə, müsahibə, sorğu, eksperiment, testləşdirmə, modelləşdirmə.

Mövzu 6. Müşahidə və verbal kommunikativ metodlar

Plan:

1. Müşahidə metodu haqaqında ümumi anlayış
2. Müşahidə metodu ilə aparılan tədqiqatın mərhələləri:
3. Müşahidənin ümumi proseduru

4. Müşahidənin növləri
5. Verbal kommunikativ metodlar

Ədəbiyyat:

11. Bayramov Ə.S., Əlizadə Ə.Ə.Psixologiya.Bakı, 2003

12. Qurbanova L.M. Eksperimental psixologiya. Bakı, 2014

13. Qurbanova L.M.Eksperimental psixologiyaya dair mühazirə mətnləri. B-Sum.Dərələyəz –M, 2010.

14. Əmrahlı L.Ş. Eksperimental psixologiya.Dərs vəsaiti Bakı, 2014

15. Quliyev E.M. Eksperimental psixologiya. Testlər.Tədris vəsaiti.ADPU-nun nəşri. Bakı, 2014.

*** Mövzu ilə bağlı elektorn resurslar**

- https://psyera.ru/empiricheskie-metody-psihologicheskogo-issledovaniya-661.htm
- https://studme.org/1164091329224/psihologiya/metodiki_tipy_empiricheskih_dannyh

https://studme.org/62219/psihologiya/metodologiya_psihologicheskoy_diagnostiki

Müşahidə və verbal-kommunikativ metodlar

***1.*Müşahidə metodu haqqında ümumi anlayış**

Müşahidə psixoloji metodlar içərisində ən qədim tarixə malik olanlardan hesab edilir. XIX əsrin axırlarından etibarən müşahidə metodundan istifadəyə elmdə geniş yer verilmişdir. Adətən müşahidə metodundan müxtəlif şəraitlərdə insanın davranış xüsusiyyətlərini tədqiq etmək üçün istifadə edilir. Müşahidə ümumi psixologiyanın əsas empirik metodlarından hesab edilir. Digər metodlardan fərqli olaraq müşahidə istənilən tədqiqat prosesində istifadə edilə bilər. Bu metodun köməyilə eksperimentator tədqiq olunanın psixikasında baş verən dəyişiklikləri və davramş reaksiyalarını müşahidə edə bilir. İstər sorğu, eksperiment, müsahibə, psixofizioloji ölçmələr, istərsə də hər hansı digər metodların tətbiqi zamanı müşahidə metodunun istifadəsi qaçılmazdır. Hətta arxiv sənədlərinin tədqiqi zamanı da müşahidə metodundan (məsələn, dolayısıyla prosesə aidiyyatı olan insanlar müşahidə edilə bilər, gündəliklərin və ya sənədlərin yazıhş prosesi müşahidə edilə bilər və s.) istifadə edilir. Müşahidə metodunda qavrayış əsas rol oynayır. Müşahidə prosesində baş verən proseslərin gedişatının dəyişdirilməsi kimi əməliyyatlara müşahidəçinin müdaxiləsi yolverilməzdir.

Qeyd edilənlərə əsaslanaraq müşahidəyə belə tərif vermək olar: *müşahidə - müvafiq şəraitlərdə heç bir müdaxilə olmadan baş verən psixi hadisələrin məqsədyönlü qavrama sayəsində izlənilməsinə əsasən onların tədqiqini həyata keçirən üsullar məcmusudur.*

Müşahidə ləvazimatları müxtəlif ola bilər, məsələn, foto, video, xüsusi müşahidə xəritələri, səsyazma aparatları və s. Müşahidənin mövzuları da müxtəlif ola bilər, daha aktual olan müşahidə mövzuları kimi isə, aşağıdakıları sadalamaq olar:

verbal davranış

• nitqin məzmunu;

• nitqin davamlılığı;

• nitqin keyfiyyətini xarakterizə edən məqamlar; *aevri-verbal davranış*

• üzün, gözün, bədənin ekspressiv ifadələri;

• hərəkətin mənahlığım, təsirliliyini ifadə edən məqamlar;

insani münasibətlər

• insanlar arasındakı distansiya (yaxın və ya uzaq məsafə);

• insanların bir-birinə fiziki təsiri:

- toxunma, təkan, zərbə, qucaqlama və s.

Nəzərə alınmalıdır ki, yalnız obyektiv qeyd edilməsi mümkün olan məqamlar müşahidənin mövzusu rolunda çıxış edə bilər. Beləliklə, müşahidəçi psixikanın xüsusiyyətlərini deyil, yalnız obyektin qeydiyyata alınması mümkün olan tərəflərini müşahidə edir. Yalnız qeyd olunmuş məlumatlar əsasında müşahidəçi psixi xüsusiyyətlər haqqında müəyyən fərziyyələr irəli sürə bilər.

2.Müşahidə metodu ilə aparılan tədqiqatın mərhələləri:

1) müşahidənin məqsədini, mövzusunu, obyektini, mühiti, durumu müəyyənləşdirməli;

2) müşahidə və müşahidə olunanların qeydiyyat üslubunu müəyyənləşdirməli;

3) müşahidənin planını tərtib etməli;

4) müşahidə prosesini təşkil etmək;

5) müşahidənin aparılması;

6) nəticələrin qeydiyyatı;

7) əldə olunan göstəricilərin işlənilməsi (yerbəyer edilməsi) metodunu seçməli;

8) əldə edilmiş məlumatların (göstəricilərin) işlənilməsi və interpretasiyası.

3.Müşahidənin ümumi proseduru

proseslərin №-si	*prosedurun məzmunu*	*prosedurun məqsədini müəyyən edən suallar*
1	müşahidənin məqsəd və vəzifəsini təyin etmək	müşahidə hansı məqsədlə həyata keçirilir?
2	müşahidənin mövzusunu, obyektini və durumunu seçməli	nəyi müşahidə etmək lazımdır?
3	müşahidə üslubunu seçmək (müəyyənləşdirmək)	müşahidəni necə həyata keçirməli?
4	qeydiyyat üsulunu seçmək	qeydiyyatı necə etməli?
5	əldə olunmuş məlumatları işləmək və izah etmək	nəticələr nədən ibarətdir?

Müşahidənin həyata keçirildiyi şəraitləri növbəti şəkildə qruplaşdırmaq olar:

1) təbii və süni;

2) müşahidəçi tərəfindən idarə olunan və idarə olunmayan;

3) standart və ya adi;

4) spontan (təşkil olunmamış, özbaşına baş verən) və təşkil olunmuş;

5) normal və ekstremal;

6) oyun, təlim, əmək (sənaye), hərbi və s.

Müşahidə olunan subyektlər və ***müşahidəçi ilə tədqiq olunan subyekt arasında baş verən kontaktın*** növlərini 3 qrupa bölmək olar:

1) verbal və qeyri-verbal;

2) uzun müddətli və qısa müddətli;

3) vasitəli (nəyin və ya kiminsə köməyilə) və vasitəsiz.

Müşahidənin növlərini aşağıdakı şəkildə qruplara ayırmaq olar:

I Obyektiv müşahidə və özünümüsahidə.

★*Obyektiv müşahidə* - baş verən psixi hadisələrin kənardan müşahidəsi prosesidir; **özünümüşahidə* - müşahidəçinin öz psixikası və davranışının elə özü tərəfindən müşahidəsinə əsaslanır (buna *introspeksiya* da deyilir).

II. Təbii və laborator müşahidə.

★*Təbii müşahidə* - təbii şəraitlərdə (həyati və ya işgüzar fəaliyyət zamanı) aparılan müşahidəyə deyilir; ★*laborator (və ya eksperimental) müşahidə* - süni şəkildə yaradılmış şəraitlərdəki müşahidələrə deyilir.

III. Fərdi və kollektiv müşahidə.

★*Fərdi müşahidə* - yalnız bir tədqiq olunan üzərində həyata keçirilən müşahidədir; **kollektiv müşahidə* - eyni zamanda bir neçə nəfər üzərində həyata keçirilən müşahidədir.

IV. Təsadüfi və məqsədli müşahidə.

★*Təsadüfi müşahidə* - təsadüf nəticəsində baş verən psixi hadisələrin əvvəlcədən planlaşdırılmamış müşahidəsinə deyilir; **məqsədli müşahidə* - tədqiqatın müvafiq məqsədinə uyğun olaraq tədqiqatçı tərəfindən əvvəlcədən tərtib olunmuş planlaşdırılmaya əsasən həyata keçirilən müşahidədir.

V. Sistematik və qevri-sis tematik müşahidə.

**Sistematik müşahidə* - əvvəlcədən düşünülmüş plan üzrə müvafiq qrafiklər üzrə sistematik şəkildə həyata keçirilən müşahidədir; ★*qeyri-sistematik müşahidə* - dəqiq plan və fəaliyyətin alqoritmi tərtib edilmədən aparılan müşahidədir.

VI. Bütöv və yarımçıq müşahidə.

★*Bütöv müşahidə* - maksimum şəkildə məlumatların əldə edilməsi və qeydiyyatına əsaslanan müşahidədir; ★*yarımçıq müşahidədə* - müşahidəçi yalmz tədqiq olunanla bağlı minimal parametrləri qeydiyyata ahr.

VII. Ardıcıl və seçimə əsaslanmış müşahidə.

★*Ardıcıl müşahidə* - tədqiq olunan üzərində fasiləsiz olaraq aparılan müşahidədir; **seçimə əsaslanmış müşahidə* - müşahidəçinin öz seçiminə müvafiq müəyyənləşdirdiyi vaxtlarda aparılan müşahidədir.

VIII. Standart və aevri-standart müşahidə.

★*Standart müşahidə* - əldə olunan parametlərin planlaşdırılmış sxem üzrə qeydiyyatına əsaslanır; ★*qeyri- standart müşahidə* - əldə olunan parametlərin sərbəst şəkildə qeydiyyatına əsaslamr.

IX. Qiymətləndiriri və fiksasivaedici müşahidə.

★*Qiymətləndiriri müşahidə* - müşahidəçi tərəfindən müşahidə olunan durum və tədqiq olunamn davranışının qiymətləndirilməsinə əsaslanır; **fiksasiyaedici müşahidə* - əldə olunan parametrlərin heç bir müzakirə aparılmadan qeydiyyatına əsaslamr.

X. Acıq və gizli müşahidə.

**Açıq müşahidə* - bu müşahidə prosesində müşahidə olunanların öz rolları haqqmda məlumatları olur; **gizli müşahidə* - bu müşahidə prosesində müşahidə olunanların müşahidə edildiklərindən heç bir xəbəri olmur.

XI. İştiraklı və iştiraksız müşahidə.

**İştiraklı müşahidə* - bu müşahidə prosesində müşahidəçi müşahidə olunan qrupun tərkibinə daxil olaraq müşahidəni həyata keçirir; **iştiraksız müşahidə* - bu müşahidə

prosesində müşahidəçi ilə müşahidə olunan subyekt arasında heç bir əlaqə olmadan aparılır.

XII. Birbaşa və dolayı müşahidə.

* *Birbaşa müşahidə* - bu müşahidə birbaşa müşahidəçinin özü tərəfindən aparılır; **dolayı müşahidə* - vasitəçilərin köməyilə aparılan müşahidədir.

XIII. Qıcıqlandırıcı və qıcıqlandırıcı olmayan müşahidə.

* *Qıcıqlandırıcı müşahidə* - bu müşahidə prosesində müşahidəçi müşahidə olunanı hər hansı fəaliyyətə təhrik edir; *Qıcıqlandırıcı olmayan müşahidə* - müşahidə prosesində müşahidəçi tərəfindən tədqiq olunana təsir edəcək hər hansı qıcıqlandırıcı hərəkətə yol verilmir.

Müşahidəçinin etik kodeksinə daxildir:

• əgər müşahidə ictimai mühitdə keçirilirsə, onda iştirakçılardan razılığın əldə edilməsi vacib sayılmır (razıhq əldə etmədən də tədqiqat həyata keçirilə bilər), əks təqdirdə razılığın əldə edilməsi zəruridir;

• tədqiqat iştirakçılarının hər hansı zərərlə üzləş- məmələri üçün bütün zəruri tədbirlər həyata keçirilməlidir və ya hər hansı zərərin tamamilə

aradan qaldırılması mümkün deyilsə, onda onun zərərlilik dərəcəsini mümkün qədər azaldılmasına əmin olmaq lazımdır;

• tədqiqatın gedişatında şəxsi həyata müdaxilə etmə həddini tamamilə minimuma endirmək lazımdır;

• iştirakçılarla bağlı məlumatların anonimliyi qorunmalıdır.

Müşahidəyə başlamamışdan əvvəl pilotaj (kəşfiyyat) xarakterli müşahidə apararaq tərtib olunmuş müşahidə plamndakı çatışmazlıqları aşkarlamaq və aradan qaldırmaq tələb olunur. Müşahidənin nəticələri protokollaşdırıl- malıdır.

Verbal-kommunikativ metodlar.

Verbal-kommunikativ metodlar - nitq (yazılı və ya şifahi) vasitəsilə psixoloji məlumatların əldə edilməsini həyata keçirən üsullar məcmusudur. Bu metodlar həm müstəqil olaraq, həm də digər metodlarla vəhdətdə hər hansı tədqiqat prosesinə tətbiq edilə bilər. *Müsahibə (söhbət) və sorğu* verbal-kommunikativ metodların əsas növü hesab edilir.

Müsahibə *- hər hansı mövzu ətrafında söhbət qurmaqla tədqiq olunandan lazımi məlumatların əldə edilməsinə əsaslanır.* Müsahibənin aşağıdakı növləri məlumdur:

1) psixoloji müsahibə - şəxsiyyətə psixoloji təsir etməklə psixoloji məlumatların alınmasına əsaslanır;

2) idarə olunan müsahibə - müsahibə tədqiqatçı tərəfindən lazımi istiqamətdə idarə olunur;

3) idarə olunmayan müsahibə - təşəbbüskarhq tədqiq olunan tərəfindən gəlir və bu müsahibə etiraf xarakteri daşıyır.

Müsahibə zamanı tədqiqatçı aktiv rol oynamalıdır, yəni onun işi təkcə dinləmək deyil, lazım gəldikdə müsahibənin istiqamətini dəyişmək və ya dinləyərkən elə mimika və jestlərdən istifadə etmək lazımdır ki, tədqiq olunandan lazımi məlumatı əldə etmək mümkün olsun. Buna görə də dinləmə adətən iki aspektdə həyata keçirilir:
1) *xarici* vs *ya təşkilatçı* - müsahibənin mövzusunun qurulmasında tədqiqatçı aktiv iştirak edir; 2) *daxili və ya antisipasiya xarakterli* - müəyyən psixoloji təsir vasitələrilə tədqiqatçı tədqiq olunanla onun probleminə və nailiyyətinə şərik olduğunu inandıraraq söhbət aparır.

Müsahibə zamanı tədqiq olunanın cinsi mənsubiyyəti və yaş xüsusiyyətləri də nəzərə alınmaldır. Müsahibənin gedişatım dəyişmək üçün bəzi replikalardan da istifadə edilir. Nəzərə almaq lazımdır ki, replikalar düzgün seçil- mədikdə hətta müsahibə tamamilə kəsilə də bilər. Belə replikalara *ünsiyyət baryerləri* deyilir. *Ünsiyyət baryerlərindən* hesab edilənlər: 1) əmrlə deyilmiş sözlər, məsələn, «daha dəqiq danış!», «təkrarla!», 2) xəbərdarlıq, qorxutmaq məqsədilə deyilmiş sözlər, məsələn, «sən buna görə sonra peşiman olacaqsan», 3) söz vermək və alış-veriş məqsədli sözlər, məsələn, «narahat olmayın, vaxt tapıb sizi dinləyəcəm», 4) öyrətmək, başa salmaq məqsədli sözlər, məsələn, «bizim dövrdə sizin kimi etmirlər», «sizin etdiyiniz düzgün deyil», 5) tərifləmək məqsədli, məsələn, «düşünürəm ki, siz çox düzgün etmisiniz!», 6) söyüşlər, alçaldıcı sözlər, məsələn, «alçaqlar, nanəciblər», 7) sorğu- suala çəkmə, məsələn, «kim sizə bunu deyib?», «siz necə addım atacaqsınız?», 8) lağ-lağa xarakterli sözlər, məsələn, «ha-ha, bu çox maraqhdır» və s.

Sorğu *- məqsədyönlü şəkildə hazırlanan sualların verilməsilə tədqiq olunandan lazımi məlumatların əldə edilməsinə əsaslanır.*
Sorğular adətən iki üsulla həyata keçirilir: 1) *intervyu* - tədqiqatçının tədqiq olunanla «üz-üzə» apardığı sorğuya əsaslanır; 2) *anketləşdirmə* - müəyyən vasitələrin (məsələn, sorğu blankları) köməyilə aparılır. Hər iki üsula aid olan əsas cəhət ondan ibarətdir ki, sorğuda təqdim olunmuş suallar düşünülmüş və savadlı şəkildə tərtib olunmalıdır.
Suallara olan tələblər:

1) suallar məntiqi olmalıdır;

2) başa düşülməyən və az istifadə edilən sözlərdən, terminlərdən istifadə edilməməlidir;

3) suallar uzun olmamalıdır;

4) suallar abstrakt olan şeylərə aid olmamalıdır;

5) suallar təhrikedici xarakterli olmamalıdır;

6) suallar elə qurulmalıdır ki, stereotip və ya sinonim cavablar verilməsin;

7) suallar elə qurulmalıdır ki, tədqiq olunanda suallara qarşı nifrət formalaşmasın;

8) suallar tələqinedici olmamalıdır (məsələn, «sizə elə

gəlmirmi ki,....?», «siz razısınızmı ki, bu.....?» və s.)
Əlamətlərinə görə sualların növləri (hər bir sualın xarakteri elə onun adında açıqlanır)'.

1) açıq - bağlı;

2) birbaşa - dolayı;

3) şəxsi - şəxsi olmayan;

4) subyektiv - proyektiv;

5) əsas - yoxlayıcı;

6) çətin - asan;

7) ənənəvi - qeyri-ənənəvi;

8) adi - xüsusi;

9) sadə - mürəkkəb;

10) fərdi - ümumi;

11) aparıcı - köməkçi.

İntervyu ilə anketi bir-birindən fərqləndirən əsas cəhət ondan ibarətdir ki, **intervyu** zamanı tədqiqatçı tədqiq olunanı üz-üzə müşahidə edə bilir, lazım gəldikdə əlavə suallar da verilərək daha dolğun məlumatlar əldə edilir; anket zamanı isə tədqiq olunanın şəxsiyyəti anonim saxlanıla bilər, sualların cavablandırılmasına daha az vaxt sərf olunur**, anketlərdə** nəticələrin yerbəyer edilməsi intervy-uya nisbətən daha asandır.

Mövzu 7. Eksperiment metodunun əsas xüsusiyyətləri və növləri

Plan:

1. Eksperiment metodunun əsas xüsusiyyətləri
2. Eksperiment prosedurunun mərhələləri
3. Eksperimentin növləri

Ədəbiyyat:

16. Bayramov Ə.S., Əlizadə Ə.Ə.Psixologiya.Bakı, 2003
17. Qurbanova L.M. Eksperimental psixologiya. Bakı, 2014
18. Qurbanova L.M.Eksperimental psixologiyaya dair mühazirə mətnləri. B-Sum.Dərələyəz –M, 2010.

19. Əmrahlı L.Ş. Eksperimental psixologiya.Dərs vəsaiti Bakı, 2014
20. Quliyev E.M. Eksperimental psixologiya. Testlər.Tədris vəsaiti.ADPU-nun nəşri. Bakı, 2014.
21. Алиев Б.Г. Методология социально –психологического исследования. Баку,199

*** Mövzu ilə bağlı elektorn resurslar**

- https://www.youtube.com/watch?v=OrNBEhzjg8I&list=PLdvP0F44cySdv3H5otQfF2RztC6PZIJjM&index=8
- https://www.youtube.com/watch?v=ZDNi4z5tdqU
- https://psyjournals.ru/sgu_socialpsy/issue/30307_full.shtml

https://studbooks.net/710863/psihologiya/sotsialno_psihologicheskie_problemy_eksperimenta

1.Eksperiment metodunun əsas xüsusiyyətləri

Psixologiya elmində ilk dəfə eksperimentlərin tətbiqinə XIX əsrdən etibarən başlanmışdır: 1879-cu ildə Vilhelm Vundt eksperimental psixologiya laboratoriyasım yaratmış və elə həmin ildən etibarən də psixoloji təzahürləri tətdiq etmək üçün elmi tələblər çərçivəsində təşkil olunmuş psixoloji eksperimentlərdən istifadə edilməyə başlanmışdır. *Eksperiment* (lat. experimentum - yoxlama, sınaq, təcrübə deməkdir) metodunda tədqiq olunan obyektin müvafiq xassələri tədqiqatçı tərəfindən süni şəraitin yaradılması və tədqiqat prosesinin gedişinin lazımi istiqamətində dəyişdirilməsi ilə öyrənilir, və ya *eksperiment* elə bir metoddur ki, bu zaman tədqiqatçı onu maraqlandıran hadisəni özü yaradır və hadisələrin baş vermə səbəblərini və onların inkişafının necə istiqamətlənəcəyini aşkarlamaq məqsədilə yaradılmış həmin prosesin şəraitini dəyişir. Eksperiment digər metodlardan tədqiq olunan obyektə daha fəal təsirilə fərqlənir və psixoloji metodlar içərisində daha dəqiq nəticələrin əldə edilməsinə xidmət edən metod kimi məşhurlaşıb. Eksperiment hadisələrin mahiyyətində gizli şəkildə mövcud olan cəhətləri öyrənir.
Eksperimentin tərkib hissələri bunlardır: 1) tədqiq olunanlar (subyekt və ya qruplar); 2) eksperimentator (tədqiqatçı); 3) stimullar (eksperimentator tərəfindən seçilmiş və tədqiq olunana yönəldilmiş qıcıqlandırıcı); 4) tədqiq olunanın stimullara olan cavabları (onun psixi reaksiyaları); 5) təcrübə şəraiti (tədqiq olunanın davranışına və cavablarına təsir məqsədilə stimullara edilən əlavələr). Eksperimentdə baş verən hadisəni daha dəqiq başa düşmək üçün bu komponentləri aşağıdakı şəkildə

işarə edək: 1) cavablan - R (lat. reactio - reaksiya mənasını verir); 2) stimullar toplusu - S (fransız, situation - situasiya, durum); 3) tədqiq olunan - P (lat. persona - şəxsiyyət).

Nəzərə alsaq ki, stimulların təsiri ilə müvafiq reaksiyalar və ya cavablar alınır, yəni R=f(S) asılılığı baş verir, onda analoji qayda ilə P=f(R,S) olacaq, yəni tədqiq olunanla bağlı baş verən dəyişikliklər stimullardakı və reaksiyalardakı dəyişikliklərlə düz mütənasibdir.

2.Eksperiment prosedurunun mərhələləri:

• prosedura dair fərziyyənin qoyuluşu;

• dəyişənlərin seçilməsi və dəqiqləşdirilməsi;

• dəyişənlərin təyini;

• prosedurun tətbiq planının hazırlanması;

• eksperimentə hazırlıq;

• tədqiq olunanların seçilməsi və təlimatlandırılması;

• eksperimentin həyata keçirilməsi;

• asıh olmayan dəyişənlərin idarə edilməsi və asılı dəyişənlərin qeydiyyatının aparılması;

• əldə olunan göstəricilərin riyazi-statistik əməliyyatlarla işlənilməsi;

• eksperimental fərziyyənin statistik faktla müqayisəsi;

• nəticənin interpretasiyası;

• nəticənin elmi hesabatda açıqlanması.

Eksperimentin ***prosedur qaydaları*** əsasən asılı və asılı olmayan dəyişənlər arasında baş verən əlaqələrə görə müəyyən edilir. Prosedurun əsas elementləri bunlardır: 1) müvafiq tələblərə cavab verən asılı olmayan dəyişənin müəyyənləşdirilməsi (seçilməsi, təqdim edilməsi); 2) asılı olmayan dəyişənin şəraitinə görə nəticəyə təsir edə biləcək əlavə dəyişənin müəyyənləşdirilməsi (dəqiqləşdirilməsi); 3) asıh dəyişənin qeydiyyatı.

Asdı olmayan dəyişənin müəyyənləşdirilməsi.

Asıh olmayan dəyişən eksperimental durumun yaradılmasında başhca rol oynayan elementdir. Belə ki, eksperiment zamanı asılı olmayan dəyişənin tədqiq olunana təsiri sayəsində baş verən reaksiyalar və ya mövcud reaksiyalarda baş verən dəyişikliklər öyrənilir. Asılı olmayan dəyişən kimi fərd və ya qrupların lazımi psixi reaksiyalarını üzə çıxarmağa imkan verən (tədqiqatın məqsədindən asılı olaraq) istənilən təsirlər ola bilər. Əksər hallarda asılı olmayan dəyişənlər rolunda növbəti faktorlar çıxış edir:

1) stimul;
2) ekperimental durumun istənilən xarici şəraiti;
3) hər hansı daxili əlavə dəyişənlər;
4) eksperimental məsələnin həlli üsulu;
5) stimullaşdırıcı rejim.

Stimul dedikdə, tədiqiqolunanı hər hansı reaksiyaya istiqamətləndirəcək xüsusi qıcıqlandırıcı başa düşülür, məsələn, stimul - istənilən fiziki qıcıqlandırıcı, hər hansı qıcıqlandırıcı söz, qıcıqlandırıcı hadisə və s. ola bilər. *Eksperimental durumun istənilən xarici şəraiti* dedikdə, tədqiq olunanı hər hansı reaksiyaya istiqamətləndirəcək xüsusi qıcıqlandırıcı başa düşülə bilər. Və bu onun stimulla qarışdırılmasına səbəb olur. Lakin onun fərqlənməsinə əsas verən səbəb ondan ibarətdir ki, *eksperimental durumun istənilən xarici şəraiti adlandırılan* faktorda bir-birindən asılı olmayan bir neçə stimullaşdırıcı əlavə dəyişənlərin təsiri olmalıdır. Hər hansı *daxili əlavə dəyişənlər* - tədqiq olunanın əhvalı, fiziki durumu, eskpe- rimentə qarşı psixoloji ustanovkası, motivasiyası və s. kimi faktorlar ola bilər. Bəzən təqdim olunmuş stimullar ardıcıllığına olan cavablara qarşı reaksiyalar da eksperi-mentatoru maraqlandırır. Bu zaman stimullaşdırıcıların dəyişikliyi rejiminin özü elə asılı olmayan dəyişən kimi çıxış edir.

Əlavə dəyişənlərin yoxlanılması.

Yuxarıda da qeyd edildiyi kimi, əlavə dəyişənlər iki yerə ayrılır: *daxili* və *xarici.*

Xarici **dəyişənlər** qrupu növbəti tərkibdən ibarət olur:

a) *daimi təsirlər* (məsələn, temperatur, ventilyasiya, nəmişlik, interyerin düzülüşü və s. kimi təsirlər eksperimentin bütün gedişatı boyu stabil saxlanılmalıdır);
b) *daimi olmayan təsirlər* (məsələn, *təsadüfi təsirlər* və *qaçılmaz təsirlər* ola bilər; *təsadüfi təsirlərin* qarşısının alınması üçün «Sakit! Eksperiment gedir» kimi lövhələrin köməyindən istifadə etmək olar; *qaçılmaz təsirlərə* (məsələn, aparatların səsi, zəng səsi, eksperimentin gedişatım korrektə etmək baxımından eksperimentatorun müdaxiləsi və s. kimi təsirlər aid edilir) isə çalışıb tədqiq olunanı alışdırmaq lazımdır);
v) *eksperimentatorun şəxsi keyfiyyətlərinin təsiri.*
Daxili dəyişərilər tədqiq olunanın şəxsi keyfiyyətlərilə (hətta, onlara tədqiq olunanın şəxsi keyfiyyətlərində gizlənmiş faktorlar da demək olar) bağlı olur. Bu dəyi- şənləri nəzarətdə saxlamaq, onlara təsir etmək olduqca çətindir. Və bu dəyişənlər digər dəyişənlərə nisbətən eksperimentin gedişatına daha çox təsir edir.
Xarici dəyişənlər kimi ***daxili* dəyişənləri** də növbəti kimi qruplaşdırmaq olar:
a) *daimi təsirlər* (tədqiq olunanın dəyişilməyən keyfiyyətləri, məsələn, temperament, xarakter, emosional-iradi keyfiyyətlər, intellektual-mne- mik və bu kimi keyfiyyətlər aid edilir);
b) *daimi olmayan təsirlər* (eksperimentin gedişatı zamanı tədqiq olunanın dəyişilən psixi (məsələn, əhval-ruhiyyə, narahatlıq, həyəcan və s.) və ya fiziki (məsələn, yorğunluq, orqanik tələbatlar və s.) göstəriciləri aid edilir.
Asılı dəyişənin qeydiyyatı.
Asılı dəyişənin qeydiyyatı dedikdə, eksperimentin əsas proseduru kimi gedişat boyu nəticələrin, tədqiq olunanların cavabları və digər göstəricilərin qeydiyyata alınması başa düşülür. Asıh dəyişənin qeydiyyatını, ümumilikdə eksperimentin qeydiyyatı kimi də adlandırmaq olar. Belə ki, nəticələr qeydiyyata ahnan zaman hökmən bu nəticələrə əsas olan səbəblər də qeydiyyata alınmalıdır. Qeydiyyatda hər bir şey: tədqiq olunan haqqmda məlumat (məsələn, cinsi, yaşı, fiziki və psixi xarakteristikası və s.) eksperimentatorun özü və köməkçisi haqqmda məlumat, stimullaşdırıcı elementlər, eksperimentin gedişatı zamanı tədqiq olunanın göstəricilərində baş verən dəyişikliklər, şərait və s. əks olunur.

3. Eksperimentin növləri

Eksperimentlərin növlərini aşağıdakı şəkildə qruplaşdırmaq olar:

I. ***Prosesin həyata keçirilməsinin bütövlüyü və həqiqiliyinə görə:***
1. *Real (konkret) eksperiment* real və ya konkret eksperimental şəraitlərdə aparılan təcrübə növüdür; sübutlann, dəlillərin, faktların əldə olunmasım təmin edir. Və əldə olunmuş dəlillərin həm nəzəriyyədə, həm də praktikada istifadə edilməsinə təminat verir.

2. *Xəyali (abstrakt) eksperimentlər* reallığa tətbiq edilməyən, xəyali aparılan təcrübə növüdür. Ekspe-
rimentin bu növü adətən real eksperimentlərin təş- kilati məsələlərinin həllinə və ya tətbiqi planının işlənilməsinə xidmət edir.
3. *İdeal eksperiment* adlanan növdə asılı dəyişənə yalnız asılı olmayan dəyişən təsir edə bilər, digər təsirlərə isə yol verilmir.
4. Sonsuz eksperiment - bütün eksperimental imkanlardan yararlanan, yəni istənilən eksperimental fürsətlərdən istifadə edən eksperiment növüdür.
5. Nöqsansız eksperiment - ideal və sonsuz eksperimentlərin cizgilərini, xüsusiyyətlərini özündə əks etdirən (cəmləşdirən) eksperiment növüdür.

II. *Eksperimentin məqsədinə görə:*

1. *Araşdırıcı eksperiment* - hər hansı obyekt və ya əşyalar haqqında yeni məlumatların əldə edilməsinə yönəldilmiş eksperiment növüdür.

2. *Diaqnostik (müayinəedici) eksperiment* - tədqiq olunanın keyfiyyətlərinin və bu keyfiyyətlərdə hər hansı dəyişikliyin aşkarlanmasına yönəldilmiş eksperiment növüdür.

3. *Açıqlayıcı eksperiment* - illüstrativ xarakterlidir, dərkedici və əyləndirici tədbirləri müşayiət edir. Bu eksperiment növünün məqsədi auditoriyanı müvafiq eksperiment metodu ilə tanış etmək və ya yerindəcə hər hansı eksperimental effekt almaqdır. Bu eksperiment növünün köməkliyilə öyrədilənlər (tələbələr) diaqnostik və araşdırıcı üsullarla daha yaxından tanış olurlar.

III. *Tədqiqatın səviyyəsinə görə:*

1. *Kəşfiyyatçı eksperiment* - belə eksperimentlərin köməkliyilə fərziyyələr dəqiqləşdirilir, nadir hesab edilən durumlar müəyyənləşdirilir, sonrakı gedişat formalaşdırılır. Adətən belə eksperiment növü *pilotaj* xarakterli hesab edilir.
2. *Əsas eksperiment* - eksperimentatoru maraqlandıran hər hansı elmi dəlillərin əldə edilməsi məqsədilə həyata keçirilən geniş miqyaslı empirik təcrübə növüdür.
3. *Yoxlayıcı eksperiment* - əsas eksperimentin nəticələrinin yoxlanılması məqsədilə həyata keçirilir, məsələn, 1) əgər əsas eksperiment zamanı hər hansı səhvlərin buraxılması ehtimah (şübhəsi) varsa; 2) prosesin həyata keçirilməsilə bağlı şübhələr mövcuddursa; 3) daha dəqiq və ya yeni göstəricilərin əldə edilməsi tələb olunursa və s. hallarda belə eksperiment növündən istifadə edilir.

IV. *Tədqiq olunana təsir növünə görə:*

1. *Daxili eksperiment* - kənardan təsirlər sayəsində deyil, məhz tədqiq olunanın özünün iradəsinin təsiri altında psixi təzahürlərdə baş verən dəyişiklikləri tədqiq edən eksperiment növüdür.

2. *Xarici eksperiment* - kənar təsirlər sayəsində tədqiq olunanın hisslərində baş verən və ya dəyişilən psixi təzahürlərin tədqiqini həyata keçirən eksperiment növüdür.

V. *Eksperimentatorun tədqiq olunanın həyati fəaliyyətinə müdaxilə səviyyəsinə görə (yəni eksperimental durumun növünə görə):*

V.l. **Klassik qruplaşdırma.-**
• *Laborator eksperiment* - eksperimentin bu növü xüsusi laboratoriyalarda aparılır: orada müxtəlif cihazlardan istifadə edərək bu və ya digər xüsu-
siyyətlər tədqiq edilib öyrənilir. Laborator eksperiment daha düzgün və daha dəqiq elmi məlumat verir, lakin burada yaradılmış süni şərait bəzən tədqiq olunana mənfi təsir göstərərək psixi prosesin təbii cərəyanını poza bilir və bu vaxt laborator eksperimentdən alınan nəticələr dəqiq olmur. La- borator üsulundakı bu nöqsanları aradan qaldırmaq məqsədilə təbii eksperimentə geniş yer verilir;
• *Təbii eksperiment* - tədqiqat adi, təbii şəraitdə (məsələn, məktəbdə, oyun və fəaliyyət prosesində) aparılır. Bu vaxt qarşıdakı məqsəddən asılı olaraq tədqiqatçı uşağın psixi fəaliyyətinə minimum müdaxilə ilə onu təşkil edə bilir;

• *Müəyyənedici eksperiment* - psixologiyada şəxsiyyətin mənəviyyatındakı bu və ya digər keyfiyyətin nə vaxt, necə təzahür etməsini öyrənmək, fərdi xüsusiyyətləri aşkara çıxarmaq məqsədilə tətbiq olunan eksperiment növüdür. Müəyyənedici eksperimentlə insanın əqli inkişaf səviyyəsini tədqiq etmək məqsədilə həyata keçirilən test üsulunu bir- birilə qarışdırmaq olmaz.
• *Formalaşdırıcı eksperiment* - eksperimentin bu növündə tədqiqatçının fəal təsirilə tədqiq olunanın şəxsi fəaliyyətində gedən dəyişikliklər tədqiq olunur, onlarda müəyyən keyfiyyətlər formalaşdırılır, şagirdlərə öyrədilən məsələ üzrə tapşırıqlar verilir, mücərrəd məfhumların mənimsədilməsi imkanları müəyyənləşdirilir.
V.2 **Qeyri-adi qruplaşdırma:**

• *Reallığı olduğu kimi əks etdirən eksperiment* - həyatın konkret real durumlarım, real psixi faktlarını olduğu kimi izləyən eksperiment növüdür.

Bu eksperiment növündə də müdaxilə bacardıqca az olmalıdır.
• *Reallığı yaxşılaşdıran eksperiment* - bu eksperiment növündə yalnız tədqiq edilən bir qisim dəyişənlər dəyişikliyə məruz qalır, dəyişənlər isə stabilliyini saxlayır.

VI. ***Asılı olmayan dəyişənə eksperimentatorun təsir imkanına görə:***

1. *Qıcıqlandırıcı eksperiment* - bu eksperiment növündə eksperimentatorun özü birbaşa asılı olmayan dəyişənə təsir edir. Asılı olmayan dəyişənlərdə həm kəmiyyət, həm də keyfiyyət dəyişiklikləri baş verə bilər.

2. *İstinad edilən mənbə rolunu oynayan eksperiment* - asıh olmayan dəyişənlərdə baş verən dəyişikliklər eksperimentatorun müdaxiləsi olmadan baş verir. Buraya şəxsiyyətdə baş verən dəyişikliklər, beyin zədələnmələri, mənəvi fərqlər və s. aid edilir.

VII. ***Asılı olmayan dəyişənlərin sayına görə:***

1. *Birfaktorlu (birölçülü) eksperiment* - yalnız bir asılı və bir asılı olmayan dəyişəni olan eksperiment növüdür.

2. *Çoxfaktorlu (çoxölçülü) eksperiment* - bir neçə asılı olmayan və bir asılı dəyişəni olan eksperiment növdür.

VIII. ***Tədqiq olunanların sayına görə:***

1. *Fərdi eksperiment* - təcrübə yalnız bir tədqiq olunanın üzərində aparılır.

2. *Qrup eksperimenti* - təcrübə eyni vaxtda bir neçə tədqiq olunanın üzərində aparılır.

IX. ***Dəyişərilər arasındakı əlaqələrin aşkarlanması (təyini) üsuluna görə:***

1. *İntraprosesli (daxili) eksperiment* - bütün eksperimental durumlar tədqiq olunanların yalnız eyni kontingentinə aid edilir. Adətən belə eksperiment növündən müxtəlif sosial qruplarda şəxsiyyətlər- arası münasibətləri tədqiq etmək üçün istifadə edilir. Əgər tədqiq olunan bir nəfərdisə, onda fərdi təcrübə aparılır və bu eksperimentə *intrafərdi* eksperiment deyilir.

2. *İnterprosesli (dəyişənlərarası və ya xarici) eksperiment* - eksperimentin bu növündə tədqiq olunanların müxtəlif kontingentlərinə eyni eksperimental durum tətbiq edilir və bu eksperimentlər müxtəlif yerlərdə, müxtəlif vaxtlarda, müxtəlif eksperimen- tatorlar tərəfindən apanlsa da, eyni proqrama riayət edilməlidir.

3. *Kross - prosesli (ingiliscədən tərcüməsi - kəsişmə deməkdir) eksperiment* - bu eksperiment növündə müxtəlif kontingentdən olan tədqiq olunanlara müxtəlif eksperimental durumlar tətbiq edilir. Əgər tədqiq olunanlar ayrı-ayrılıqda çalışırlarsa, onda tətbiq edilən eksperiment növü *kross - fərdi* eksperiment adlanır. Əgər müxtəlif durumlarda müxtəlif qruplar sınağa məruz qalırsa, onda belə eksperiment növünə *kross - qruplu* eksperiment və ya qruplararası eksperiment deyilir.

X. ***Asılı olmayan dəyişənlərin dəyişilməsinin növünə görə:***

1. *Kəmiyyət eksperimenti* - eksperimentin bu növündə asılı olmayan dəyişən sayca ya azala, ya da arta bilər.

2. *Keyfiyyət eksperimenti* - eksperimentin bu növündə asılı olmayan dəyişəndə kəmiyyət dəyişiklikləri deyil, əksinə, müxtəlif keyfiyyət dəyişiklikləri qeydə almır.

Mövzu 8. Psixoloji Testləşdirmələr

Plan:

1. Psixoloji testləşdirmə haqqında anlayış
2. Əsas əlamətlərinə görə testlərin qruplaşdırılması
3. Testlərin tərtibatına aid tələblər

Ədəbiyyat:

22. Bayramov Ə.S., Əlizadə Ə.Ə.Psixologiya.Bakı, 2003
23. Qurbanova L.M. Eksperimental psixologiya. Bakı, 2014
24. Qurbanova L.M.Eksperimental psixologiyaya dair mühazirə mətnləri. B-Sum.Dərələyəz –M, 2010.
25. Əmrahlı L.Ş. Eksperimental psixologiya.Dərs vəsaiti Bakı, 2014
26. Quliyev E.M. Eksperimental psixologiya. Testlər.Tədris vəsaiti.ADPU-nun nəşri. Bakı, 2014.

*** Mövzu ilə bağlı elektorn resurslar**

1. https://studfile.net/preview/3283083/page:2/
2. https://studfile.net/preview/3283083/page:2/#4

https://studfile.net/preview/3283083/#2

1. Psixoloji testləşdirmə anlayışı

Psixoloji test - insanın hər hansı psixoloji xarakteristikalarını aşkarlayan və onların inkişaf səviyyəsini təyin edən standartlaşdırılmış suallar və ya tapşırıqlar sistemidir. Psixoloji testləşdirmə tədqiq olunanların psixoloji xarakteristikalarını müəyyənləşdirmək və ölçmək məqsədini daşıyır. Testlər əsasən şəxsiyyət keyfiyyətlərinin öyrənilməsi məqsədilə tətbiq edilir, elə buna görə də test metoduna adətən şəxsiyyəti öyrənən üsullar sistemi kimi də yanaşılır. Testlər har hansı

keyfiyyəti müəyyən etdiyinə görə psixodiaqnostik (psixodiaqnostika - şəxsiyyətin fərdi xüsusiyyətlərini aşkarlayan və inkişaf səviyyəsini təyin edən üsullar haqqında elmdir) metod hesab edilir. Ümumiyyətlə, testlər psixodiaqnostikanın əsas aləti rolunda çıxış edir. Test sözü ingilis mənşəli olub, sınaq, yoxlanış, təcrübə kimi tərcümə olunur. Psixologiyada da bu mənada işlədilir və əsasən fərdi fərqləri öyrənmək məqsədilə tətbiq olunur. Test terminini ilk dəfə V.Vundtun amerikalı tələbəsi psixoloq Geyms Kettell 1890-cı ildə «intellektual testlər və ölçmələr» adlı işində işlətməklə elmə daxil etmişdir. Testləşdirmənin təkamülünün başlanğıcı XIX əsrlə bağlıdır. Fransız həkimi A.Bine testləşdirmənin nəzəriyyə və praktikasının inkişafına xidmət edəcək əhəmiyyətli işlər görmüşdür. XX əsrin 20-ci illərində, psixoloji testlərin, xüsusilə də intellekt testlərinin istifadəsinə geniş yer verildiyi bir vaxtda «test partlayışı» baş verdi. Sonralar müxtəlif fəaliyyət sahələrində insanların qabiliyyət və bacarıqlarının səviyyəsini təyin edən
çoxsaylı xüsusi testlər meydana gəldi. Bunun axan ilə proyektiv testlər və şəxsiyyət testləri də yarandı. Onlara isə öyrənilənləri xüsusi təşkil edilmiş durumlara salaraq hər hansı süni şəkildə yaradılmış bir məsələnin həll edilməsi zamanı özlərini necə aparacaqlarının müşahidə edilməsi üzərində qurulmuş test-eksperimentlər də qoşuldu. Vaxtilə tibbi praktikada şəxsi keyfiyyətlərin təyin edilməsi ilə bağlı məlumatların toplanmasına xidmət edəcək çoxlu sayda testlər işlənmişdi. İlkin olaraq bu testlər psixo- patoloji cəhətdən qiymətli hesab olunacaq hər hansı xəstəliyə tutulmuş pasientin şəxsi keyfiyyətlərinin təyin edilməsi məqsədinə xidmət edərdi. Psixopatoloji əlamət kimi ən çox rigidlik və həyəcanlanma əlamətləri təyin edilərdi. Şəxsiyyətin digər xüsusiyyətlərinin təyini belə testlərdə özünə yer tapmamışdı, belə ki, bu xüsusiyyətlərin təyini psixiatriya üçün diaqnostik əhəmiyyət kəsb etmirdi. İmkanlar genişləndirilməldə, lazımi nəticələr əldə etmək baxımından test üsulunun sonrakı inkişaf mərhələlərində əsas diqqət şəxsiyyət nəzəriyyəsinə yönəldildi. Daha sonralar bu sahə daha da inkişaf edərək ayrıca bir bölməni - testalogiyanı formalaşdırdı. ***Testologiya*** - testlərin tərtibi və ya konstruksiyası haqqmda elmdir. Testləşdirmə prosesi adətən özündə üç mərhələni cəmləşdirir:

1) testləşdirmənin məqsəd və vəzifələrinin müəyyənləşdirilməsi;

2) təlimata uyğun testləşdirmənin tətbiqi və göstəricilərin əldə olunması;

3) əldə olunmuş göstəricilərin «normal hədlə» müqayisəsi və nəticənin əldə edilməsi.

Əsas əlamətlərinə görə testlərin növləri:

• *fərdi testlər* - hər bir öyrəniləli şəxslə ayrı-ayrılıqda işləmək üçün müəyyənləşdirilmişdir;

• *qrup testləri* - eyni anda bir neçə sayda öyrənilənlərlə test aparmağa imkan verir;

• *verbal testlər* - öyrənilənlərin öz fikirlərinə müvafiq aparılmış təhlillərə əsaslanır;

• *qeyri-verbal* - danışıqlardan əlavə digər əlamətlərin aşkarlanması və ümumiləşdirilməsi məqsədilə istifadə edilir;

• *kəmiyyət testləri* - öyrənilən xüsusiyyətin inkişaf həddinin kəmiyyət göstəricilərinin əldə edilməsinə imkan verir;

• *keyfiyyət testləri* - öyrənilən xüsusiyyətin inkişaf həddinin keyfiyyət göstəricilərinin açıqlanmasına imkan verir;

• *qradual testlər* - müəyyən şkalaların köməyilə öyrənilən xüsusiyyətin inkişaf dərəcəsini rəqəmlərlə ifadə etmək imkanı verir;

• *alternativ testlər* - «hə» və «yox» səpkili, ancaq iki bir- birini inkar edən nəticələrin əldə edilməsinə imkan verir;

• *ümumi testlər* - ümumi xarakterli hər hansı psixoloji xüsusiyyətlərin araşdırılması məqsədi daşıyır;

• *xüsusi testlər* - bir insanın digərindən fərqlənməsinə imkan verən hər hansı xüsusi keyfiyyətləri müəyyənləşdirir.

2.Əsas əlamətlərinə görə testlərin qruplaşdırılması

Testlər müxtəlif tapşırıq və suallar şəklində mütəxəssislər tərəfindən işlənilir. Testlərin psixodiaqnostik əhəmiyyəti onların elmi cəhətdən nə dərəcədə əsaslı olmasından bilavasitə asılıdır. Testlərin təsnifatına əsas verən onların məqsəd, forma və məzmunudur. Müxtəlif tarixlərdə psixoloji testlərin təsnifatına dair müxtəlif variantlar təklif olunmuşdur. Onların içərisində daha uğurlusu 1950- ci ildə amerikah psixoloq Saul Rozençveyqin təklif etdiyi variant hesab edilir. O, psixoloji testləri aşağıdakı qruplara bölmüşdür: subyektiv, obyektiv və proyektiv. Müxtəlif yanaşmalar da nəzərə alınmaqla həmin qruplaşmanı aşağıdakı tərkibdə təqdim etmək olar:

***Subyektiv testlər** (tədqiq olunanın özünü qiymətləndirməsinə əsaslanır):

*1) **düzülüşünə görə:***

a) sorğular-anketlər;

b) fərdi sorğular

*2) **tətbiq sahəsinə görə:***

a) dar profilli: klinik, təhsil, menecment və s. sahələr;

b) istifadə dairəsi geniş olan

5) ***psixi hadisələrin diaqnostikasına görə:***

a) psixoloji durumu təyin edən sorğular;

b) şəxsiyyətin xüsusiyyətlərini təyin edən sorğular (şəx

siyyət sorğuları);
v) kompleks sorğular

*4) **şəxsiyyəti təsvir etmə prinsipinə görə:***

a) şəxsiyyət cizgilərini realizə edən sorğular:

• birölçülü;

• çoxölçülü;

b) tipoloji sorğular

*5) **şəxsiyyətin makroxarakteristikasının təyininə görə:***

a) temperament sorğuları;

b) xarakter sorğular;

v) şəxsiyyətin yönəlişliyi sorğuları;

c) qarışıq sorğular

Ohyektiv testlər (diaqnozun qoyulması fəaliyyətin xüsusiyyətinə və nəticəsinə görə əldə olunan məlumata əsaslanır); testləşdirmənin mövzusu və vəzifəsinə görə obyektiv testləri növbəti şəkildə qruplaşdırmaq olar:

1) ***şəxsiyyət testləri***

2) intellekt testləri:

• verbal;

• qeyri-verbal;

• kompleks

3) ***qabiliyyət testləri:***

• ümumi qabiliyyət testləri;

• xüsusi qabiliyyət testləri;

• kreativlik testləri

4) ***nailiyyət testləri:***

• fəaliyyət testləri;

• yazılı testlər;

• şifahi testlər

****Proyektiv testlər*** (öyrənilənin fəaliyyətinə dair xüsusiyyətlərinin tamamilə neytral, xarici materiallarla müqayisəsindən əldə olunmuş təhlillərə əsaslamr). İlk dəfə bu metod 1939-cu ildə Lourens K.Frank tərəfindən işlənilmişdir. Proyektiv testlərin əsas xüsusiyyəti ondan ibarətdir ki, öyrənilənə müəyyən stimul materiallar (suallar) təqdim edilməklə onun xüsusiyyətlərini aşkarlamaq mümkündür. Belə ki, bu material nə qədər zəif tərtib edilsə, subyekt heç bir əhəmiyyət kəsb etməyən materiah şərh etməyə və ya başa düşməyə çalışdıqca özü də bilmədən həyəcamm, qorxularını, arzularını, narahatçılığını daha çox büruzə verər. Bu metodlar vaxtilə Z.Freyd tərəfindən təqdim olunmuş psixoanalizdən qaynaqlanıb. Öyrənilənin reaksiyalarının xarakterindən asılı olaraq proyektiv testlər aşağıdakı şəkildə qruplaşdırılır:

1) konstitutiv testlər - tədqiq olunandan tələb olunur ki, təqdim olunmuş materiala məna versin (məsələn, «Rorşax ləkələri» adlı testlərdə təqdim olunana qara-ağ rənglərdən ibarət ləkələr təqdim edilir və bu ləkələrin nəyə bənzəməsi soruşulur);

2) *konstruktiv testlər* - öyrənilənə təqdim olunmuş detallardan hər hansı mənanı kəsb edəcək materiah konstruksiya etmək tapşırılır (məsələn, ağac, avto-

mobil, insan, heyvan və s. maketlər təqdim edilir, təqdim olunan özünün yaşamaq istədiyi kəndin maketini konstruksiya edir);

3) *interpretativ testlər* - tədqiq olunandan tələb olunur ki, hər hansı hadisəni, hekayəni uydursun, bunun üçün də müvafiq stimullar təqdim edilə bilər;

4) *katartik testlər* - təşkil olunmuş şəraitlərdə hər hansı

oyun fəaliyyətinin icrasından əldə olunan materiala əsaslanır;

5) *ekspressiv testlər* - tədqiq olunanın çəkdiyi şəkillərin təhlillərindən əldə olunmuş məlumatlara əsaslanır, bu şəkillər sərbəst və ya tapşırığa müvafiq çəkilə bilər (məsələn, M.Z.Drukareviçin «mövcud olmayan heyvan», C.Bukun «ev-ağac-insan» və s. tipdə olan testləri);
6) *impressiv testlər* - təqdim olunmuş bir sıra stimullariçərisindən öyrənilənin hansına üstünlük verməsi prosesindən əldə olunan məlumatların təhlillərinə əsaslanır;
7) *additiv testlər* (ingilis, add - əlavə etmə mənasını verir) - hər hansı təqdim olunmuş yarımçıq materialın tamamlanması təklif olunur (məsələn, cümlənin və ya hekayənin tamamlanması)

★***Kompyuter testləşdirmələri*** - XX əsrin 30-cu illərindən etibarən tətbiq edilməyə başlamışdır; stimullar kompyuter vasitəsilə işlənib öyrənilənlərə təqdim edilir, bu proses vaxta qənaət edilməyə və nəticələrin daha sürətlə, əziyyətsiz əldə edilməsinə köməklik göstərir; qüsurları isə ondan ibarətdir ki, proqramların tərtibi mürəkkəb ola bilər.

4.Testlərin tərtibatına aid tələblər

İstənilən psixoloji test onu tərtib edən müəllifin fərdi nəzəriyyəsi və eləcə də, onun şəxsiyyət haqqında bilgiləri çərçivəsində tərtib olunur. Bu hətta, şəxsiyyətin əsas cizgilərini müəyyənləşdirdikdə də özünü göstərəcəkdir. Belə durumdan çıxış kimi, yəni praktik cəhətdən problemin qənaətbəxş həlli baxımından, bir neçə testin birgə istifadəsinə yer vermək lazımdır. Hər hansı testi tətbiq etməmişdən öncə hər şeydən əvvəl onun yaranma tarixi haqqında ətraflı məlumatlar əldə etmək, onun nəzəriyyəsi nəyə əsaslanırsa, onu müəyyənləşdirmək, o cümlədən,
onun adəti üzrə tətbiq edildiyi sahəni müəyyənləşdirmək lazımdır. Bütün bunlar alınmış nəticələrin interperta- siyasında və xüsusilə də hər hansı əhəmiyyətli hesab ediləcək qərarın verilməsində özünü göstərəcəkdir.

Testlərə aid edilən tələblərdən biri də testlərin yeni şəraitlərə uyğunlaşdırılmasıdır, məsələn, hər-hansı ölkə, mədəniyyət, dillər, yaş hədləri və s. kimi ilkin tətbiq yerindən fərqli durum və məkanlar. Əgər test hər hansı ölkənin daxili siyasəti, mədəniyyəti və etnik xüsusiyyətləri nəzərə alınmaqla işlənmişdirsə, onda həmin test digər ölkələrdə istifadə edilə bilməz. Uyğunlaşmaya çətinlik törədən amillərdən ən əsasını testlərin yazıldığı dillərin müxtəlifliyi törədir. Testlər istifadə ediləcəyi dillərə nə qədər dəqiq tərcümə edilsə də, ilkin olan effekti tam dəqiqliklə ifadə etməyəcəkdir. Testləri dəqiqliklə tərcümə etmək üçün dili dəqiq bilmək, testin mahiyyət və tələbini, qarşıya qoyulmuş məqsədi, eləcə də müəllifin fərdi üslubunu düzgün dərk etmək lazımdır. Bir yaş dövrünə aid insanların xüsusiyyətlərini təyin etmək məqsədilə tərtib edilmiş testlər digər yaş dövrlərində olan insanlara tətbiq edilə bilməz. Təbii ki, belə testlər yaş həddinə müvafiq adaptasiyam tələb edir. Böyük yaşda olan insanların tədqiqinə aid olan intellektual və şəxsi testlər kiçik yaşhlar üçün yaramır və ya əksinə...

Əgər hər hansı testin keçirilməsi tez-tez təkrarlanarsa, onda artıq insanlar belə hala alışacaq, cavabları mexaniki, fikirləşmədən cavablandıracaq və ya cavablarını qəsdən əvvəlkilərə uyğun gəlməmək məqsədilə süni yolla dəyişdirəcəklər. Uzun testlərin cavablandırılması zamanı mono- tonluqdan və eləcə də rəngarəngliyin olmaması səbəbindən insanlar çox tez yorulurlar və yorğunluqlarını dəf

etmək məqsədilə qeyri-ixtiyari olaraq cavablarında dəyişikliklərə yol verirlər, səhvlər buraxırlar. Belə hallara yol verməmək üçün eyni testlərdən tez-tez, təkrarən istifadə etmək olmaz. Həm də testlərin keçirilməsindən sonra növbəti testlərin keçirilməsinə qədər arada olan vaxt intervah kiçik olmamalıdır. Testlərin daimi olmaması səbəbləri həm də bir sıra daxili (tədqiq olunanların psixoloji dumurları, əhvalları, fiziki sağlamlıqları və s.) və xarici (şərait, təlimat, eksperimentatorun davranışı və s.) şəraitlərin dəyişkənliyindən də asılıdır.

Uşaqların psixodiaqnostikasını həyata keçirən yazılı və şifahi testlərin özünəməxsus xüsusiyyətləri mövcuddur. Ən əsas şərtlərdən biri sorğu zamanı sualların uşaqlar tərəfindən düzgün cavablanmağıdır. Əsasən də bu o zaman lazımdır ki, məktəbəqədər və kiçik yaşh məktəblilərin psixologiyası öyrənilir. Psixoloq və ya pedaqoq sorğu keçirən zaman hökmən sualların uşaqlar tərəfindən düzgün qavranılmasmı müəyyənləşdirməlidir, əgər nə isə anlaşılmazlıq mövcuddursa, hökmən izahlarla o aradan qaldırılmalıdır.

Uşaqlarla sorğular keçirilən zaman ən çox yaranan problemlərin səbəbləri hələ uşaqların özlərini yetərincə dərk etməmələri ilə bağh olur, məsələn, əksər kiçik

məktəb yaşh uşaqlar öz hərəkətlərinin motivlərini düzgün anlaya və dəyərləndirə bilmirlər. Məktəbəqədər və kiçik məktəb yaşh uşaqlar öz xarakter əlamətlərinin nədən ibarət olduğunu hələ dərk etmirlər və onlarla hansı şəxsi keyfiyyətlərin daşıyıcıları olmaları haqqında sorğu keçirmək düzgün olmazdı, belə hallarda sorğu keçirmək məqsədəuyğun deyil, müəyyən sənədlərin, fəaliyyət məhsullarının təhlilləri, müşahidə və ya eksperimentlərdən istifadə etmək daha məsləhətlidir.
Psixoloji testlərin işlənmə və aprobasiyalarının əsas mərhələləri aşağıdakılardır:

1. *Metodun validlik, dəqiqlik, mötəbərlik və reprezen- tativliyinin yoxlanılması.*

2. *Seçilmiş metodun köməyilə öyrənilməsi zəruri olan bu və ya digər keyfiyyət və xüsusiyyətlərin dəqiq təyin edilməsi.* Müvafiq təyin edilmələr məfhumların təyini məntiqinə müvafiq qaydalarla qətiyyətlə uzlaşdırılmalıdır. Kifayət qədər əminlik olma- dıqda (artıq öncədən onun validliyinin olmaması səbəbindən) onda işlənmiş metodların praktik tətbiqi qəti qadağandır.

3. *Lazımi keyfiyyət və xüsusiyyətlərin inkişaf səviyyəsi haqqında mülahizələr yürütməyə əsas verən obyektiv əlamətlərin sistemli yığımı.* Bu əlamətlər metodoloji cəhətdən birmənalılıq tələbatlarına cavab verməlidir, hansıları ki, növbəti şəkildə formalaşdırmaq mümkündür: verilmiş əlamət bizi maraqlandıran xüsusiyyətin indikatoru rolunda o vaxt çıxış edə bilər ki, o funksional şəkildə ancaq həmin əlamətlərin özləri ilə bağhhq təşkil edir, digərilərilə deyil. Məsələn, birmənalılıq tələbatları heç də insanın özü haqqında dedikləri ilə uyarhq təşkil etmir. Xarakter haqqında fikirlərin söylənilməsi təkcə danışanın söylədiklərindən asıh deyil, həm də mövcud durumdan da asılıdır.

4. *Tədqiqatın gedişatını özündə praktik cəhətdən əks etdirən əlamətlərin yığımı, seçilmiş əlamətlər üzərində əməliyyatların aparılması və s. fəaliyyət sistemlərinin işlənilməsi, reallaşdırılması ilə bağlı işlər.*

5. *Tətbiqi metodların nəzəri məsələlərinin işlənilməsi.* Məsələn, əgər belə metodlar test-sorğulardırsa, onda işlərin bu etapı özündə seçilmiş əlamətlərin cizgiləri ilə bağlı məsələləri, yoxlamlanların təlimatlarını, eksperiment zamanı onların davranışı və psixoloqların fəaliyyətini müəyyənləşdirən cəhətləri də əks etdirir.

6. *Yaş hədlərinə qoyulmuş normaların müəyyənləşdirilməsi və onun dəqiqliyinin yoxlanılması məqsədilə mövcud metodun praktik cəhətdən əvvəl pilotaj (kəşfiyyat), daha sonra kütləvi şəkildə yoxlanılması.*

Mövzu 9. Modelləşdirmə

Plan:

1.Model anlayışı.Modelləşdirmənin mahiyyəti
2. Modelləşdirmənin funksiyaları
3.Modelləşdirmənin növləri

Ədəbiyyat:

27. Bayramov Ə.S., Əlizadə Ə.Ə.Psixologiya.Bakı, 2003
28. Qurbanova L.M. Eksperimental psixologiya. Bakı, 2014
29. Qurbanova L.M.Eksperimental psixologiyaya dair mühazirə mətnləri. B-Sum.Dərələyəz –M, 2010.
30. Əmrahlı L.Ş. Eksperimental psixologiya.Dərs vəsaiti Bakı, 2014
31. Quliyev E.M. Eksperimental psixologiya. Testlər.Tədris vəsaiti.ADPU-nun nəşri. Bakı, 2014.

*** Mövzu ilə bağlı elektorn resurslar**

- https://www.psychology-online.net/articles/doc-1134.html
- https://psyera.ru/5268/klassifikaciya-eksperimentov
- https://studme.org/1906110929293/psihologiya/tipy_eksperimentov

1. Model anlayışı.Modelləşdirmənin mahiyyəti

Model (lat. modulus - *nümunə* mənasını verir) dedikdə, öz xarakteristikalarına görə real obyektlərə bənzəyən süni obyektlər nəzərdə tutulur. Modelləşdirmə metodu hər

bir elm sahəsinə tətbiq edilə bilər, lakin bu metod tətbiq olunduğu elmin xarakterik xüsusiyyətini özündə əks etdirərək digər elm sahələrinə tətbiq olunanlardan fərqlənəcəkdir. Modelləşdirmə metodu 3 mənada başa düşülə bilər: 1) obyektlərin tədqiqinin modellər üzrə aparılması; 2) obyektlərin modellərinin tərtibi prosesi; 3) dərketmə fəaliyyətinin forması, məsələn, təxəyyül və ya fikri əməliyyatların məhsulu. Psixologiyada əsasən I varianta daha çox müraciət olunur. Modelləşdirməyə belə tərif vermək olar: *modelləşdirmə* - hər hansı obyektin praktik və ya nəzəri şəkildə elə öyrənilməsi prosesidir ki, burada bizi maraqlandıran obyektin özü deyil, onun modelini özündə əks etdirən köməkçi, süni və ya təbii sistem çıxış edir. Bu sistem kimi növbəti variantlar nəzərdə tutula bilər: a) tədqiq olunan obyektlə oxşarlığı olan sistem; b) tədqiqatın müxtəlif mərhələlərində tədqiqat obyektini əvəz edəcək sistem; v) modelləşdiriləcək obyekt barəsində lazımi məlumat verən sistem.

İlk dəfə olaraq modelləşdirmə metodunu elmə D.K.Maksvell (1831-1879) tətbiq etmiş və bunun sayəsində lazımi elmi məlumatlar əldə edə bilmişdir. Kibernetikanın yaradıcısı hesab olunan N.Viner (1884-1964) bu metodun psixologiyaya tətbiq ediləcəyinin qaçılmaz olduğunu hələ vaxtilə qeyd etmişdi. Daha sonralar modelləşdirmə metodunun tətbiq sahəsi genişlənmiş və məntiqdə, linqvistikada, ekonomikada, riyaziyyatda, biologiyada, psixologiyada, eləcə də digər sahələrdə istifadəsinə də geniş yer verilmişdir. XX əsrin ortalarından etibarən modelləşdirmənin inkişafında böyük sıçrayışlar baş verdi. Həmin illərdə modelləşdirmə dedikdə, dərketmənin, düşüncənin yeni forması başa düşülürdü. Bu dövrlərdə psixoloji tədqiqatlara kompyuter modelləşdirməsinin tətbiq edilməsi zərurəti də yarandı. Beləliklə, XX əsrin 60-cı illərində modelləşdirmə elmi tədqiqatların ayrılmaz tərkib hissəsinə çevrilmişdi. Hal-hazırda o dövrlərdə yaranmış ajiotaj olmasa da, lazımi məqamlarda bu metodun tətbiqinə yer verilir, artıq bu metodun əhəmiyyəti, mahiyyəti dərk edilərək qəbul olunub. Elə buna görə də onun tətbiqi sensasiya deyil, normal bir hal kimi qəbul olunur.

Modelləşdirmə üsulu bir tədqiqat aləti kimi insanın təbiət və cəmiyyətin inkişaf qanuna uyğunluqlarını dərk etməsi prosesində,ətraf aləmin praktiki dəyişdirilməsi yollarının axtarılmasında mühüm yer tutur.Son illlər computer texnologiyasının sürətli inkişafı nəticəsində bu üsula təkcə fiziklərin,mexaniklərin deyil,iqtisadçıların,sosioloqların,demoqrafların və digər elmlərin nümayəndələrinin marağı daha da artmışdır.Yeni elmi biliklər alınması üsullarının,o cümlədəm

modelləşdirmənin tətbiqi istənilən elmi istiqamətin inkişafı üçün zəruri şərtlərdəndir.

Modelləşdirmə üsulu və vasitələri həm yeni faktların ixahında,həm də idarə etmə qərarlarının qəbul edilməsində səmərəli surətdə müvəffəqiyyətlə tətbiq olunur.Modelləşdirmə həm ayı-ayrı elmi istiqamətlərin ümumi cəhətlərini,həm də onların məzmun spesifikasını nəzərə almağa imkan verdiyindən,bu üsulun köməyi ilə elmin mühüm sahəsini-müasir elmi biliklərin sintezi məsələsini həll etmək mümkün olmuşdur

Model anlayışının qəbul edilən variantlarım 3 qrupa bölmək olar: 1) konstruksiya mənalı (məsələn, avtomobil modeli, ayaqqabı və ya paltar modeli; bu modellərin yaradıcısı - modelyer, modelləri nümayiş etdirən isə, maniken adlandırılır); 2) etalon mənah (məsələn, hər hansı məhsulun dövlət standartı); 3) hər hansı tədqiqat obyektinin cizgilərini əks etdirən model.

2. Modelləşdirmənin funksiyaları

Anlayışının xarakterindən asılı olaraq modellər aşağıdakı *funksiyalara* malikdir:

* ***empirik səviyyədə:***

1. *rekonstruksiya* (obyektin xüsusiyyətlərinin keyfiyyətli bərpası);

2. *ölçmə* (obyektin kəmiyyət xarakteristikalarının əldə olunması);

3. *təsviredici* (obyektin dərk edilməsinin, başa düşülməsinin təmin edilməsi);

****nəzəri səviyyədə:***

1. *interpretasiya* (şərh edilmə, başa salma, izah etmə);

2. *proqnozlaşdırma* (obyektin davranışı barədə qabaqcadan məlumat vermək);

3. *kriterial* (reallığın, obyektin haqqındakı məlumatların adekvathğınm yoxlanılması);

4. *evristik* (tədqiq olunan obyektlə bağlı yeni fikirlərin və fərziyyələrin irəli sürülməsi);

praktik səviyyədə:

1. *illüstrativ dərketmə;*

2. *öyrətmə;*


3. əyləncə - oyun.

3.Modelləşdirmənin növləri.


Modellərin elmə məlum çoxlu sayda növləri var. Ən çox yayılanları 3 qrupa bölmək və aşağıdakı şəkildə təsnif etmək olar:

I. ***Reallaşdırma üsuluna görə:***

• *əşyavi model* - real obyektin fizioloji göstəricilərini özündə əks etdirir (məsələn, canlı orqanizmlərin maketi; çox zaman belə modellərə fizioloji modellər də deyilir),



• *işarə modeli* - tədqiq olunan obyektin şərti işarələrlə təsvirini əks etdirir (məsələn, yol hərəkətinə aid işarələr, simvollar, amuletlər və s.), şək.4.5.2;



• *nümunə modelləri* - öyrəniləli obyektin ideal təsvirini əks etdirir, şək.4.5.3;



Şəkil 4.5.3. ***Dinozavr modeli***

• *durumu əks etdirən modellər* - öyrənilən obyektin mövcudluq şəraitinin süni təsvirinə əsaslanır, şək.4.5.4;

Şəkil 4.5.4. *Qış və yaz fəsillərində bitkilər*



II. ***Orijinal (əsl, gerçək) tərəflərin təsvir edilmə xarakterinə görə:***


• *substansial modellər* - material baxımdan müəyyən xüsusiyyətlərinə görə orijinalla identiklik təşkil edir (məsələn, heyvanlar insanların bioloji modeli ola bilər; insan qruplan insan cəmiyyətinin modeli rolunda çıxış edə bilər və s.), şək. 4.5.5;

Şəkil 4.5.5 *İnsanın fomalaşmasının heyvan modelləri üzərində öyrənilməsi*



• *struktur modelləri* - obyektin tərkib hissəsini əks etdirir (məsələn, atomun quruluş modeli, şəxsiyyətin strukturunu əks etdirən model və s.), şək. 4.5.6;

Şəkil 4.5.6. *Şəxsiyyətin strukturunu əks etdirən model*




• *funksional modellər* - obyektin ətraf mühitə qarşı təsirini, yəni davranışını əks etdirir, adətən belə modellərdə biheviorizmin məşhur «stimul - reaksiya» və «stimul - aralıq dəyişənlər - reaksiya» formulları əsas rolu oynayır (məsələn, eksperimentlər zamanı dəyişənlər və digər komponentlərin əlaqəsini əks etdirən sxemə əsaslanan modellər), şək. 4.5.7;



Şəkil 4.5.7. *Eksperimentin tərkibi arasındakı qarşılıqlı əlaqəni əks etdirən model*


• *qarışıq modellər* - funksional model həm də obyektin strukturunu da əks etdirirsə, o zaman bu tip modellərə qarışıq modellər deyilir, şək. 4.5.8;



Şəkil 4.5.8. *Psixikanın təbəqələrində baş verən hadisələri əks etdirən model*

• *bütöv modellər* - obyektin xüsusiyyət və elementlərini maksimal sayda əks etdirir; demək olar ki, obyektin bütün parametrlərini əks etdirə bilir, şək. 4.5.9;


Şəkil 4.5.9. *İnsan kəlləsinin modeli*



• *yarımçıq modellər* - orijinalın yalnız bəzi xüsusiyyətlərini əks etdirir, şək. 4.5.10
Şəkil 4.5.10. *Kəpənək qənədlərinin modeli*




III. ***Elm sahələrinə görə*** **-** tədqiq olunan obyekti öyrənən elm sahələrinin fərdi xüsusiyyətlərini özündə əks etdirən modellər elə həmin sahənin adı ilə adlandırılır (məsələn, texniki, sosial, bioloji, psixoloji modellər və s.). Şək. 4.5.11-də bəzi sahələrə aid modelləşdirmə nümunələri təqdim olunmuşdur.
psixoloji model Şəkil 4.5.11.



Modelləşdirmənin istiqamətləri.

Şəkil 4.5.12-də psixologiyada *modelləşdirmənin əsas istiqamətlərini* əks etdirən sxem təqdim edilmişdir.



Şəkil 4.5.12.

Mövzu 10. Psixoterapevtik metodlar

Plan:

1. Psixoterapiya haqqında ümumi anlayış
2. Pisxoterapevtik metodların təsnifatı

Ədəbiyyat:

32. Bayramov Ə.S., Əlizadə Ə.Ə.Psixologiya.Bakı, 2003
33. Qurbanova L.M. Eksperimental psixologiya. Bakı, 2014
34. Qurbanova L.M.Eksperimental psixologiyaya dair mühazirə mətnləri. B-Sum.Dərələyəz –M, 2010.
35. Əmrahlı L.Ş. Eksperimental psixologiya.Dərs vəsaiti Bakı, 2014
36. Quliyev E.M. Eksperimental psixologiya. Testlər.Tədris vəsaiti.ADPU-nun nəşri. Bakı, 2014.

Mövzu ilə bağlı elektorn resurslar

- http://portal.tpu.ru/departments/kafedra/iksu/ucheb_rabota/literatura/special/Tab/KonspPExp.pdf
- https://works.doklad.ru/view/-U6vUaXhZU4.html
- http://window.edu.ru/resource/438/18438/files/Mtdukm8.pdf

1.Psixoterapiya haqqında ümumi anlayış

Psixoterapiya (yun.-dan psyhe - *ruh* və therapeia *müalicə* mənasını verir) - psixikanın müalicəsi ilə məşğul olan sahədir. Psixoterapevtik metodlar - psixoloji problemlərin aradan qaldırılmasında insan psixikasına təsir məqsədilə yönəldilmiş xüsusi üsullar və vasitələr məcmusudur. Psixoterapevtik metodların icrası zamanı müraciət edən subyektlə müalicə edən subyekt arasında müvafiq əlaqə baş verdiyindən bu metodlar empirik qrupa aid edilir. Ənənəvi olaraq psixoterapiya dedikdə, xəstə ilə həkimin qarşılıqlı əlaqəsi nəticəsində xəstəliyin müalicəsinə məqsədyönlü şəkildə yönəldilmiş psixoloji təsirlər nəzərdə tutulurdu. Belə qəbul olunurdu ki, bu metodlar yalnız xəstə olan insanlara tətbiq olunmalıdır. Lakin son vaxtlar lazım gəldikcə psixoloji köməyə ehtiyacı olan sağlam insanlara da bu sahənin müəyyən metodları tətbiq edilir. Psixoterapevtik müdaxiləyə aşağıdakı hallarda ehtiyac yaranır: sosial əlaqələrin (məsələn, dostluq, işgüzar, ailə münasibətləri və s.) pozulması, ünsiyyət çətinlikləri və digər sosial adaptasiya problemləri. Belə hallan yaşayan insanlarda tez-tez nevroza tutulma müşahidə olunur, özünə və ətrafına hörmət azalır, aqressiya artır və s. neqativliklər özünü göstərir. Elə buna görə də son vaxtlar istənilən psixoloji gərginliklərin yaranmasında (qorxular, daxili konfliktlər, depressiya, həyəcanlar, ünsiyyət pozuntuları və s.) psixoterapevtik metodlardan (psixoloji yönümlü, tibbi olmayan) istifadə edilir.

Şərti olaraq psixoterapiyanı iki qrupa ayırmaq olar: tibbi və şəxsiyyət yönümlü. Tibbi psixoterapiyadan psixoloji xəstəliklərin əlamətlərinin yüngülləşməsində və ya aradan qaldırılmasında istifadə edilir. Şəxsiyyət yönümlü psixoterapiya şəxsiyyətin fərdi-psixoloji xüsusiyyətlərinin formalaşmasına və inkişafına yardım edir.

Tibbi praktikada da psixoterapiyanı iki hissəyə ayırırlar: fərdi və ümumi. Ümumi psixoterapiya dedikdə, hər hansı xəstəliyi olan xəstənin xəstəliklə mübarizə aparması üçün mənəvi cəhətdən gücünü artırmağa, səfərbər etməyə yönəldilmiş üsullar sistemi nəzərdə tutulur. Bu halda psixoterapiya digər müalicə sahələri (cərrahi, fizo- terapiya və s.) üçün əlverişli psixoloji iqlimin yaradılmasında köməkçi sahə rolunu oynayır. Fərdi psixoterapiya isə hər hansı xəstənin fərdi şəkildə müalicəsinə doğru yönəldilmiş psixoloji təsir səpkili üsullar sistemini özündə əks etdirir.

Psixoterapevtik təsirlər üç formada həyata keçirilə bilər: fərdi, qrup və kollektiv.

Fərdi psixoterapiya - mütəxəssis tərəfindən hər hansı fiziki və ya psixoloji rahatlığın bərpası məqsədilə müraciət edənə fərdi şəkildə (yəni, hər hansı digər insanın iştirakı olmadan) tətbiq edilən üsullar sistemidir (təlqin, hipnoz, söhbət,

treninq, oyun və s. ola bilər). **Qrup psixoterapiyası** - mütəxəssis tərəfindən hər hansı fiziki və ya psixoloji rahatlığın bərpası məqsədilə insan qrupuna tətbiq edilən üsullar sistemidir. **Kollektiv psixoterapiya** - mütəxəssisin təsirinin və qrup üzvlərinin bir-birilə təsirinin qarşılıqlı olmasına əsaslanır (məsələn, hər hansı ailə, əmək, idman terapiyası, reabilitasiya mərkəzlərində və ya klublarda həyata keçirilən terapiya və s.).

3. **Psixoterapevtik metodların təsnifatı.**

Psixoterapiyanın metodları müxtəlifdir, lakin bir neçəsi daha çox istifadə edilir: *hipnoterapiya, autogenməşq, rasional psixoterapiya, oyun psixoterapiyası, psixoestoterapiya, narkopsixoterapiya, sosial psixoterapiya.*

Hipnoterapiya - insan psixikasına terapevtik məqsədlə hipnozun köməyilə edilən təsirdir. Hipnoz dedikdə, hipnoz edən tərəfindən edilən psixoloji təlqinin təsiri altına düşmüş psixikamn müvəqqəti xarakter daşıyan bir durumu nəzərdə tutulur. *Hipnoz* (yunancadan mənası - yuxu deməkdir) metodunun elmi əsasları ilk dəfə ingilis cərrahı C. Bred tərəfindən irəli sürülmüşdür. Hipnotik vəziyyətin üç mərhələsi mövcuddur: 1) *letargik* və ya yüngül vəziyyət - yuxululuq, əzələlərin boşalması, laqeydlik hah baş verir; 2) *katalektik* və ya orta vəziyyət (buna hipnotaksiya da deyilir) - hipnozun təsiri altında olan insan əzələlərinin güclü zəifləməsi nəticəsində əl və ayaqlarını tərpədə bilmir; 3) *somnambulitik* və ya dərin vəziyyət - hipnozçünün təsiri altında olma, onun əmrlərinə tabe olma, hipnozçü tərəfindən idarə olunma və s.

Hipnozun 2 növü məlumdur:

1) imperativ;

2) koperativ.

İmperativ hipnoz hipnozçunun daha sərt direktiv təlimatları və stimullarına əsaslanır; ***kooperativ hipnoz*** yumşaq formalı təsirlərə (elə bil hipnozçu pasienti «dilə tutmaq» yolu ilə hipnoz edir) əsaslanır. Hipnoz metodları müxtəlifdir. Ancaq onların hər birində üç əsas prosedur prinsip gözlənilməlidir: *fassinasiya, fiksasiya və sözlü yüklənmə*.

Fassinasiya (ingilis, fascination - cazibədarlıq, füsunkarlıq, məftunluq mənasını verir) - bu zaman pasientin gözləri hipnozçunun gözlərinə zillənmiş (dikilmiş, diqqətli) vəziyyət ahr. Bu prosesin əsas sirri ondan ibarətdir ki, hipnozçu pasientin gözünə baxmır, bumunun üst hissəsinə baxır (bu halda o, öz diqqətini daha yaxşı cəmləyə bilir) və bununla öz işi üçün daha əlverişli şərait yaradır.

Fiksasiya - hipnozçunun hər hansı analizatora (məsələn, görmə, eşitmə, dəri) təsir etməsi nəticəsində pasientin yuxuya getməsi vəziyyəti. Bu zaman hər hansı yuxu yarada bilən əşyaların köməyindən də istifadə edilə bilər, məsələn, parıltılı əşya, hər hansı işıq (lampa) və s.

Sözlə yükləmə - sözlü formullar vasitəsilə təlqinə əsaslanır. Sözləri bərk səslə deyil, intonasiya və eyni tempdə, rahat şəkildə səsləndirmək lazımdır. Bu səsdə hipnozçunun özünə inamı hiss olunmalıdır (məsələn, «Yat!»). Seans adətən 15-20 dəq. aparılır, fərdi ehtiyacdan asılı olaraq vaxt dəyişə də bilər. Bəzən insan özünü təlqin etməkdə hipnoz halı yaşaya bilər, buna *autohipnoz* deyilir.

***Autogen məşq** (öz-özünə məşq) - fiziki duruma nəzarət etməyi öyrənməklə insanın öz psixikasına təsir etməsinə əsaslanır. Autogen məşq (AM) psixofizioloji duruma təsir nöqteyi nəzərindən ən geniş yayılmış məşq növüdür. Autogen məşqi hər kəs edə bilər, hətta ən gərgin iş qrafiki rejimdə işləyən insanlar da (çünki bu prosesin həyata keçirilməsi üçün çox az bir vaxt lazımdır). Sadəcə olaraq bu prosesin necə həyata keçirilməsini bilmək və bunu həyata keçirməyə lazımi vərdiş formalaşdırmaq lazımdır. AM-ə başlamazdan əvvəl təklikdə qalmaq və aşağıdakı yeddi bənddə qeyd edilənlərə əməl etmək lazımdır:

• istirahət halını almaq;
• hərəki əzələlərin tamamilə boşalması (əllərin-ayaqların ağırlaşması hissi duyulur);
• qan damarlarının gərginlikdən azad olması - ra- hatlaşması (bütün bədəndə istiliyin hiss olunması);
• nəfəs almanın nizamla idarə olunması, nəfəs almada rahatlığın, ritmikliyin yaradılması (bədənin uçması hissi);
• ürək əzələlərindən gərginliyin götürülməsi;
• orqanizmin enerji resurslarının bərpasım təyin edən dərinlikdə olan sinir mərəkəzlərini hərəkətə gətirmək (qarın nahiyəsində istiliyin hiss olunması);
• baş beyində gərginliyin aradan qaldırılması (ahnda soyuqluğun hiss olunması).

Bütün AM hərəkətləri ardıcıllıqla yerinə yetirilməlidir. İlkin olaraq hər bir hərəkət, hər gün daxil olmaqla, ən azı iki-üç həftə məşq tələb edir. Sonralar isə bu hərəkətlərin icrası vərdiş hahna keçir. O cümlədən, bu hərəkətlərin mənimsənilməsində fərdi keyfiyyətlər də əhəmiyyətli rol oynayır. Bu hərəkətləri fərdi tələbatlardan asıh olaraq (mahiyyətin saxlanılması şərtilə) hər kəs özünəməxsus (məsələn, uzanıqlı, oturaq və s., yəni kim özünü necə rahat hiss edirsə) şəkildə edə bilər. Lakin vacib olan məqamları gözləmək lazımdır: otaq sərin və

alaqaranhq olmalı, otaqda gərginlik yaradacaq heç nə olmamalıdır; həzin musiqi səslənə bilər (okeanın, dənizin, meşənin səsləri yazılmış kasset və disklərdən istifadə olunması daha məsləhətlidir və ya klassik, həzin simfoniyalar, məsələn, Betxoven, Şuman, Moçart, Şubert və b.-nın əsərlərindən istifadə oluna bilər). AM-ə başlayan zaman öz-özünə bu sözləri demək olar: «mən rahatam, mən tamamilə rahatam», «mən rahat nəfəs alıram», «mənim bədənim ağırlaşır», «mənim ürəyim çox rahat və ritmik vurur» (hər kəs sakitləşməsi üçün özünəməxsus fərdi sözlərindən də istifadə edə bilər). Məşq zamanı hər bir kəlmə 6-8 dəfə, böyük fasilələr (pauzalar) verilə-verilə təkrar edilməlidir. Bu sözlərin deyilməsinin əhəmiyyəti diqqətin idarə olunması ilə bağlıdır. Bu sözlərin deyilməsi insanın beynini narahat edən fikirlərdən təmizlənməsinə köməklik edir və boşalma nöqtələrini dəqiqliklə istiqamətləndirir. Beləliklə, insan neqativ gərginliklərdən azad olur və yeni güc əldə edərək öz iş qabiliyyətini bərpa edir, özü haqqında mənfi fikirlərindən azad olur. Bu durumda insan qarşısında istənilən məqsədi qoya, özünü uğurun əldə edilməsi istiqamətində proqramlaşdıra və normal həyata qayıtdıqdan sonra qarşısına çıxan obyektiv - subyektiv maneələri dəf edərək məqsədini reallaşdıra bilər. Uzun müddət həyata keçirilən AM-lərdən sonra insanın ümumi durumu əhəmiyyətli dərəcədə yaxşılaşır.

***Rasional psixoterapiya** zamanı mütəxəssis problemlərin mahiyyətini təhlil edən və ya aydınlaşdıran üsullardan (məsələn, söhbətlər, leksiyalar və s.) istifadə etməklə subyektə psixoloji təsir edir.

***()yun psixoterapiyası** kollektiv psixoterapiyanın bir növüdür və burada oyun fəaliyyətinə əsaslanan təsirlərdən istifadə edilir. Bu prosesdə real durumu əks etdirən oyun qurulur (insan bilir ki, oyun oynayır) və oyun vasitəsilə hər hansı durumda insanın özünü necə aparması üçün lazımi keyfiyyətlərin formalaşdırılmasına yardım edilir. Ümumilikdə, oyun psixoterapiyasında psixoloji treninq həyata keçirilir.

***Psixoestetoterapiya** - insana edilən psixoloji təsirlər onun yaradıcılıq sferasından keçir. Yəni, bu terapiya zamanı hər kəsin yaradıcılığa olan meyli, mövqeyi, onu duyma qabiliyyəti, bu sahədə qabiliyyəti və s. nəzərə alınır və yaradıcılıq imkanlarından istifadə etməklə insana psixoloji təsir edilir. Yaradıcılıq dedikdə, daha çox incəsənət sahəsi nəzərdə tutulur. Elə buna görə də bu metodlar qrupuna *artterapiya* da deyilir. Daha çox musiqi, rəqs, rəsm çəkmək, kino terapiyası və s. istifadə oluna bilər. Son vaxtlar insana təsir edəcək daha yeni sahələr də müəyyənləşdirilir və onların istifadəsi təkmilləşdirilir, məsələn, nağıl terapiyası, biblioterapiya və s. Psixoesteto- terapiyamn metodları aktiv və passiv olmaqla iki qrupa ayrılır. Passiv metodlardan istifadə zamanı pasient dinləyici və ya izləyici

rolunda iştirak edir; incəsənət əsərinə baxmaqla, onu dinləməklə və ya izləməklə sakitləşir, emosional durumu stabilləşir. Aktiv psixoestetoterapiyada pasientin özü də hər hansı incəsənət əsərinin yaradılmasında iştirakçiya çevrilir; məsələn, şəkil çəkir, musiqi alətlərində ifa edir, şeir yazır, rəqs edir və s.

Narkopsixoterapiya **-** bu terapiya zamanı sözlü təsirlərin və farmakoloji vasitələrin qarşılıqlı təsiri nəticəsində tam olmayan narkoz halını yaratmaq mümkündür. Adətən bu metoddan kliniki praktikada daha çox istifadə edilir. Xüsusilə isterik hallardan, nevrozlardan, neyrosomatik pozuntulardan əziyyət çəkən xəstələrin müalicəsində istifadə olunur. Müalicə ambulator və stasionar şəraitlərdə aparıla bilər.

**** Bədən psixoterapiyası*** **-** bu terapiyanın əsas mahiyyəti psixika ilə fiziki bədən arasındakı əlaqəyə əsaslanır (məsələn, nəfəsi tənzimləyən hərəkətlər, massaj və digər idman hərəkətləri). Sübuta yetirilmiş faktlardandır ki, psixi pozuntular insanın fizioloji baxımdan xəstələnməsinə səbəb olur və əksinə də proseslər baş verir. Deməli, fiziki cəhətdən sağlam olmaq elə psixi cəhətdən sağlamlığı da təmin edir. Necə deyirlər: «sağlam bədəndə sağlam ruh
olar!». Elə bu prinsip də bədən psixoterapiyasının əsasını təşkil edir.

****Sosialpsixoterapiya*** **-** sosial tədbirlərin köməyindən istifadə etməklə həyata keçirilən psixoterapevtik təsirləri özündə əks etdirən üsullar məcmusudur. Sosial terapiyanın müxtəlif növləri məlumdur, məsələn, əmək terapiyası, məşğulluq terapiyası, ətraf mühit (gözəl təbiəti, gözəl tikilini, parkı və s. gəzmək, seyr etmək) terapiyası və s. Əsas mahiyyət ondan ibarətdir ki, sosial tədbirlərdə və ya ictimai mühitdə iştirakı təşkil etməklə pasienti aktiv sosial fəaliyyətə ruhlandırmaq və digər psixi qüsurların profilaktikasını həyata keçirmək olar.

****Krizis psixoterapiyası*** **-** krizis *(yun.-dan gözlənilməz problemlərlə müşahidə olunan çevriliş, keçid halı, dəyişiklik, dönüş mənasını verir; psixoloji krizis - davranış modelinin dəyişməsinə səbəb olan psixoloji gərginlik)* halı yaşayan insanlara tətbiq edilən psixoterapiyadır. Krizis insanın həyati məqsədlərinin blakirovkasma səbəb olan durumunu ifadə edir. Belə hahn yaşanmasına isə müxtəlif faktorlar səbəb ola bilər, məsələn, şəxsiyyətdaxili dəyişikliklər, həyatın yeni mərhələsinə keçid, inkişafla bağlı yeniliklər və s. Nəzərə ahnsa ki, hər kəs həyatında müxtəlif səpkili dəyişikliklər yaşamağa məcburdur, deməli hər kəsin həyatında krizisin yaşanması da qaçılmazdır. Bu səbəbdən də krizis psixoterapiyasının tətbiq dairəsi genişdir. Krizis psixoterapiyasının daha çox tətbiq olunduğu sahəyə ailə problemləri ilə bağlı yaranmış krizisləri, suisidal riskləri, müxtəlif səpkili sosial-

psixoloji dezadaptasiyalan misal göstərmək olar. Təbii ki, krizis psixoterapiyasına başlamazdan əvvəl problemi tam aydınlaşdırmaq, psixodiaq- nostik metodlardan istifadə etməklə düzgün diaqnoz qoymaq və pasientin fərdi-psixoloji xüsusiyyətləri nəzərə alınmaqla krizis terapiyasını həyata keçirmək lazımdır. Məsələn, ən təhlükəh krizis yaşantılarından hesab olunan suisid haqqında məlumatı nəzərdən keçirək.
Suisid (lat. *sui caedere* - özünü öldürmək, özünə- qəsd) - məqsədyönlü və şüurlu şəkildə öz həyatına son qoymaqdır.
Suisidin əsas səbəbləri:

1) *psixiatrik* (məsələn, narkotik və alkoqoldan asıhhq, depressiya, şizofreniya və s.);
2) *sosial* (məsələn, eqoistik - özünü öldürməklə ətrafını cəzalandırmaq; alturistik - sosial motivlər naminə özünü qurban vermək; dini, siyasi, hərbi səbəblər; sosial statusun qorunması - hər hansı təhlükəh təsirlərdən şərəf və ləyaqəti qorumaq naminə özünəqəsd; anomik - sosial və iqtisadi böhranların səbəb olduğu intiharlar və s.);
3) *psixoloji* (məsələn, şəxsi həyatın dözülməz olması, əziz adamın itkisi, zorakılığa məruz qalma, tənhahq, yaşamaq eşqinin itməsi, gələcəyə ümidsiz yanaşmaq, karyeradakı uğursuzluqlar və s.);
4) *bioloji və genetik* (beyində serotoninin azalması, nəsildə intihara meyllilik adətinin olması və s.);
5) *fiziki xəstəliklər* (xərçəng, immun çatışmazlığı, vərəm və s. sağalması çətin olan, eləcə də sağalmaz xəstəliklərə tutulma).

İntihara meylli insanların davranışı:

• ünsiyyətdən təcrid olunmaq, özünəqapanmaq;
• tənhalığa meyllənmək;
• ictimai hadisələrlə maraqlanmamaq;
• kədərli və üzüntülü gəzmək;
• geyimdə səliqəyə fikir verməmək;
• vida xarakterli sözlər söyləmək;
• sevdiyi əşyaları pay vermək

Krizis psixoterapiyasının prinsip və vəzifələri.

Ümumi psixoterapiyanın prinsip və vəzifələri ilə krizis psixoterapiyasının prinsip və vəzifələri arasında müəyyən fərq mövcuddur. Məsələn:
1. *Operativ (təcili) müdaxilənin* edilməsinin vacibliyi problemin kritik və həyati əhəmiyyət kəsb etmə səviyyəsi ilə düz mütənasiblik təşkil edir; operativ xarakterli psixoterapiyanın əsas məqsədi pasientə empatik dəstək nümayiş etdirməklə təcili şəkildə problemin müəyyən qədər yüngülləşdirilməsinə səbəb olacaq müdaxilə etməkdir;

2. Suisidlə bağlı düşüncələrin, həyəcanların yaranmasına səbəb faktorlann aşkarlanması ilə əlaqəli *köklənmə (məqsədgüdmə);* bu proses zamanı suisid riskinin yaşanmasına səbəb faktorları aşkarlayaraq onların aradan qaldırılması istiqamətində psixoterapevtik təsirlər edilir;

3. Pasient üçün aktual olan şəxsiyyətlərarası konfliktlərin həllinə yardım edəcək treninqləri təşkil etməklə sosial-psixoloji adaptasiya səviyyəsinin artırılmasına yardım etmək.
Krizispsixoterapiyasının mərhələləri.
Belə nəticəyə gəlinir ki, krizis psixoterapiyası üç mərhələni özündə cəmləşdirir:
• krizis zamanı psixoloji dəstək;
• krizisin aradan qaldırılmasına yardım edəcək müdaxilə;
• normal həyati proseslərə adaptasiya səviyyəsinin artırılmasına və baş verə biləcək hər hansı konfliktlərin həllinə yardım edəcək psixoterapevtik yardımın edilməsi.

Təbii ki, krizis psixoterapiyasına aid proqramlar pasi- entin fərdi-psixoloji xüsusiyyətlərinin kontekstində bir-birindən fərqlənmək zərurətindədir. Krizis psixoterapiyasının fərdi proqramı aşağıdakı mərhələləri özündə cəmləşdirir:

1) terapevtik kontaktın yaradılması;

2) suisid riskini yaradan gərginliyin aşkarlanması;

3) şəxsi müdafiəyə xidmət edəcək adaptasiya variantlarının mobilizasiyası;

4) psixoterapevtik müqavilənin bağlanması.

Krizis psixoterapiyası fərdi, ailə və qrup formasında keçirilə bilər. Fərdi psixoterapiya zamanı müxtəlif üsullardan istifadə edilə bilər, lakin əsas üsul pasienti kifayət qədər danışdıraraq ürəyinin boşaldılmasına nail olmaqdan ibarətdir. Heç bir halda onun sözünü kəsərək danışmasına maneə yaradan hala yol vermək olmaz. Hətta lazım olduqda psixoterapiya üçün müəyyənləşdirilmiş adəti (50 dəqiqə) vaxtdan da artıq müddət sərf edilə bilər (pasientin yorulduğu və psixoterapiyanı qəbul etməyə səbri çatdığı ana qədər). Orta hesabla görüşlər 4-5 dəfə davam edir. Zərurətdən asılı olaraq bu görüşlər arta və ya prosesin uğurundan asıh olaraq azala bilər. Psixoterapiyanın gedişatından və pasientin müsbət təsirləri qavrama səviyyəsindən asılı olaraq ona psixoterapiya xarakterli ev tapşırıqları da vermək olar. Krizis hallarının aradan qaldırılması məqsədilə çox zamanlar aksiopsixo-terapiyadan da istifadə edilir.

Aksiopsixoterapiya **-** reallığa adaptasiya məqsədilə pasientin dəyərləri qəbul etmə və qiymətləndirməsinə yönəldilmiş psixoterapevtik üsuldur. Adətən aksiopsixote-rapiyadan davramşda cəmiyyətin tələblərindən neqativ xarakterli kənara çıxma halları müşahidə edildikdə tətbiq edilir. Belə özünüaparma formasına deviant (lat. deviatio - kənara çıxma deməkdir) davranış deyilir. Deviant davranışa əsasən: qayda-qanuna zidd, asosial, delinkvent (xırda hüquqa zidd davranışlar, xırda xuliqanlıqlar, dava-dalaşa meyllilik və s.), autoaqressiv (suisid, özünücəza-landırma və s.), addiktiv (alkoqolizmə və narkomaniyaya, toksikomaniyaya meyllilik), əxlaqsız (seksual deviasiya) davranışlar aid edilir.

Aksiopsixoterapiyamn əsas vəzifələri:

1) həyati əhəmiyyət kəsb edən ümidlərin, arzuların itirilməsinə qarşı fiksasiyanı dayandırmaq;

2) frustrasiya və krizis hallarına düşməmək və ya belə hallardan daha tez çıxmaq məqsədilə pasientin şəxsi keyfiyyətlərinin inkişafına, təkmilləş-dirilməsinə yardım etmək;

3) aksiopsixoloji durumun korreksiyasını həyata keçirmək.

Mövzu 10. Psixoloji tədqiqat anlayışı və növləri

Plan:

1. Psixoloji tədqiqat anlayışı
2. Psixoloji tədqiqatın növləri
3. Psixoloji tədqiqatın proseduru

Ədəbiyyat:

37. Bayramov Ə.S., Əlizadə Ə.Ə.Psixologiya.Bakı, 2003

38. Qurbanova L.M. Eksperimental psixologiya. Bakı, 2014

39. Qurbanova L.M.Eksperimental psixologiyaya dair mühazirə mətnləri. B-Sum.Dərələyəz – M, 2010.

40. Əmrahlı L.Ş. Eksperimental psixologiya.Dərs vəsaiti Bakı, 2014

41. Quliyev E.M. Eksperimental psixologiya. Testlər.Tədris vəsaiti.ADPU-nun nəşri. Bakı, 2014.

Mövzu ilə bağlı elektorn resurslar

- http://portal.tpu.ru/departments/kafedra/iksu/ucheb_rabota/literatura/special/Tab/KonspPExp.pdf
- https://works.doklad.ru/view/-U6vUaXhZU4.html
- http://window.edu.ru/resource/438/18438/files/Mtdukm8.pdf

1.Psixoloji tədqiqat anlayışı.

Psixoloji tədqiqat - psixikaya malik canlıların psixoloji xarakteristikalarının təyininə və davranışlarındakı psixoloji qanunauyğunluqların aşkarlanmasına yönəlmiş elmi tədqiqat növüdür. Psixoloji tədqiqatın *məqsədi* elmi faktın əldə edilməsi istəyini doğuran sualdan qaynaqlamr. Psixoloji tədqiqatların məqsədi çoxdur. Nə qədər ki, psixoloji problemlərin tədqiqinə tələbat mövcuddur, o qədər də yeni-yeni məqsədlər yarana bilər. Hazırda isə psixoloji tədqiqatların əsas məqsədlərinə aid edilir:

• psixi hadisələrin xarakteristikalarını təyin etmək;

• psixi hadisələr arasındakı qarşıhqh əlaqəni aşkarlamaq;

• psixi hadisələrin inkişaf dinamikasım öyrənmək;

• psixi hadisələrə aid yeni fenomenləri aşkarlamaq və təsvir etmək;

• psixi hadisələrin yeni tərəflərini müəyyən etmək.

Psixoloji tədqiqatın *predmeti* dedikdə, hər hansı psixoloji əlaqənin aşkarlanması, psixi proseslərin dinamikasının təyini və digər tədqiqi tələb olunan cəhətlər, məsələlər nəzərdə tutulur. Predmet - tədqiq olunan əsas sahə mənasında işlənilir. Tədqiqatın predmeti ortaya çıxan problemli vəziyyətin, ziddiyyətlərin ortaya çıxardığı çatışmazlıqların aradan qaldırılmasına yönəlir. Elmi tədqiqatın əsas predmeti mövcud nəzəriyyə və konsepsiyalara münasibətin müəyyən edilməsi, yeni yanaşma prinsip və metodlarının əsaslandırılmasından ibarətdir. Psixoloji tədqiqatın *obyekti* dedikdə, subyektin praktik və dərkedici fəaliyyətinin real gerçəkliyi nəzərdə tutulur. Psixoloji tədqiqatların obyekti rolunda psixikaya malik bütün canlılar, qruplar çıxış edə bilər. Məsələn, «Məktəbəqədər yaşlıların məntiqi təfəkküründün formalaşması» mövzusunda tədqiqatın obyekti və predmetini müəyyən edək:
tədqiqatın predmeti: məktəbəqədər yaşlılarda məntiqi təfəkkürün formalaşması prosesi

tədqiqatın obyekti: məktəbəqədər yaşlılar (4-6 yaş).
Tədqiqatın obyekti onun predmetindən daha geniş anlayışdır. Məsələn: Tədqiqat obyekti kimi tədris prosesi götürülürsə, təlim metodları, vasitələri, prinsip və qaydaları tədqiqatın predmeti kimi qəbul edilir. Onun üçün obyekt və predmet anlayışlarını nisbi məvhumlar kimi qəbul etmək lazımdır. Elə metodun, prinsipin özü də obyekt funksiyasını yerinə yetirə bilər, əgər söhbət onların vasitə, qayda və tərzlərindən gedirsə
Tədqiqatda obyekt və predmet anlayışları mütləq elmi dəlillərlə sübut edilir, təcrübi materiallarla, arqumentlərlə əsaslandırılır, yeni yanaşmanın doğruluğu eksperimental yolla təsdiq edilir.

2.Psixoloji tədqiqatın növləri

Psixoloji tədqiqatların adətən üç növü fərqləndirilir (bu bölünmə şərti xarakter daşıyır):

I. *Nəzəri tədqiqatlar* - bu tədqiqatlardan əldə edilən nəticələr elmə məlum olan faktlara, vaxtilə irəli sürülmüş nəzəriyyə və fərziyyələrə əsaslanır. Nəzəri tədqiqatların əsas məqsədi - hər hansı psixoloji hadisələr barəsində ümumi məlumat əldə etməkdir. Nəzəri

tədqiqatlardan əldə edilən nəticələr əsasən *fərziyyə* (əsaslı elmi fakt kimi qəbul olunması üçün təcrübədə təsdiqinə ehtiyacı olan hər hansı hadisə ilə bağlı irəli sürülən elmi ehtimallar), *konsepsiya* (predmetlər haqqında müəyyən nöqteyi-nəzər; predmetin,

hadisənin, prosesin sistemli izahında rəhbər ideya), *nəzəriyyə* (yun. «teoria» - təsvir, tədqiqat deməkdir; müəyyən bir hadisənin şərhinə və izahına yönəldilmiş baxışlar, ideeyalar, təsəvvürlər kompleksi) səviyyəsində ola bilər. Dərs- üklərlə və elmi məqalələrlə iş, elmi diskussiyalar və məsləhətləşmələr, o cümlədən digər eksperimental olmayan modelləşdirmələr, təsnifatlar, sistemləşdirmələr nəzəri tədqiqatların aparıcı metodları hesab edilir.

II. *Empirik tədqiqatlar* - nəzəri araşdırmalardan əldə edilmiş nəticələri fakta çevirmək məqsədini daşıyır. Empirik tədqiqatlar nəticəsində əldə edilən biliklər öz elmliyi, həyatiliyini təsdiq edərcə, əldə edilən biliklər nəzəriyyə kimi də qəbul edilə bilər. Müşahidə, eksperiment, testləşdirmə, müsahibə, sorğu, modelləşdirmə empirik tədqiqatların aparıcı metodları hesab edilir. Empirik tədqiqat metodlarının köməyi ilə fakt, hadisə və proseslərin mahiyyətini dərindən öyrənmək, onların daxili strukturunu, məntiqi əlaqələrini, meydana gəlməsi və ya formalaşmasının səbəb və nəticələrini, qanunauyğunluqları və hərəkətverici qüvvələrini müəyyən etmək mümkün olur. Empirik tədqiqatlar nəzəri problemləri, qanunauyğunluqları və s. zənginləşdirir, inkişaf etdirirsə, nəzəri məsələlər empirik tədqiqatları istiqamətləndirir, yəni fikir söyləməyə, kəşflər etməyə şərait yaradır. Tədqiqatçı empirik və nəzəri tədqiqat metodlarından kompleks şəkildə istifadə edərsə, əldə edilən nəticələr elmi həqiqətləri əks etdirə bilər.

III. *Tətbiqi tədqiqatlar* - insamn həyati fəaliyyətinin konkret durumlarına aid praktik faktların, nəticələrin əldə olunması məqsədini daşıyır. Tətbiqi tədqiqatlardan (məsələn, iqtisadi, siyasi, təşkilati, psixoloji, tibbi, pedaqoji, hərbi baxımdan) lazımi təminatın əldə olunması məqsədilə istifadə edilə bilər.

3. Psixoloji tədqiqatın proseduru.
Tədqiqatın proseduru aşağıdakı tərkibdən ibarətdir:

• tədqiqat üçün problemin aktualhq səviyyəsini təyin etmək;

• tədqiqatın obyektini, predmetini, məqsədini, vəzifələrini müəyyən etmək;

• problem haqqında ilkin məlumat toplamaq üçün mövcud ədəbiyyatları araşdırmaq və nəzəri məlumatlardakı boşluqları müəyyən etmək;

• tədqiqatın aparıcı konsepsiyasım işləmək və fərziyyələr irəli sürmək;

• tədqiqatın gedişatım planlaşdırmaq (məsələn, mərhələləri, tədqiq olunanları, metodları və s. dəqiqləşdirmək);

• tədqiqatı həyata keçirmək;

• tədqiqatın gedişatından əldə olunmuş göstəricilərdə riyazi-statistik əməliyyatların köməyilə ümumiləşdir- mələr və sistemləşdirmələr aparmaq;

• nəticələrin fərziyyələrə uyğunluğunu yoxlamaq və interpretasiyasını həyata keçirmək;

• yekun qənaəti formalaşdırmaq və onun tətbiq dairəsini müəyyən etmək: lazımi tövsiyələr işləmək, eləcə də tədqiqatdan əldə olunanların faydalılıqla bağlı digər perspektivlərini müəyyənləşdirmək;

• tədqiqat haqqındakı məlumatları elmi ictimaiyyətin müzakirəsinə təqdim etmək.

Mövzu 12. Eksperimental tədqiqatın prosedur tələbləri

Plan:

1.Tədqiqatların etik tələbləri
2.Tədqiqatçı ilə tədqiq olunan arasındakı münasibətin formalaşma mərhələləri.
3.Tədqiqata cəlb etmə formları

Ədəbiyyat:

42. Bayramov Ə.S., Əlizadə Ə.Ə.Psixologiya.Bakı, 2003

43. Qurbanova L.M. Eksperimental psixologiya. Bakı, 2014

44. Qurbanova L.M.Eksperimental psixologiyaya dair mühazirə mətnləri. B-Sum.Dərələyəz –M, 2010.

45. Əmrahlı L.Ş. Eksperimental psixologiya.Dərs vəsaiti Bakı, 2014

46. Quliyev E.M. Eksperimental psixologiya. Testlər.Tədris vəsaiti.ADPU-nun nəşri. Bakı, 2014.

Mövzu ilə bağlı elektorn resurslar

- http://portal.tpu.ru/departments/kafedra/iksu/ucheb_rabota/literatura/special/Tab/KonspPExp.pdf
- https://works.doklad.ru/view/-U6vUaXhZU4.html
- http://window.edu.ru/resource/438/18438/files/Mtdukm8.pdf

1.Tədqiqatların etik tələbləri

Etika (yun,- əxlaq) - mənəvi davranış qaydalarını təmin edən prinsiplər sistemidir. Hər bir sahədə olduğu kimi psixoloji tədqiqatların da etik öhdəlikləri mövcuddur. Bu öhdəliklər tədqiqatda iştirak edənlərin ləyaqətinə hörmət və mənəvi rifahımn təmininə köklənmişdir.

İnsan üzərində aparılan tədqiqatların etik prinsipləri:

1. Planlaşdırma zamanı tədqiqatın gedişatında etik normalara riayət olunmasının mümkünlük səviyyəsini proqnozlaşdırmağa görə tədqiqatçı məsuliyyət daşıyır.
2. Tədqiqatçı tədqiqata cəlb olunanla rəftarında dürüst və səmimi olmalıdır.
3. Tədqiqat prosesindən öncə tədqiqatçı ilə tədqiq olunanın rəftarına dair qaydaları, vəzifələri əks etdirən sənəd hər iki tərəfin iştirakı ilə tərtib edilməli, razılaşdırılmalı və imzalanmalıdır. Tədqiqatçı öz vəzifələrini, vədlərini yerinə yetirməyə görə məsuliyyət daşıyır.

4. Tədqiqatçı tədqiqat prosesi haqqında tədqiqata cəlb olunanlara ətraflı məlumat verməli və yaranmış sualları cavablandırmağa borcludur.

5. Tədqiqata cəlb olunanın istədiyi vaxt tədqiqatı dayandırmaq və iştirakdan imtina etmək hüququ mövcuddur və tədqiqatçı tərəfindən bu proses qəbul olunmalıdır (hər hansı təzyiqin göstərilməsi yolverilməzdir).
6. Tədqiqat zamanı etik normalara riayət olunmasını nəzarətdə saxlamağa tədqiqatçı məsuliyyət daşıyır (bu prosesdə tədqiqatçı köməkçilərinin etik prinsiplərə riayət etmələrinə görə də məsuliyyət daşıyır).
7. Tədqiqatçı tədqiq olunanları hər hansı mənəvi əziyyət, zərər və təhlükədən qorumağa borcludur. Əgər bu səpkidə təhlükə riski mövcuddursa, tədqiqatçı bu risk barəsində tədqiqata cəlb olunanları öncədən məlumatlandırmalı və riskin qarşısının alınmasına görə zəruri tədbirlər görməkdir.
8. Tədqiqatın etikası tələb edir ki, nəticələr barəsində tədqiqatçı tədqiq olunanlara məlumat versin. Əgər nəticələrdə tədqiq olunanların şərəf və ləyaqətinin alçaldılmasına təsir edəcək məqamlar aşkarlanarsa tədqiqatçı onu aradan qaldırılmalıdır.
9. Tədqiqata cəlb olunanlar haqqındakı hər hansı məlumat gizli saxlanılmalıdır (anonimlik, məxfilik tam təmin olunmalıdır). Əgər bu məlumatların yayılması riski olarsa, əvvəlcədən bu haqda tədqiqat iştirakçıları məlumatlandırılmalıdır.

Tədqiqat prosesində yolverilməz hallar:

• başqalarının elmi fikirlərini, kəşflərini, qənaətlərini özününküləşdirməyə yönəlmiş plagiat *(lat. plagium* - oğurlamaq) halları;

• əldə olunan nəticələrin elmi ictimaiyyətdən gizlədilməsi;

• tədqiqat prosesində qəddarhq hallarına yol vermək;

• saxtakarhq.

2.Tədqiqatçı ilə tədqiq olunan arasındakı münasibətin formalaşma mərhələləri.

Psixoloji tədqiqatların həyata keçirilməsi səviyyəsi tədqiqatçının tədqiq olunanla qurduğu münasibətin keyfiyyət səviyyəsi ilə analoji əlaqədədir. Tədqiqatçı ilə tədqiq olunan arasındakı əlaqənin formalaşması əsasən üç mərhələdə baş verir: 1) **tədqiqat öncəki əlaqə; 2) tədqiqat zamanı baş verən əlaqə; 3) tədqiqatdan sonrakı münasibət.**

Tədqiqat öncəki əlaqə.

Tədqiqata başlamazdan əvvəl tədqiqatçı tədqiq olunan kontingenti müəyyən edir və onları əməkdaşlığa dəvət edir, daha sonra tədqiqata cəlb olunanlarla müvafiq təbliğat və təlimat xarakterli söhbətlər aparır, bununla da onları tədqiqata hazırlayır. Psixoloji tədqiqatların sonrakı mərhələləri bu söhbətin nəticəsindən birbaşa asılıdır. Bu mərhələdə tədqiqatçıdan ünsiyyətçillik, kommunikativlik, mədəni davranış, erudisiya, inandırmaq, səmimilik və maraqlandırmaq bacarığı və bu kimi digər keyfiyyətlərin olması tələb olunur. Bütün bu keyfiyyətlərlə yanaşı,onda empatik qabiliyyətin olması da zəruridir. Tədqiq olunan şəxs tədqiqatçıya etibar etmirsə tədqiqat zamanı sualları səmimi cavablandırmayacaq. Bundan əlavə, əgər o, özünə qarşı xoşagəlməz münasibəti hiss edərsə eksperimentatoru cəzalandırmaq baxımından suallara tamamilə cavab verməyə də bilər. Ona görə də tədqiqatçı tədqiq olunanın etibarını qazanmalıdır, özünə insanları cəlb etməyi bacarmalı və onların cavablarında səmimiyyətə nail olmalıdır, tədqiqata cəlb olunanlarla mehriban və səmimi münasibət qurmalıdır. Tədqiqatçı barəsində yaranmış rəy, tədqiq olunanın ona olan münasibəti tədqiqatın sonrakı gedişa- tına əhəmiyyətli təsir göstərir. Tədqiqatçının emosional durumunun stabilliyi olduqca mühüm şərtdir, əgər tədqiqatçı tədqiqata cəlb olunanların hər hansı razılaşdırılmamış davranışına görə əsəbiləşirsə (bəzən belə münasibət hətta düşmənçilik mövqeyinə də çevrilə bilər), onda qeydə alınmış nəticənin obyektivliyi və dəqiqliyindən söhbət gedə bilməz.

3.Tədqiqata cəlbetmə formaları

Tədqiqata cəlb edilmənin *iki forması* mövcuddur:

1. ***Könüllü cəlbetmələr*** zamanı insanların təcrübəyə qoşulmaları öz istəklərinə əsasən baş verir. Könüllülük meyarı motivasiya səviyyəsinə təsir edir: bu meyar daxili əlavə dəyişən rolunda çıxış edir və eksperimentin daha uğurlu həyata keçirilməsini şərtləndirir. Əgər tədqiqata cəlb olunacaq insanın tədqiqatla bağlı motivasiyası yoxdursa, onda onun xidmətindən istifadə etmək olmaz. Bəzən tədqiqata cəlb olunanlarda müəyyən motivlər formalaşdırmaq üçün onlara müxtəlif mükafatlar (məsələn, pul, hədiyyələr və s.) təqdim etmək lazımdır. Təəssüflər olsun

ki, elmə xidmət məqsədli motivlərin formalaşması çox az müşahidə olunan hallardandır. Lakin onu da nəzərə almaq lazımdır ki, çox hallarda tədqiqata cəlb olunanlar mükafat xatirinə tədqiqatçıya xoş olmaq məqsədilə yalandan rol da oynaya bilərlər. Ona görə də bütün incəliklər nəzarətdə saxlanılmalıdır.

2. ***Məcburi cəlbetmələr*** zamanı təcrübəyə cəlb olunanlar hər hansı tələbatı ödəmək xatirinə tədqiqat prosesində iştirak edirlər. Adətən belə eksperimentlər hər hansı təşkilatlar və ya müəssisələrin qruplarında (məsələn, sənaye, hərbi və təhsil müəssisələri və s.) aparılır. Əsasən daha çox psixoloji fakültələrdə təhsil alan tələbələr psixoloji tədqiqatlarda iştirak edir (onlar həm könüllü, həm
də məcburi cəlb olunanlar hesab edilə bilər). Tədqiqata cəlb olunanların anonimliyi onların istəyinə müvafiq gözlənilməlidir və ya əksinə... Bəzi tədqiqatlarda, məsələn, formalaşdırıcı eksperimentdə eksperimentator eksperimentə cəlb olunanın gözündə tədqiqatçıdan daha çox onu öyrədən, tərbiyə edən müəllim rolunda çıxış edir, tədqiq olunan insan özünü tədqiqata cəlb olunan kimi də hiss etmir (əslində bu onun prosesi tam dərk etməməsi ilə əlaqədardır), bu zaman eksperimentator onun formalaş-dınlmasım məcburi yolla aparırsa, digər tərəfdən o, istər-istəməz bir könüllüyə də çevrilir.

Tədqiqatçılar əksər hallarda öz təxəyyülündə ideal tədqiq olunan obrazı yaradır və reallıqda elə bu obrazın axtarışını həyata keçirirlər. İdeal tədqiq olunan şəxsdə əsasən növbəti keyfiyyətlərin olması arzulanır: mehribanlıq, səmimiyyət, neqativizmdən uzaq, sözəbaxan, dostyana münasibət. Yaxşı olardı ki, tədqiqatçılar ona lazım olacaq tədqiq olunanların keyfiyyətlərini elə təsəvvür etsinlər ki, bu keyfiyyətləri reallıqda axtarmaq onlara çətinlik yaratmasın.

Tədqiqat zamanı baş veran alaqə.

Tədqiqat zamanı tədqiq olunanla tədqiqatçının şəxsi münasibətləri arxa plana keçir, onlar arasında ancaq tədqiqata müvafiq əlaqə yaranır (qətiyyən hər hansı şəxsi münasibətlərin yaranmasına yol vermək olmaz). Tədqiqat prosesinin gedişi zamanı tədqiqatçı hər bir halı nəzarətdə saxlamalı, baş verəcək hadisələri müvafiq çərçivəyə salmalı və durumu idarə etməyi bacarmalıdır:

• tədqiqatçının tətbiq etdiyi tədqiqat metodlarnı və onların tətbiq şərtlərini olduqca dərindən bilməsi tələb olunur; tədqiqatçı bilməlidir ki, hər hansı metodu praktikaya tətbiq etməmişdən öncə onu tam mənasında mənimsəməli və bunun üçün həftələrlə və hətta aylarla gərgin işlər tələb oluna bilər;

• metodların elmiliyini şərtləndirən əsas tələblər (va- lidlik, dəqiqlik, mötəbərlik, reprezentativlik) yoxlanılmalıdır; əgər bu proses yerinə yetirilməyibsə, onda nəticələrin etibarlılığı şübhə doğuracaq;

• seçilmiş metodun praktikada icra edilməsi bacardıqca asan olmalıdır; seçilmiş metod təkcə psixoloq üçün deyil, həm də tədqiq olunacaq insan üçün də aydın və başa düşüləcək səviyyədə olmalıdır, nəzərə almaq lazımdır ki, praktikada hər hansı metodun tətbiqi ilə bağlı tədqiq olunacaq insandan da fiziki və psixoloji enerji tələb olunur;

• metodların təlimatları kifayət qədər aydın olmalıdır, hətta o dərəcədə ki, əlavə izahatlara ehtiyac qalmasın; təlimat tədqiq olunanı səmimiyyətə elə kökləməlidir ki, onda qeyri-səmimi məlumatların verilməsinə motiv formalaşmasın, məsələn, bəzi məsələlərlə bağlı qıcıqlandırıcı suallar qoyulmamalıdır;

• tədqiqatın aparılması zamanı elə şərait seçilməlidir ki, tədqiq olunanın fikri kənardan təsir edən qıcıq-landırıcılara yönəlməsin və ya ətrafda onu işdən yayındıracaq, diqqəti dağıdacaq müdaxilələr olmamalıdır.

Tədqiqatdan sonrakı münasibət.

Tədqiqat başa çatdıqdan sonra tədqiqatçı ilə tədqiq olunan arasındakı əlaqə tamamilə bitməməlidir. Tədqiqatçı etik qaydalara uyğun olaraq tədqiqatda iştirak edənlərə təşəkkür etməlidir, bu hal iştirakçılarda həm tədqiqatçıya, həm də elmə hörməti formalaşdırır; psixoloqun etik normalara əməl etməsi iştirakçıları gələcək təd
qiqatlarda iştiraka həvəsləndirə bilər. Lazım gəldikdə tədqiqatın nəticələri barədə iştirakçıya məlumat da vermək olar, əgər tədqiqat zamanı nümayiş etdirdiyi davranışı onu məyus edərsə, dərhal bu halın aradan qaldırılmasında ona yardım etmək lazımdır. Tədqiqatçı iştirakçının istəyinə müvafiq olaraq tədqiqatda iştirakına dair anonimliyini də saxlamalıdır. Hər vəchlə tədqiqatçı çalışmalıdır ki, iştirakçı prosesdən və ondan razı qalsın, çünki gələcəkdə də həmin iştirakçının faliyyətinə dair məlumatlar lazım ola bilər. Ümumiyyətlə, tədqiqatçı elmə xidmət etdiyini unutmamalıdır və elm nəyi tələb edirsə, ona uyğun hərəkət etməyi bacarmalıdır.

Mövzu 13. Psixoloji tədqiqatın mərhələləri

Plan:

1. Psixoloji tədqiqatın mərhələləri
2. Psixoloji tədqiqatın hazırlıq mərhələsi
3. Problemin qoyuluşu, fərziyyənin irəli sürülməsi və tədqiqatın planlaşdırılması
4. Psixoloji tədqiqatın əsas mərhələsi haqqında ümumi məlumat
5. Tədqiqat protokollarının tərtibatı haqqında

Ədəbiyyat:

47. Bayramov Ə.S., Əlizadə Ə.Ə.Psixologiya.Bakı, 2003
48. Qurbanova L.M. Eksperimental psixologiya. Bakı, 2014
49. Qurbanova L.M.Eksperimental psixologiyaya dair mühazirə mətnləri. B-Sum.Dərələyəz –M, 2010.
50. Əmrahlı L.Ş. Eksperimental psixologiya.Dərs vəsaiti Bakı, 2014
51. Quliyev E.M. Eksperimental psixologiya. Testlər.Tədris vəsaiti.ADPU-nun nəşri. Bakı, 2014.

Mövzu ilə bağlı elektorn resurslar

- http://flogiston.ru/library/piazhe1

https://studme.org/195413/psihologiya/konstruktivnost_motivatsii

I Psixoloji tədqiqatın mərhələləri;

Tədqiqatların elmi və praktik əlaqəsinin olması zəruri şərtlərdəndir. Əgər hər hansı araşdırmalar zamanı elm praktikaya nəzarət edirsə və ya praktika elmə əsaslanırsa, o zaman aparılmış tədqiqatlar əsash (fundamental) hesab edilir. İstənilən elmi tədqiqatlar (o cümlədən psixoloji tədqiqatlar) əsasən üç mərhələdə aparıhr: 1) hazırlıq; 2) əsas; 3) nəticə

1. Psixoloji tədqiqatın hazırlıq mərhələsi tərkibinə problemin qoyuluşu,fərziyyənin irəli sürülməsi, tədqiqatın planlaşdırılması və elmi uyğunluğun yoxlanılması daxildir.

2. Psixoloji tədqiqatın əsas mərhələsi

Psixoloji tədqiqatın əsas mərhələsində müvafiq elmi faktlara, dəlil və sübutlara əsas verəcək məlumatların əldə olunması (toplanması) prosesi həyata keçirilir. Bu mərhələdə tədqiq olunan obyektlə tədqiqatçı arasında mövcud olan əlaqə nəticəsində (tədqiqatçı tədqiq edilən obyektə nəzərdə tutulmuş plan üzrə müəyyən eksperimental metodlarla təsir edir) tədqiq olunan obyekt haqqında lazımi məlumatlar əldə edilir, onu xarakterizə edən keyfiyyətlər təyin edilir.

3.Psixoloji tədqiqatın yekun mərhələsi

Psixoloji tədqiqatın **yekun mərhələsinə** eksperimental göstəricilərin işlənilməsi;tədqiqatın gedişatından əldə olunan məlumatların interpretasiyası; tədqiqatın nəticələrinin elmi biliklər sisteminə daxil edilməsi.

II. Psixoloji tədqiqatın hazırlıq mərhələsi

Psixoloji tədqiqatın *hazırlıq mərhələsi* aşağıdakı tərkibdən ibarətdir:

• problemin qoyuluşu;

• fərziyyənin irəli sürülməsi;

• tədqiqatın planlaşdırılması.

elmi uyğunluğun yoxlanılması

****Problemin qoyuluşu***. *Problem* (yun. problema - məsələ deməkdir) - həlli tələb olunan nəzəriyyəyə və ya faktlara əsaslanan sualdır. Problemin qoyuluşu bir neçə ardıcıllığı özündə əks etdirir:

• məlumat qıtlığının aşkarlanması;

• aşkarlanmış qıtlığın aradan qaldırılması istiqamətində tələbatın yaranması;

• problemli durumun təsvir edilməsi;

• problemin elmi terminlərlə ifadə edilməsi.

Problemin qoyuluşu tədqiqatın obyekt və mövzusu ilə əlaqəli həyata keçirilməlidir. Obyekt dedikdə, tədqiq olunmaq üçün seçilmiş real aləmin bir hissəsi başa düşülür. Tədqiqatın mövzusu isə seçilmiş obyektin öyrənilməsi aspektini müəyyənləşdirir və bununla da tədqiqatın digər tədqiqatlardan fərqlənməsini təmin edir. Psixologiyanın tədqiqat obyekti - insan, sosial qruplar, heyvanlar ola bilər. Psixologiyanın predmeti rolunda isə, ümumilikdə psixika və ya onun ayrı-ayrı tərəfləri çıxış edir. Ümumiyyətlə, insanı fərd, şəxsiyyət, fərdiyyət kimi xarakterizə etməyə imkan verən psixi xüsusiyyətlər, proseslər, hallar ya ayrı-ayrılıqda, ya da vəhdətdə psixoloji tədqiqatların predmeti ola bilər.

***Fərziyyənin irəli sürülməsi**. *Fərziyyə* - real təzahürlərin mahiyyəti barədə elmi baxımdan əsaslanmış ehtimal xarakterli fikirlərdir. Məntiqi yanaşılmaya əsaslanan inkişafına görə fərziyyələr induktiv (xüsusidən ümumiyə doğru yönəlmiş istiqamət) və deduktiv (ümumidən xüsusiyə doğru yönəlmiş istiqamət) xarakterli ola bilər. Fərziyyənin irəli sürülməsində *əsas məqsəd* - tədqiqatın gedişatından əldə olunacaq nəticənin surətini öncədən canlandırmaqdır.

Prosesin gedişatından əldə olunacaq nəticənin öncədən canlandırılması (təsvir edilməsi) sonrakı mərhələlərin düşünülməsi, planlaşdırılması və tətbiqi prosesində baş verəcək səhvlərin aradan qaldırılmasını asanlaşdırır və ya onların qarşısının vaxtında alınmasına imkan verir. Psixoloji tədqiqatlar zamanı irəli sürülən fərziyyələr aşağıdakı köməkçi məqsədləri də daşıya bilər:

• əldə olunacaq faktı (fenomeni) təsvir etmək;

• psixi hadisələrin xarakteristikasım müəyyənləşdirmək;

• psixi hadisələr arasındakı əlaqəni aşkara çıxarmaq;

• inkişafın genetik dinamikasım öyrənmək (dinamika həm ontogenetik, həm də filogenetik ola bilər);

• ümumiləşdirmələr - abstrakt düşüncələrə əsaslanan psixoloji hadisələrin mahiyyətini aydınlaşdırmaq məqsədini daşıyır;

• sistemləşdirmə - tədqiqatın gedişatından əldə olunacaq bilgilərin yerbəyer edilməsi məqsədini daşıyır; sistemləşdirmə növbəti istiqamətdə aparıla bilər: təsnifatlaşdırma, tiplərə və periodlara ayırma;

• tədqiqatın üsul və metodlarının işlənilməsi və reallaşdırılması prosesini abstrakt təsvir etmək.

Fərziyyələrin məqsədləri dəqiqləşdirildikdən soma həll olunacaq vəzifələr müəyyənləşdirilir. Vəzifələrin işlənilməsi fərziyyənin irəli sürülməsi prosesinin II mərhələsi hesab edilir. Vəzifələrin işlənilməsi dedikdə, tədqiqatın məqsədini təmin edəcək yolların seçilməsi prosesi başa düşülür. Vəzifələr bir neçə təsvir olunmuş problemli durumların həlli planı kimi də tərtib oluna bilər. İşçi fərziyyənin statistik baxımdan nə dərəcədə həqiqətə uyğun gəlməsi adətən eksperimental tədqiqatlarla yoxlanılır. Bəzən isə, fərziyyələr reallığın əksi istiqamətində irəli sürülür. Reallığın əksini ehtimal edən fərziyyələr, yəni hər hansı psixi hadisələr arasındakı fərqin varlığını inkar edən və ya sübutu mümkün olmayan fərziyyələr «əhəmiyyətsiz fərziyyə» və ya «reallığı sıfra bərabər (qısaldılmış formada «sıfır-fərziyyə») fərziyyə» adı ilə tanınır. Reallığa uyğun gəlməyən sıfır-fərziyyələr qəbul edilmədiyinə görə onların yerinə alternativ fərziyyələr işlənilir. Bu prosesi aşağıdakı misalda aydınlaşdıraq.

Misal. Məlumdur ki, yeniyetmə qızlar fiziki cəhətdən öz həmyaşıdları olan oğlanlarla müqayisədə daha inkişaf etmiş görünürlər. Burada belə bir fərziyyə irəli sürülə bilər: qızların inkişafı daha qısa müddətdə baş verir, oğlanların inkişafı isə qızlarla nisbətdə daha uzun müddətli olur. Bu fərziyyəni praktikada sübuta yetirmək mümkün deyil, çünki bütün oğlan və qızları bir yerə yığmaq, onların inkişafı üçün eyni şərait yaratmaq və daha sonra onların inkişafını illərlə izləmək qeyri- mümkün olan bir tədqiqat prosesidir. Lakin bu fərziyyəyə alternativ olacaq fərziyyənin düzgün olmadığını sübuta yetirmək olar. Onda sıfır-fərziyyə belə ola bilər: qızlar ilə oğlanların inkişaf müddətləri arasında heç bir fərq yoxdur və ya onların inkişaf müddətləri arasındakı fərq sıfra bərabərdir. Sıfır-fərziyyə qəbul olunmadığından onun əksini sübuta yetirmək asanlaşır. Beləliklə, tədqiqat prosesinə təsadüfi seçilmiş tədqiq olunanlar cəlb edilməklə (bu prosesdə reprezentativlik şərti gözlənilməlidir) sübuta yetirilə bilər ki, qızların inkişaf müddəti oğlanlarla müqayisədə qısadır.

****Tədqiqatın planlaşdırılması***. Bu mərhələdə təşkilati və maliyyə məsələləri həll edilməklə tədqiqata aid bütün proses düşünülür; tədqiqatın gedişatım özündə əks

etdirəcək ardıcıllıq planlaşdırılır; tədqiq olunacaq kontingent və respondentlər müəyyənləşdirilir, stimullaşdırıcı variantlar işlənilir. Bu mərhələni digər mərhələlərdən fərqləndirən əsas cəhət - ümumilikdə tədqiqat prosesinin planlaşdırılmasıdır. Göstəricilərin əldə olunması, işlənilməsi, nəticələrin interpretasiyası da planlaşdırılmanın tərkib hissəsinə daxil olur. Bəzən elə də olur ki, empirik təcrübənin gedi- şatının hər hansı mərhələsində müəyyən göstəricilərin əldə olunması tələb olunur və əldə olunmuş göstəricilərin işlənilməsi prosesi sonrakı gedişatı dəyişə də bilir. Göstəricilərin əldə olunması zamanı tədqiqatçıda yeni fərziyyə də formalaşa və bu fərziyyələr sonrakı gedişatın korrektə edilməsini də tələb edə bilər. Son vaxtlar *çevik planlaşdırma* əməliyyatları dəbə düşmüşdür və bu hal planlaşdırma prosesinə hesablama texnikasının tətbiq edilməsi ilə əlaqədardır, məsələn, EHM-in planlaşdırma prosesinə tətbiqi tədqiqatçının işini xeyli asanlaşdırır, belə ki, hər bir atılmış addımdan sonra texnikanın köməkliyilə sonrakı gedişatı təsvir etmək mümkün olur. Nəticədə planlaşdırma prosesinin daha dəqiq və çevik həyata keçirilməsinə şərait yaranır.

Vaxtın qənaət edilməsi, əmək sərfinin azaldılması eksperimental prosesin daha inamla və həvəslə aparılmasını təmin edir, əldə olunacaq nəticələrin etibarlılıq səviyyəsini artırır və hətta yeni-yeni fərziyyələr formalaşdırmaqla daha yüksək nailiyyətlərin əldə olunması istiqamətində tədqiqat prosesinin inkişafına səbəb olur.

Hər hansı bir tədqiqat necə həyata keçirilir? Konkret olaraq tədqiqatın strukturu yaradılmalıdır. Əks halda əldə olunan nəticələr mənfi olar. Konkret psixoloji tədqiqat metodikasında 4 mərhələni fərqləndirmək olar:

- Fərziyyənin irəli sürülməsi — bu mərhələdə hər hansı bir qrupda və ya fərdi şəxslərdə müəyyən psixoloji problemləri öyrənmək üçün fərziyyə irəli sürülür. Fərziyyə əsasən empirik faktlara əsaslanmalıdır.
- Fərziyyənin yoxlanması mərhələsi — bu mərhələdə artıq əldə olunmuş faktlar təsdiq üçün eksperimental proseduraya keçirilir. Bu zaman nəzəriyyə deyil, praktika ön plana keçir.
- Nəticələrin işlənilməsi mərhələsi. Bu mərhələdə əldə edilmiş faktlar kəmiyyət və keyfiyyət baxımından təhlil edilir.
- Bu mərhələdə isə materiallar psixoloji nəzəriyyə əsasında şərh edilir və fərziyyənin düzgünlüyü və ya səhv olması aydınlaşdırılır.

Psixoloji tədqiqatın əsas mərhələsi haqqında ümumi məlumat.

Psixoloji tədqiqatın əsas mərhələsində müvafiq elmi faktlara, dəlil və sübutlara əsas verəcək məlumatların əldə olunması (toplanması) prosesi həyata keçirilir. Bu mərhələdə tədqiq olunan obyektlə tədqiqatçı arasında mövcud olan əlaqə nəticəsində (tədqiqatçı tədqiq edilən obyektə nəzərdə tutulmuş plan üzrə müəyyən eksperimental metodlarla təsir edir) tədqiq olunan obyekt haqqında lazımi məlumatlar əldə edilir, onu xarakterizə edən keyfiyyətlər təyin edilir. Əldə olunan məlumatlar işçi fərziyyənin yoxlanılması prosesinə imkan yaradır. Tədqiqatın mövzusundan və vəzifəsindən asılı olaraq tədqiq olunan obyektə aid əldə edilən məlumatlar müxtəlif səpkili ola bilər, məsələn, obyektin ayrı-ayrı hissələri arasındakı əlaqə, onun mövcud durumuna səbəb olan faktorlardan asılılığı haqqında və s. məlumatlar. Tədqiq olunan obyektlə bağlı əldə olunan məlumatlar «ilkin məlumatlar» adı altında qeydiyyata alınır. Təhlillərin, düşüncələrin, qərarların, şərhlərin aparılması prosesi əldə olunan ilkin məlumatlardan birbaşa asılıdır.

Əsas mərhələdə əldə olunan malumatlann təsnifatı.

Əldə olunan ilkin məlumatları müxtəlif əsaslara görə təsnif etmək olar:

* ***elmi əsaslarına görə:***

• *elmi məlumatlar* - elmi yollarla əldə olunan, elmi əsaslara söykənən, elmi baxımdan yoxlanılması mümkün olan, nəzəri cəhətdən əsaslandırılmış, elmi bilgilər sisteminə daxil edilən məlumatlardır;

• *aevri-elmi (elmi olmayan)* - qeyri-elmi yollarla, məsələn, güzəran təcrübəsi, adət-ənənələr, milli- mənəvi dəyərlər və s. belə səpkili mənbələrdən əldə edilən məlumatlardır; belə məlumatların nəzəri cəhətdən əsaslandırılması da mümkün olmur, onlar əsasən subyektiv xarakter daşıyır;

* ***problemin həll edilməsində və fərziyyənin yoxlaml- masındakı roluna görə:***

• *həlledici məlumatlar* - bu məlumatlar irəli sürülən fərziyyənin təsdiq və ya inkar edilməsində aparıcı rol oynayır;

• *əhəmiyyətli məlumatlar* - bu məlumatlar qarşıya qoyulmuş problemin həllində əhəmiyyətli rol oynayır, lakin digər məlumatların köməyi olmadan problemin lazımi səviyyədə həll edilməsinə kifayət etmir;

• *əhəmiyyətsiz məlumatlar* - məsələnin həllində çox az rol oynayan məlumatlardır;

* ***məlumat mənbələrinin xarakterinə yə sahəsinə görə***
(belə məlumatlar uyğun profilli (istiqamətli) elmlərdən (əsasən ictimai elmlər) əldə olunan məlumatlardır)'.

• sosioloji məlumatlar

• psixoloji məlumatlar

• pedaqoji məlumatlar

• fizioloji məlumatlar və s.

* ***tədqiqatın metodlarına görə*** *(belə məlumatlar bu yə ya digər empirik metodların köməyilə əldə olunmuş məlumatlardır):*

• müşahidə məlumatları

• sorğu məlumatları

• eksperimental məlumatlar və s.

^***metodların mənbələrlə əlaqəsinə görə*** *(bu qruplaşdırma XX əsrin ortalarında Amerika psixoloqu R.B.Kettel tərəfindən təqdim olunmuşdur):*

• *L-məlumatları (life data)* - real həyata aid faktorların qeydiyyata alınması üsulu ilə əldə olunmuş məlumatlardır, adətən belə məlumatlar təbii müşahidə nəticəsində əldə edilir və tədqiqatın sonrakı gedişa- tında əhəmiyyətli rol oynayır;

• *O-məlumatları (questionnaire* t/aZaJ müxtəlif anketlər, özünüqiymətləndirməni əks etdirən metodlar; psixia- torlar, psixoloqlar, müəllimlər və b.-mn fərdi üslubuna və təcrübəsinə əsaslanın metodlarla əldə olunan məlumatlardır; belə məlumatların əldə olunması me-todlan içərisində daha populyar olanı şəxsiyyəti xarakterizə edən

keyfiyyətləri tədqiq etmək üçün istifadə edilən sorğulardır (məsələn, Ayzenkin sorğuları, Kettelin «16-şəxsiyyət faktorları» adlı sorğusu və s.);

• *T-məlumatları (test data)* - obyektiv testlər və fizioloji ölçmələrin köməyilə əldə olunan məlumatlardır;

**məlumat yericiliyinə görə:*

• ***qeyri-metrik məlumatlar*** *(ölçmələrsiz əldə olunan məlumatlar):*

a) *keyfiyyət xarakterli məlumatlar* - bu məlumatlara əsasən tədqiq olunan obyekti hər-hansı oxşar obyektlər sinfinə aid etmək olar; bu məlumatlarda tədqiq olunan obyektə xas əlamətlər əks olunur; müvafiq keyfiyyətlərin müqayisəsindən ortaq xarakterik cizgilərinə görə müxtəlif qruplaşmalar da tərtib etmək olar, məsələn, 1) mavi, yaşıl, qırmızı və s., 2) kişi, qadın, 3) xolerik, sanqvinik, fleqmatik, melanxolik.

b) *sıralı yə ya komparativ (lat, comparatiyus - müqayisəli) məlumatlar* - bu məlumatlar əsasında tədqiq olunan obyektdə aşkarlanan xüsusiyyətlərin qəbul olunmuş qiymətlər sistemində yeri, yəni buraxıla bilən həddən nə qədər yüksək və ya aşağı səviyyədə olması müəyyənləşdirilir; bu proses öyrənilən əlamətinə görə tədqiq olunan obyektin inkişaf (və ya geriləmə) xətti (cərgəsi) üzrə düzülüşünə imkan verir;

• **metrik** *(müyafik ölçmələr nəticəsində əldə olunan məlumatlar, bunlara kəmiyyət xarakterli məlumatlar da deyilir):*

a) *interyallı məlumatlar* - bu məlumatlar metrik olaraq hər hansı obyektə xas olan əlamətlərin digər obyektin əlamətlərindən hansı həddə fərqlənməsini təyin etməyə imkan verir;
b) *mütənasibli məlumatlar* - bu məlumatlar intervallı məlumatlara əlavə kimi qəbul edilir və iki obyektin əlamətlərinin bir-birindən konkret olaraq hansı qiymətdə fərqlənməsini bildirir; bu məlumatların əldə olunması üçün (intervallı məlumatların əldə olunması prosesində də müvafiq şkalalar tərtib edilir) tərtib edilmiş şkalalarda (belə şkalalara *mütənasiblik* və ya *münasibətlər şkalası* deyilir) buraxıla bilən həddi, yəni nortmativ qiymət əks olunur və sonra alınmış göstəricilər bu qiymətlə müqayisə

edilir (məsələn, səsin yüksəkliyi və ya alçaqhq həddi, temperaturun yüksək və ya alçaq olmasını təyin edən şkalalar və s., təəssüflər olsun ki, psixoloji xarakteristikalar üçün dəqiq şkalaların tərtib olunması hələ mümkün olmamışdır, belə şkalalar təxmini olaraq tərtib edilir).

Tədqiqat protokollarının tərtibatı haqqında.

Yuxarıda qeyd olunmuş məlumatları əldə etmək üçün tədqiqatın gedişatı dəqiqliklə izlənilməli, heç nə diqqətdən kənarda qalmamalıdır və bütün müşahidə olunan hallar qeydiyyata alınmalıdır. Bunun üçün də *tədqiqat protokolları* tərtib olunur (məlumatların əldə olunması prosesi tədqiqatın metod və vəzifələrindən asılı olaraq konkretləşdirilir), hətta məlumatları qeydiyyata almaq üçün bəzi cihazlardan da istifadə edilir (audio, video və s.). Məlumatların əldə olunması zamanı heç kəsə və ya heç nəyə ziyan vurulmamalı və tədqiqatı həyata keçirən tədqiqatçının atdığı addımlar humanistik tələblərdən kənara çıxmamalıdır.

Protokol formaları müxtəlif ola bilər, lakin protokolda bütün lazımi məlumatlar qeyd olunmalıdır.

Protokol forması

«_____» mövzulu tədqiqat işinin
«____» tarixli, «___» saylı
PROTOKOLU

• *Tədqiqatı aparanlar:*----------—

{ad, soyad)

• *Tədqiq olunanlar:*----------

{ad, soyad, yaş, cins)

• *Tədqiqat metodu:*_____

• *Tədqiqatın məqsədi:*_____

• *Tədqiqatın yeri və vaxtı:*_____

• *Tədqiqatın təşkilatı məsələləri haqqında məlumat*

(məsələn, istifadə olunan təchizat):_____

• *Tədqiqatdan əldə olunanlar:_____*

• *Tədqiqatçının imzası:_____*

• *Köməkçilərin imzası:_____*

• *İmzaların rəsmi təsdiqi və möhür:_____*

Mövzu 14. Eksperimentin nəticələrinin işlənilməsi, ümumiləşdirilməsi və şərhi
Plan:
1.Tədqiqatın yekun mərhələsi haqqında
2. Eksperimental göstəricilərin işlənilməsi mexanizmi
3. Məlumatların interpretasiyası.

Ədəbiyyat:

52. Bayramov Ə.S., Əlizadə Ə.Ə.Psixologiya.Bakı, 2003
53. Qurbanova L.M. Eksperimental psixologiya. Bakı, 2014
54. Qurbanova L.M.Eksperimental psixologiyaya dair mühazirə mətnləri. B-Sum.Dərələyəz –M, 2010.
55. Əmrahlı L.Ş. Eksperimental psixologiya.Dərs vəsaiti Bakı, 2014
56. Quliyev E.M. Eksperimental psixologiya. Testlər.Tədris vəsaiti.ADPU-nun nəşri. Bakı, 2014.

1.Tədqiqatın yekun mərhələsi haqqında
Psixoloji tədqiqatın **yekun mərhələsi** aşağıdakı tərkibdən ibarətdir:

• eksperimental göstəricilərin işlənilməsi;

• tədqiqatın gedişatından əldə olunan məlumatların interpretasiyası;

• tədqiqatın nəticələrinin elmi biliklər sisteminə daxil edilməsi.

2. Eksperimental göstəricilərin işlənilməsi mexanizmi

Psixoloji tədqiqatın əsas mərhələsindən əldə olunmuş məlumatların işlənilməsində riyazi-statistik metodların tətbiqinə geniş yer verilir. Psixologiyaya riyazi-statistikanın tətbiqi birmənalı olaraq çətin prosesdir. Hal-hazırda riyazi metodların psixologiya elmində istifadəsinin yeri elə bir mərhələdədir ki, artıq psixoloji tədqiqatların nəticələrində yalnız nəzəri təhlillərdən əldə olunmuş fenomenlərin şərhi qəbul edilmir, elmi faktların obyektivliyini sübut edəcək göstəricilər tələb olunur. Bu məqsədlə də eksperimental tədqiqatlardan əldə olunan göstəricilərə riyazi- statistik əməliyyatların tətbiqi qaçılmaz bir prosesə çev
rilib. Təbii ki, nəzəriyyələrin psixologiya elminin inkişafında mühüm rol oynaması bir faktdır (nəzəriyyələr olmasa, nəyisə isbat etməyə də ehtiyac olmazdı). Lakin o da faktdır ki, eksperimental-psixoloji tədqiqatlardan əldə olunmuş göstəricilərin obyektivliyinin təminatı baxımından riyazi-statistikanın rolu əvəzedilməzdir. Hal - hazırda riyazi-statistikanın psixoloji tədqiqatlara tətbiqi o qədər təkmilləşib ki, psixologiyanın yeni bir sahəsi - *riyazi psixologiya* da yaranıb.

Riyazi-statistikanın eksperimental psixologiyaya tətbiq olunması tarixinə nəzər saldıqda məlum olur ki, bu prosesin başlanğıcı keçən əsrin əvvəllərinə təsadüf edir *(təşəbbüskarlar: Halton və Spirmeri).* Riyazi-statistikanın psixologiyaya daxil edilmə mərhələləri:

I. Eksperimental tədqiqatlardan əldə edilənlərin yerbəyer edilməsi baxımından riyazi metodlardan istifadə (XIX əsrin sonu və XX əsrin əvvəlləri);

II. Riyazi aparatların köməyilə psixi proseslərin və insan davranışlarının modellərinin tərtibi (40-50-d illər);

III. Əsas məqsədi eksperimental tədqiqatlardan əldə edilən göstəricilərin emalı və psixi proseslərin modelləşdirilməsi prosesini həyata keçirən riyazi mexanizmin (aparatın) işlənilməsi olan riyazi psixologiyanın ayrıca elm sahəsi kimi formalaşması (60-cı illərdən bu günə qədər).

Riyazi psixologiyanı riyaziyyat elmi ilə eyniləşdirmək yanhşdır. Çünki riyaziyyatı bilən, lakin, psixologiyanı bilməyən insanlar bu sahəni düzgün tətbiq edə bilməzlər.

Eləcə də psixoloji nəzəriyyələri bilib riyaziyyatdan anlayışı olmayan insanlar bu əməliyyatlardan istifadə edə bilmirlər. Bu sahəni mükəmməl bilmək üçün həm psixologiyanı, həm də riyaziyyatı bilmək tələb olunur.

Məlumatların *riyazi-statistik emalı* elə riyazi əməliyyatlara, üsullara, formullara, kəmiyyət hesablamalarına deyilir ki, onların köməkliyilə tədqiqatın gedişatından alınan göstəricilərdə olan gizli qanunauyğunluqları aşkarla- maqla onları ümumiləşdirmək, sistemləşdirmək mümkün olsun. Bütün riyazi-satistik təhlil metodları şərti olaraq iki yerə: sadə və mürəkkəb adlandırılan metodlara bölünür. *Sadə riyazi-statistik təhlil metodlarının* köməkliyilə eksperimental göstəriciləri yerbəyer etmək üçün tələb olunan ilkin statistik əməliyyatlar aparılır. Sadə statistik göstəriciləri tədqiqatın əsas mərhələsindən əldə olunan nəticələrə birbaşa tətbiq etmək mümkün olur. Sadə riyazi- statistik təhlil metodlarına - ədədi ortanın tapılması, seçilmiş orta kəmiyyətlərin dispersiyası, seçilmiş moda və medianların təyin edilməsini aid etmək olar. *Mürəkkəb riyazi-statistik təhlil metodları* elə metodlara deyilir ki, onların köməkliyilə ilkin statistik təhlildən əldə olunmuş nəticələrdə gizli qalmış statistik qanunauyğunluqları aşkarlamaq mümkün olur. Mürəkkəb riyazi-statistik metodlara korrelyasiya, reqressiya təhlili metodlarını, bir və ya bir neçə dəfə təkrarlanmış araşdırmaların nəticələrinin ilkin statistik təhlillərinin bir-birilə müqayisəsi aid edilir.

3. Məlumatların interpretasiyası.

Psixoloji tədqiqatın *məlumatların interpretasiyası* adlanan mərhələsində riyazi təhlillərdən əldə olunmuş nəticənin şərhi həyata keçirilir. Bu prosesi əvvəlki mərhələlərdən əldə olunmuş məlumatların nəzəri təhlili kimi də qəbul etmək olar. Nəzəri təhlillərin iki funksiyası var: 1) riyazi-statistik təhlillərdən əldə olunanların yerbəyer edilməsi; 2) riyazi-statistik təhlillərdən əldə edilənlərin nəzəri biliklərə çevrilməsi.

Tədqiqatın lazımi səviyyədə aparılması əvvəlki mərhələlərin gedişatından birbaşa asılıdır. Belə ki, həmin mərhələlərdə kifayət qədər məlumat toplanmasa, interpretasiya prosesinin həyata keçirilməsi də mümkün olmazdı. İnterpretasiya prosesində əsasən bir-birilə qarşılıqlı əlaqəsi olan növbəti əməliyyatlar aparılır: ***1) izahatların aparılması; 2) əldə olunanların ümumiləşdirilməsi.***

****İzahatların aparılması.*** İnterpretasiyadan əldə olunan nəticələr gələcəkdə baş verən proseslər haqqında məlumatların verilməsinə yönəldilibsə - proqnoz, keçmişin necə olması barədə izahatlar isə retroqnoz adlandırılır.

İzahatların verilməsi zamanı psixologiyada müşahidə olunan əsas səhvliklər - subyektiv yanaşmalar və hər hansı fərdi göstəricinin əsas göstərici kimi qabardılmasıdır. Bu hala qəti yol vermək olmaz.
Xarakterinə görə izahatların elmi baxımdın aşağıdakı növləri fərqləndirilir:

• *substansional izahatlar* - belə izahatlar psixikanın fizioloji əsash olmasına istinadən apanlır (psixikanın material substratmın - əsəb sisitemi olması qəbul edilir);

• *atribut xarakterli izahatlar* - (atribut - fəl.-də substansiyanın ayrılmaz xüsusiyyəti, ayrılmaz cəhəti kimi qəbul olunur) obyektin keçmiş əlamət və vəziyyətinə əsaslanaraq həyata keçirilir;

• *genetik xarakterli izahatlar* - obyektin keçmişi ilə bağlı məlumatlara əsaslanaraq aparılır; belə güman edilir ki, keçmişdəki dinamikam bilməklə gələcək inkişafın dinamikasını müəyyən etmək mümkündür;

• *struktur xarakterli izahatlar* - obyektin elementlərdən ibarət olan tərkibinin müəyyənləşdirilməsinə və onun tərkib hissələrinin bir-birilə əlaqəsinin aşkarlanmasına (təyin edilməsinə) əsaslanır.

Bu qeyd olunmuş izahat növləri əksər hallarda kompleks şəkildə aparılır, yəni nəzəri təhlillər zamanı onların hər birindən istifadə edilir. Psixoloji tədqiqatların izahatları müxtəlif ola bilər. Ümumilikdə onları iki qrupa bölürlər (bu bölünmə J.Piaje tərəfindən təklif olunmuşdur):

1. Reduksionizm (və ya sadələşdirilmiş izahatlar):

■ *psixoloji reduksionizm* - mürəkkəb psixoloji məlumatların sadələşdirilməsi kimi başa düşülür (məsələn, insanın sosial davranışının mürəkkəb formasının freydizmə görə «libido» fəaliyyəti kimi izah edilməsi);
■ *psixoloji olmayan reduksionizm* (psixoloji faktorların qeyri-psixoloji xarakterli səbəblərlə izah edilməsi);

a) *fiziki izahatlar* - psixoloji olanın fiziki olanla əlaqələndirilməsi (məsələn, insanın və onun ruhunun mövcudluğunun torpaq, su, hava, atomlar və s. ilə əlaqələndirilməsi);

b) *fizioloji izahatlar* - psixoloji olanın fizioloji olanla

əlaqələndirilməsi (məsələn, neqativ davranışlara əsas verən psixoloji pozuntuların fizioloji (sinir sistemi) komponentlərdəki pozuntularla əlaqələndirilməsi;

c) *sosioloji izahatlar* - fərdi reaksiya və davranış səbəblərinin mikromühit (lazım olduqda isə makromühit) sferalı sosial çərçivədə axtarılması;

2. *Konstruktivizm (reduksionist izahatları zənginləşdirəcək izahat modellərinin işlənilməsi):*

a) *həyati təcrübə modelinə əsaslanan izahatlar* - davranışı formalaşdıran səbəblərin ətraf mühitin təsiri və bu təsirə qarşı olan cavab reaksiyaları ilə əlaqələndirilməsinə (məsələn, biheviorizmin məşhur düsturu: stimul-reaksiya (SoR)) əsaslanır;

b) *genetik (anadangəlmə) təcrübə modelinə əsaslanan izahatlar* - anadangəlmə davranış konstruksiyasına əsaslanır (məsələn, imprintinq nümunəsinə əsaslanan izahatlar);

c) *abstrakt modelə əsaslanan izahatlar* - müxtəlif davranış formaları və reaksiyalarının təsəvvürdə canlandırıl- masına əsaslanır (psixi hadisələrin riyazi təsəvvür modeli

də abstrakt modelə əsaslanan izahatlar içərisində geniş yayılanıdır, məsələn, faktor təhlili); abstakt modelə əsaslanan izahatlara aşağıdakıları da aid etmək olar:

- *teoloji* (yun. theos - Allah deməkdir) izahatlar - baş verən hər bir hadisə «Dünyanın yaranması və onun hərəkəti yalnız Allaha məxsusdur» fikrinə əsasən həyata keçirilir;
- *teleoloji* (yun. teleos - məqsəd deməkdir) izahatlar - dünyada və eləcə də insanın daxili aləmində baş verən bütün hadisələrin məqsədyönlü olması qəbul edilir.

Əldə olunan məlumatların ümumiləşdirilməsi*. Ümumiləşdirmə müəyyən qrup obyektlər üçün tipik-xarakterik xüsusiyyətləri dəqiqləşdirmək məqsədi daşıyır. Eksperimental praktikada **ümumiləşdirmələr əsasən növbəti istiqamətlər üzrə həyata keçirilir:

• *durumlara görə ümumiləşdirmələr* - nəticələrin daha geniş əhatəli şəraitə aid edilməsinə əsaslanır;
• *cavablara görə ümumiləşdirmələr* - müxtəlif reaksi- yalı davranışların ümumi kateqoriya (dərəcə) altında birləşdirilməsinə əsaslanır;
• *şəxsiyyətə görə ümumiləşdirmələr_* - tədqiq olunan müəyyən kontingent (məsələn, yaş, cinsi mənsubiyyət, etnik, peşə, sosial, bioloji və s. qıruplara aid) insanların cavablarının həmin kontingentdən olan daha çox sayda insanların cavabı kimi qəbul olunması prinsipinə əsaslanır; (seçilmiş kontingentlərin reprezentativlik göstəricisinin təmin olunması şərti ilə)
• *əlaqələrə (münasibətlərə) görə ümumiləşdirmələr* - eksperimental praktikada mövcud olan dəyişənlər arasındakı əlaqələrə əsaslanır.

Nəticələrin elmi biliklər sisteminə daxil edilməsi.

Psixoloji tədqiqatın gedişatından əldə olunan nəticələrin xülasəsinin yazılması ümumi prosesin başa çatmasım bildirir. Yekunlaşma prosesində problemin mahiyyəti qısa və yığcam (lakonik) şəkildə açıqlanmalıdır. Bu proses tədqiqatın məqsəd və vəzifələrilə uzlaşdırılmalıdır. Nəticələr çıxarılarkən onlann sayı da müəyyən hədd çərçivəsində, yəni bizim yaddaş və diqqətimizin qəbul edəcəyi norma həddinə uyğun olmalıdır (minimum 3-4, ən çoxu 7-9). Nəticələrin sözlərlə yazılması o qədər də vacib deyil, nəticələr qrafik təsvirlərlə də təqdim oluna bilər (məsələn, riyazi formullar, fiziki modellər şəklində). Əsas odur ki, nəticələr aydm və başa düşülən olsun. Mükəmməl işlənilmiş nəticələrin elmi biliklər sisteminə daxil edilməsi də çox rahatdır. Bu prosesdə onun aktuallığı, nəzəri və praktik əhəmiyyəti, elmi yeniliyi nəzərə alınır.

Eksperimental tədqiqat tədqiq olunan fenomenlərin səbəblərini və / və ya təsirlərini müəyyənləşdirmək üçün məlumatları təcrübə yolu ilə əldə edən və daimi dəyişənlərlə müqayisə edən tədqiqatdır. Buna tez-tez eksperimental elmi metod da deyilir.

Eksperimental tədqiqatların ümumi bir nümunəsi xəstənin sağlamlıq vəziyyətinin səbəblərini təyin etmək üçün laboratoriya qan testləridir. Bu testlərdə xəstənin

nümunələrindən alınan nəticələr normal dəyərlər aralığını göstərən sabit dəyişənlərlə müqayisə olunur.

Eksperimental kəmiyyət tədqiqatının bir növüdür. İdarəetmə protokoluna, dəyişənlərin mövcudluğuna, deyilən dəyişənlərin manipulyasiyasına və ölçülən nəticələrin müşahidəsinə əsaslanır. Məqsədlərinə görə dizaynı eksperimental, həqiqi eksperimental və ya yarı eksperimental ola bilər.

Eksperimental tədqiqat, tədqiqat obyektini izah etmək üçün sənədli məlumat olmadıqda və ya mövcud məlumatın təsdiqlənməsi lazım olduqda istifadə olunur. Həm də bir fenomendəki səbəb və nəticə əlaqələrini anlamaq üçün vaxt həlledici olduqda istifadə olunur.

Eksperimental tədqiqatların xüsusiyyətləri

Eksperimental tədqiqat, analiz metodlarından irəli gələn spesifik xüsusiyyətlərə malikdir.

- **Asılı dəyişənlər və müstəqil dəyişənlər.** Bütün eksperimental tədqiqatlar asılı və ya sabit dəyişənlərdən başlayır (nəzarət qrupu rolunu oynayır). Bunları müstəqil dəyişənlərlə qarşılaşdırmaq lazımdır, bunlar tədqiqatçı tərəfindən müəyyən nəticələr əldə etmək üçün manipulyasiya edənlərdir.
- **Nəzarət olunan şərtlər.** Təcrübələr, tədqiqat obyektinin davranışını təsir edən amillərdən aydın olmaq üçün ciddi şəkildə idarə olunan şərtlər altında tətbiq olunur.
- **Dəyişənlərin manipulyasiyası.** Təcrübə, müstəqil nəzarət edənləri fərqli nəticələr əldə etmək üçün qəsdən manipulyasiya edən tədqiqatçı tərəfindən təqdim olunur və ya təhrik olunur, həmişə nəzarət altında və ciddi şərtlər altında.
- **Tədqiqat obyektinin müşahidəsi.** Tədqiqatçı tədqiqat obyektinin onun üçün qurulmuş hər bir ssenaridə davranışını müşahidə etməlidir, ondan az və ya çox qəti məlumat əldə edə bilər.

Mövzu 15. Psixologiyada əsas eksperimental tədqiqatlar

Plan:

1. **Psixologiyada əsas eksperimental tədqiqatlar**
2. **Eksperimental tədqiqatların növləri**

Ədəbiyyat:

57. Bayramov Ə.S., Əlizadə Ə.Ə.Psixologiya.Bakı, 2003
58. Qurbanova L.M. Eksperimental psixologiya. Bakı, 2014
59. Qurbanova L.M.Eksperimental psixologiyaya dair mühazirə mətnləri. B-Sum.Dərələyəz –M, 2010.
60. Əmrahlı L.Ş. Eksperimental psixologiya.Dərs vəsaiti Bakı, 2014
61. Quliyev E.M. Eksperimental psixologiya. Testlər.Tədris vəsaiti.ADPU-nun nəşri. Bakı, 2014.

Stanford həbsxana təcrübəsi

1971-ci ildə sosial psixologiya mütəxəssisi Filip Zimbardo insanların hansı sosial rollara uyğun gəldiklərini araşdırmaq üçün bir qrup universitet tələbəsini saxta bir həbsxanada iki həftə müddətinə sınağa dəvət edir. Təcrübədə iştirak edənlərin yarısına məhkum, yarısına da nəzarətçi rolu verilir. Nəticələr gözlənilməz olur. Sakit universitet tələbələri, amansız nəzarətçiyə, ya da qorxaqlığı getdikcə artan məhkuma çevrildilər. Zimbardonun qurduğu bu saxta həbsxanada yaşanan amansızlıqların, reallığa çevrilməsi nəticəsində təcrübə vaxtından əvvəl - altı gün sonra - yekunlaşdırıldı.

Bədheybət eksperiment

1939-cu ildə keçirilən bu təcrübədə 22 yetim uşaq istifadə olunub. Bunlardan onu əvvəllər nitq qüsuru olan və pəltək uşaqlar imiş. Uşaqlar iki qrupa ayrılır. Bir qrupun terapisti uşaqlarda müşahidə etdiyi inkişafı və nitqlərinin düzəlməsinə görə onları mükafatlandırdı, digər terapist isə ən kiçik nöqsanlara görə uşaqlara cəza tətbiq elədi. Nəticələr göstərdi ki, neqativ münasibət görən uşaqlar ağır psixoloji zədələr aldılar. Ancaq bundan daha pisi terapiyadan əvvəl nitq qüsuru olmayan uşaqların da danışıqlarında qüsur yaranması idi. 2007-ci ildə bu yetim uşaqlardan altısı məruz qaldıqları sarsıntıya görə 920 min dollarlıq təzminat aldılar.

MK-ULTRA

Mərkəzi Kəşfiyyat İdarəsi (ABŞ) 50-60-cı illərdə MK-ULTRA layihəsi çərçivəsində zehin və psixologiya nəzarəti ilə əlaqəli bir sıra qeyri-etik təcrübələr həyata keçirdi. Teodor Kaçinski, başqa adıyla Unabomber MKİ-nin bu təcrübələrinə məruz qaldığını və təcrübələrin onda zehni tarazlığın pozulmasına gətirib çıxara biləcəyini iddia elədi. Başqa bir hadisə zamanı Amerikan ordusunun bioloji silahlar üzrə mütəxəssisi Frank Olsona LSD (güclü narkotik vasitə-red.) tətbiq olunub. Bu, Olsonun şüurunda narahatlıq yaradıb. LSD-nin əks effektinə görə Olsun təcrübə barədə ictimaiyyətə məlumat vermək istəyirdi. Nəticədə Olson öldürüldü. Onun bir cinayətə qurban getməsi ilə bağlı dəlillər olsa da qaldığı otelin 13-cü mərtəbəsindən düşüb ölməsi intihar kimi qələmə verildi.

Fillər üzərində tətbiq edilən LSD

1962-ci ildə Oklahomada yerləşən Linkoln zooparkının direktoru Uarren Tomas Tusko adlı filə bir insana verilə biləcək LSD dozasının 3000 dəfə artığını iynə ilə vurdu. 25 milliqram LSD bir insanın yarım gün boyu halsız qalmasına bəs edir. Təcrübənin məqsədi LSD-nin cinsi təcavüz və dəlilik təzahür edən "musth" adlı təsirini ölçmək idi. Həddindən artıq dozada LSD vurulan Tusko qısa müddət sonra yerə yıxıldı və titrəyərək öldü.

Milqram təcrübəsi

Stenli Milqram 1963-cü ildə insandakı zoralılıq meylini anlamaq üçün təcrübə keçirir. Məqsəd alman xalqının soyqırımında iştirak etməsində müəyyən səbəblərin olub-olmamasını müəyyən etmək idi. Təcrübədə iştirak edənlərə deyilir ki, digər otaqda bir nəfər var və suallarına səhv cavab aldıqları təqdirdə onlara elektrik şoku verə bilərlər. Şok verilən adam aktyor idi. Əslində şok da həqiqi deyildi, amma təcrübədə iştirak edənlər bunu bilmirdi. Bəs bu təcrübənin qorxunc tərəfi nə idi? Təcrübədə iştirak edənlərin əksəriyyəti təcrübəçinin təlimatına uyğun hərəkət edərək suala cavab verə bilməyən adama elektrik şoku tətbiq etdilər. Ən maraqlı tərəfi odur ki, təcrübədə iştirak edənlər şok alan adamın qışqırıqlarına məhəl qoymadan elektrikin dərəcəsini daha da artırdılar. Görəsən şərə meylilik hamımızın içində varmı?

Toni LaMadrid

Dərmanla müalicə olunan çoxlu şizofreniya xəstəsi 1983-cü ildə Kaliforniya Universitetində həyata keçirilən bir proqrama qatılır. Proqram müalicə zamanı dərmanlardan istifadəni dayandırmağı şərt qoymuşdu. Bu iş şizofreniyanın müalicəsində yeni nailiyyətlər əldə etmək məqsədi daşıyırdı. Amma dərman qəbulunu dayandırdıqları üçün xəstələrin 90 faizində ağırlaşma müşahidə olundu.

Təcrübənin iştirakçılarından biri olan Toni LaMadrid təcrübənin başladıldığı tarixdən altı il sonra eyni binanın damından özünü ataraq öldü.

Çarəsizlik qəfəsi

Psixoloq Herri Harlou 1970-ci illərdə meymunlar üzərində etik olmayan təcrübələr apardı. Təcrübələrdən birində "çarəsizlik quyusu" adını verdiyi, boş və xarici təsirlərdən kənarlaşdırılmış otaq hazırlanmışdı. Otağa süd verən dəmir aparat və yumşaq oyuncaq qoyulmuşdu. Meymunlar daha çox süd verən aparata yox, yumşaq "ana"ya meyl göstərirdilər. Təcrübə nəticəsində xarici aləmdən tamamən təcrid olunmuş meymunlar dəli oldu, hətta ikisi özünü aclığa məhkum edərək öldürmək istəyirdi. Harlou məsləkdaşlarının tənqidinə reaksiya vermədi və belə dedi: "Meymunları necə sevə bilərsiz?" Bu qorxunc təcrübələr heyvan haqları hərəkatlarının tənqidindən sonra dayandırılmışdır.

Üçüncü dalğa

Psixoloq Milqram tərəfindən aparılan təcrübəyə bənzər "Üçüncü dalğa" adlı başqa bir təcrübə 1967-ci ildə həyata keçirildi. Təcrübə demokratik cəmiyyətlərdə faşizmin nə dərəcədə cəlb edici olub-olmamasını müəyyən etmək məqsədi daşıyıb. Bunun üçün təcrübə aparanlar bir lisey içində bəzi şagirdlərdən istifadə edərək onlara prestijli bir qrupa aid olduqlarını aşılayıb. Şagirdlərin təhsilə marağının artması bir tərəfə onlar eyni sinifdən olmayan şagirdlərə yad münasibətə göstərməyə, öz qruplarından olmayanları xor görməyə başladılar. Daha qorxuncu budur ki, şagirdlər bunu istəkli şəkildə həyata keçirir, sinifdən kənarda da edirdilər. Təcrübənin nəzarətdən çıxdığını görən təşkilatçılar dörd gün sonra dayandırdılar.

Homoseksuallıqdan soyutma terapiyası

1960-cı illərdə homoseksuallıq zehni xəstəlik hesab olunurdu. Eyni cinsdən, bir-birlərindən xoşları gələn insanların özlərini sağaltmalarının yolunu tapmaq üçün könüllülər axtarılırdı. Təcrübədə iştirak edənlərə homoseksual görüntülər göstərilir və bu zaman elektrik şoku verilir, iynə vurmaqla süni ürəkbulanması yaradırdılar. Məqsəd onları diksindirmək, homoseksuallıqla ağrını eyniləşdirmək idi. Aparılan təcrübələr homoseksuallığı müalicə etməkdən çox onlarda psixoloji zədələr yaratdı. Hətta bir dəfə təcrübə zamanı iştirakçılardan biri komaya düşdü.

David Reimer

1966-cı ildə 8 aylıq olan David Reimerin sünnət əməliyyatı son dərəcə uğursuz olmuş və o, penisini itirmişdi. Psixoloq Con Mani təklif etdi ki, David cinsini dəyişsin. Valideynləri də bu məsələdə həmfikir oldular, ancaq Mani və oğlanın ailəsi gizli şəkildə həyata keçirilən təcrübənin kiçik bir parçası olduqlarını

bilmirdilər. Təcrübənin məqsədi cinsi kimliyin doğuşdan deyil, ətraf mühitin təsiri ilə formalaşdığını irəli sürən iddianı sübut etmək idi. Davidin adı dəyişdirilərək Brenda oldu, cərrahi müdaxilə ilə qadın cinsiyyət orqanı düzəldildi və hormon dəstəyi verildi. Amma Brenda uşaq vaxtı standart bir oğlan kimi davranırdı. Reimer ailəsi Brendanın 14 yaşı olanda onun yaşadığı çətinliklərə daha dözməyib həqiqəti söylədilər və qərara gəldilər ki, övladlarını yenidən David etsinlər. Amma təcrübə faciəvi şəkildə yekunlaşdı və David 38 yaşında intihar etdi.